Hər kəs ədalətli olacaq

www.adalet.az

ƏDALƏT

Qurucusu: Adil Minbaşıyev

İctimai-siyasi, hüquq qəzeti

Qəzet 1990-cı ilin iyulundan çıxır

№ 44 (6186) 20 noyabr 2026-cı il

Qiyməti 40 qəpik

20 NOYABR AĞDAM ŞƏHƏRİ GÜNÜDÜR



Hikmət Hacıyev NATO nümayəndələri ilə görüşdü



Azərbaycan NATO-nun etibarlı tərəfdaşı kimi beynəlxalq sülh və təhlükəsizliyə, o cümlədən beynəlxalq sülhə dəstək əməliyyatlarında iştirakı vasitəsilə ardıcıl töhfə verib.

Adalet.az xəbər verir ki, bunu Azərbaycan Prezidentinin köməkçisi - Prezident Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev "X" hesabında yazıb.

Prezidentin köməkçisi qeyd edib ki, NATO-nun Daimi Nümayəndələrinin Müavinləri Komitəsi ilə "NATO+Azərbaycan" formatında keçirilən görüş Azərbaycan-NATO tərəfdaşlığının inkişafında əldə olunan irəliləyişi qiymətləndirmək, habelə regional və beynəlxalq gündəmdəki aktual məsələləri müzakirə etmək üçün fürsət yaradıb:

"Azərbaycan NATO-nun etibarlı tərəfdaşı kimi beynəlxalq sülh və təhlükəsizliyə, o cümlədən beynəlxalq sülhə dəstək əməliyyatlarında iştirakı vasitəsilə ardıcıl töhfə verib. İllər ərzində Azərbaycan-NATO əməkdaşlığı siyasi dialoqu, eləcə də müdafiə, təhlükəsizlik və potensialın gücləndirilməsi sahələrində praktiki əməkdaşlığı əhatə edən çoxşaxəli tərəfdaşlığa çevrilib".

Hikmət Hacıyev görüşdə bildirib ki, Azərbaycanın 1994-cü ildə müharibə və qeyri-müəyyənlik şəraitində bu tərəfdaşlığa qoşulub.

"Bu gün isə suverenliyini bərpa etmiş, real sülh şəraitində olan və regional məsuliyyəti getdikcə artan bir ölkə mövqeyindən danışırıq. Tərəfdaşlığımız qarşılıqlı hörmətə, ortaq maraqlara və praktiki əməkdaşlığa əsaslanır. Təhlükəsiz, əlaqəli və sülh şəraitində olan Cənubi Qafqaz naminə bu tərəfdaşlığı daha da inkişaf etdirməyə hazırıq".



Dünyanın iki "vor zakon" dövlətlərinin başçısı Trampla Putin üçüncü "vor zakon" dövlət Çində bir araya gəliblər. Putin hər ehtimala qarşı gedəndə nüvə silahını idarəetmə pultunu, yəni "çemodanını" özüylə götürüb ki, çox da hoppanıb düşməyin.

Amma qorxmaq lazım deyil, bu Yer üzünü Allah düzəldib, heç bir bəndə onu dağıda bilməz.

"Mediaya ayrılan vəsait artırılmalıdır"

"Milli düşüncəni və milli düşüncə platformasının keyfiyyətini təyin edən mediadır, televiziyalardır, media yayımıdır. Bura ayrılan məbləğ 68 milyon 369 min manatdır. Mən ötən illə müqayisə etmək istəmirəm, çünki xeyli azalıb".

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin plenar iclasında "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı deputat Hikmət Məmmədov deyib.

"Bir gün əvvəl Media Yayım Şurası Fransa mənşəli informasiya subyektinin Azərbaycana qarşı təxribatları ilə bağlı paylaşım etdi. Bunlar elə ideoloji təxribatlardır və ideoloji təhlükəsizlikdir. Belə olan halda, məsələn, 68 milyonun 53,5 milyonu televiziyalara, 14,5 milyonu media yayıma ayrılır.

Gələcəkdə biz nələrdənsə alıb bura verə bilərik və yaxud müstəqil bir mənbə kimi bu sahələri daha da gücləndirə bilərik. Çünki bu gələcəyin çağırışıdır", - deyə deputat bildirib.

Aqil ABBAS
aqilabbas@rambler.ru

ÇAYXANADAN YIĞILMIŞ FUTBOLÇULAR



Deməli, 70-ci illərdir. Bakıda Azərbaycan üzrə futbol turniri keçirilir. Ağdama da xəbər göndəriblər ki, futbolçular yarışa gəlməlidirlər. Yay idi. Bütün futbolçular hərəsi bir yerdədi. Kimi bağda, kimi dağda, kimi Rusiyada, kimi alverdə, kimi də Şuşa da kef edir...

Allahverdi Bağırov komandanı bir yerə yığa bilmir. Rəhmətlik gəlir Fazil müəllimin kinoteatrının arxasındakı çayxanaya. Deyir ki, uşaqlar, bizi yarışa çağırıblar. Getməsək, bizə cərimə yazacaqlar. Məsul cəmiyyətin yarışıdır deyə bizi növbəti yarışlardan qova bilərlər. Mütləq getməliyik.

Kim futbol oynaya bilirsə, qalxsın ayağa. Aparacam Bakıya, 4-5 gün orda qalıb yeyib-içməyi mənlikdir. Lap uduzsaq da, eybi yoxdur. Əsas odur cərimə almayaq. Təxminən 10-15 oğlan ayağa qalxır. Allahverdi gedib avtobus kirayə verilən yerdən "Taksi-motornu"dan avtobus götürür. Beləcə, uşaqları yığıb Bakıya gətirir. Turnir indiki "Şəfa stadionu"nda idi. O vaxt belə deyildi, adi stadion idi.

Bax: səh.3

Gözəlim Ağdamda işğaldan azad olunandan sonra ilk dəfə "Şəhər günü" keçirilir noyabrın 20-də.

İnşallah, 2040-cı ildə yüz minlik Ağdamın Şəhər günü keçirilər, xeyirli-uğurlu olsun. Bütün ağdamlıları təbrik edirik.



Ağa Laçınlı necə deyir:

Yenə də baş çəkim Ağdama gərək,
Qarqarın suları Ağdama gərək.
Bu yerin qədrini bilməyənlərin
Qara gözlərinə ağ dama gərək.

Ali Baş Komandan, Cənab Prezident İlham Əliyevin sərkərdəliyi ilə şəhidlərimizin və qazilərimizin göstərdikləri şücaətlə gözlərimizə ağ dammadı.



Dağ kəndləri boşalır. Səbəbini tapana bir balon qaz verəcəyik.



Gözünə döndüyüm Çin dünyanın ən böyük maşın devi olan Almaniyanı maşın bazarından çıxartmaq üzrədir.

İlham Əliyev Dövlət Qulluğu Məcəlləsini təsdiqləyib



Prezident İlham Əliyev Azərbaycan Respublikası Dövlət Qulluğu Məcəlləsinin təsdiq edilməsi, qüvvəyə minməsi və bununla bağlı hüquqi tənzimləmə haqqında Qanunu təsdiqləyib.

Məcəllə Ümumi və Xüsusi hissələrdən ibarət olmaqla, 5 bölmə, 15 fəsil və 94 maddəni özündə birləşdirir. Məcəllə dövlət qulluğunun idarə olunmasını, prinsiplərini, dövlət orqanlarının və dövlət qulluğu vəzifələrinin təsnifatını, dövlət qulluqçularının hüquq və vəzifələrini, qulluq stajını və ixtisas dərəcələrini əhatə edir. Həmçinin dövlət qulluğuna qəbul, müsabiqə və müsahibə, vəzifəyə təyinat, stajorluq və sınaq müddəti, rotasiya, xidməti fəaliyyətin və səriştələrin qiymətləndirilməsi, vəzifədə irəliləyiş, əlavə təhsil və peşəkar inkişaf, əməkhaqqı və digər təminatlar, məzuniyyət, etik davranış qaydaları, intizam məsuliyyəti və dövlət qulluğuna xitam verilməsi ilə bağlı məsələlər tənzimlənir.

Beləliklə, Məcəllə ilə dövlət qulluğu sahəsində qüvvədə olan bir sıra müddəalar sistemləşdirilərək vahid normativ aktda birləşdirilir.

Qanuna əsasən, Azərbaycan Respublikasının digər normativ hüquqi aktları Azərbaycan Respublikasının Dövlət Qulluğu Məcəlləsinə uyğunlaşdırılanadək həmin Məcəlləyə zidd olmayan hissədə tətbiq edilir.

Məcəllənin qüvvəyə minməsi ilə "Dövlət qulluğu haqqında" Qanun, "Dövlət qulluqçularının ayrı-ayrı kateqoriyaları üçün qısaldılmış iş vaxtı haqqında", "Azərbaycan Respublikasının Dövlət Qulluğunu İdarəetmə Şurası haqqında", "Dövlət qulluqçularının vəzifə maaşlarına yerli əmsalların müəyyən edilməsi haqqında", "Qulluq şəraiti həyat və sağlamlıq üçün təhlükəli olan, yaxud xüsusilə ağır olan dövlət orqanlarında dövlət qulluqçularının vəzifə maaşları üçün artıq əmsalın müəyyən edilməsi haqqında" və "Dövlət qulluqçularının etik davranış qaydaları haqqında" qanunların qüvvədən düşür.

Azərbaycan Respublikasının Dövlət Qulluğu Məcəlləsi qüvvəyə mindiyi günədək qüvvədə olmuş "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən inzibati və yardımçı vəzifələrin təsnifat toplusuna uyğun olaraq inzibati vəzifə üzrə test imtahanından keçdiyini təsdiq edən və etibarlılıq müddəti başa çatmamış "Dövlət qulluğu sertifikatı"na malik olan şəxslər həmin sertifikatın qüvvədə olma müddəti ərzində bu Məcəlləyə uyğun olaraq müsahibələrdə iştirak etmək hüququna malikdirlər.

Prezident Gürcüstanın Baş nazirinin müavinini qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev noyabrın 17-də Gürcüstanın Baş nazirinin müavini, iqtisadiyyat və davamlı inkişaf naziri Mariam Kvrivişvilini qəbul edib.

Bu barədə Azərbaycan Prezidentinin Mətbuat xidməti məlumat yayıb. Söhbət zamanı bu ilin aprelində Azərbaycan Prezidentinin Gürcüstana dövlət səfəri, həmçinin Mariam Kvrivişvilinin ötən il ölkəmizə səfəri və dövlətimizin başçısı ilə görüşü məmnunluqla xatırlandı, bütün bunların ikitərəfli əlaqələrimizin inkişafına töhfə verdiyi qeyd olundu.

Qonaq Gürcüstanın Baş naziri İrakli Kobaxidzenin salamlarını Prezident İlham Əliyevə çatdırdı.

Dövlətimizin başçısı salamlara görə minnətdarlığını bildirdi, onun da salamlarını Baş nazir İrakli Kobaxidzeyə çatdırmağı xahiş etdi. Görüşdə Azərbaycanla Gürcüstan arasında dostluq və mehriban qonşuluq prinsiplərinə əsaslanan ikitərəfli münasibətlərin müxtəlif istiqamətlər üzrə uğurla inkişaf etməsindən məmnunluq bildirildi. Azərbaycanla Gürcüstanın birgə həyata keçirdiyi enerji və nəqliyyat layihələrinin daha geniş region üçün mühüm əhəmiyyət kəsb etdiyi vurğulandı. Söhbət zamanı müxtəlif səviyyəli qarşılıqlı səfərlərin əlaqələrimizin inkişafında roluna toxunuldu, ticarət dövriyyəsinin artırılması, bağlantılar, enerji, sərmayələr və digər istiqamətlərdə əməkdaşlığın daha da möhkəmləndirilməsi ilə bağlı fikir mübadiləsi aparıldı.

Spiker: "Əhalinin gəlirlərinin artırılması üçün lazımi tədbirlər görülür"



"10 ay ərzində dövlət büdcəsi 4,8 milyard manat profisitlə icra olunub. Oktyabr ayının sonuna olan məlumata görə, ölkəmizin strateji valyuta ehtiyatları 89 milyard dollara yaxınlaşıb. Bu isə xarici dövlət borcundan təqribən 20 dəfə çoxdur".

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin plenar iclasında "Azərbaycan Respublikasının 2027-ci il dövlət büdcəsi haqqında" qanun layihəsinin müzakirəsi zamanı spiker Sahibə Qafarova deyib.

MM sədri bildirib ki, sosial sahəyə böyük diqqət yetirilir, insanların rifah halının daha da yaxşılaşdırılması, əhalinin gəlirlərinin artırılması üçün lazımi tədbirlər görülür:

"Məmnunluqla qeyd olunmalıdır ki, gələn il üçün dövlət büdcəsinin gəlirləri 39 milyard 254 milyon manat məbləğində proqnozlaşdırılıb. Bu, cari ilin proqnozu ilə müqayisədə 645 milyon manat çoxdur. Dövlət büdcəsinin xərcləri isə 42,4 milyard manat olacaq. Bu da cari illə müqayisədə təqribən 696 milyon manat çoxdur. Gələn il büdcə xərclərinin prioritetləri arasında iqtisadi artımın dəstəklənməsi və əhalinin sosial müdafiəsinin, xüsusən həssas təbəqələrin sosial təminatının daha da gücləndirilməsi əsas yer tutur".

Deputat: "Əmanət faizlərinə gələn ildən vergi tətbiq oluna bilər"



Gələn ildən bank əmanətlərindən əldə olunan faiz gəlirlərinin vergiyə cəlb edilməsi gündəmə gələ bilər. Milli Məclisin deputatı Vüqar Bayramov əmanətlər üzrə mövcud vergi güzəştlərinin daha 3 il müddətinə uzadılmasını təklif edib.

Adalet.az xəbər verir ki, deputat bu barədə Vergi Məcəlləsinə təklif olunan dəyişiklikləri şərh edərkən bildirib. Onun sözlərinə görə, hazırda qüvvədə olan qanunvericiliyə əsasən, fiziki şəxslərin banklarda milli valyutada yerləşdirdikləri depozitlər üzrə hesablanan aylıq faiz gəlirlərinin 200 manatadək olan hissəsi gəlir vergisindən azaddır. Bundan başqa, milli valyutada olan əmanət 18 ay və daha artıq müddətə yerləşdirildikdə və əsas məbləğ 18 aydan tez olmayaraq geri qaytarıldıqda, faiz gəlirlərinin tam hissəsi vergidən azad edilir. Lakin Vergi Məcəlləsinin 102.1.22-4-cü maddəsi ilə nəzərdə tutulan güzəştin müddəti bu ilin sonunda başa çatır. Deputatın diqqətə çatdırdığına görə, müzakirə olunan dəyişikliklər paketində həmin müddətin uzadılması nəzərdə tutulmayıb. Bu isə o deməkdir ki, güzəşt müddəti artırılmasa, gələn ildən bir bankda milli valyutada yerləşdirilən əmanətlər üzrə aylıq 200 manatdan artıq faiz gəlirləri vergiyə cəlb edilə bilər. Məsələn, aylıq faiz gəliri 500 manat olan əmanət üzrə 300 manatlıq hissəyə gəlir vergisi tətbiq olunacaq. Vüqar Bayramov hesab edir ki, güzəştlərin davam etdirilməsi həm əhalinin gəlirlərinin qorunması, həm də bank sektorunda uzunmüddətli depozitlərin payının artırılması baxımından əhəmiyyətlidir. Deputat qeyd edib ki, hazırda bankların ümumi öhdəliklərinin 76,4 faizini, yaxud 41,8 milyard manatını depozit portfeli təşkil edir. Bu portfelin 57,4 faizi hüquqi şəxslərin, 42,6 faizi isə fiziki şəxslərin əmanətlərinin payına düşür. Fiziki şəxslərin əmanətlərinin isə 64,7 faizi müddətli depozitlərdən ibarətdir. Onun sözlərinə görə, vergi güzəştlərinin tətbiqindən sonra unikal əmanətçilərin sayı 106,7 mindən 226,1 minə yüksəlib. Unikal müddətli əmanətçilərin sayı isə ilin əvvəlindən 16,4 faiz artıb. Deputat vurğulayıb ki, 2030-cu il üçün əsas hədəflərdən biri biznes kreditlərinin bank sektorundakı payını artırmaqdır. Bunun üçün bankların uzunmüddətli depozit resurslarına ehtiyacı var. Bu baxımdan, vergi güzəştlərinin yalnız qısamüddətli fiskal gəlir prizmasından deyil, uzunmüddətli iqtisadi nəticələr nəzərə alınmaqla qiymətləndirilməsini vacib sayır. Vüqar Bayramovun fikrincə, hər 1 milyard manatlıq əmanət üzrə orta hesabla 8 faiz dividend gəliri və həmin gəlirin 10 faiz dərəcəsi ilə vergiyə cəlb olunması nəzərə alınarsa, güzəştlərin uzadılmasının iqtisadi səmərəsi mümkün fiskal gəlirdən daha yüksək ola bilər.

Deputat təklif edib ki, banklarda 18 ay və daha artıq müddətə yerləşdirilən əmanətlər üzrə faiz gəlirlərinin vergidən azad edilməsi daha 3 il müddətinə uzadılsın. O bildirib ki, bu təklif Milli Məclisin iqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclasında da səsləndirilib.

AQİL ABBAS

İNDİ 5 QƏPİKDƏN ÖTRÜ ÖZÜMÜ CIRIM?

Bu, məşhur hadisədi. Xan əmi ilə İldırım Həsənov Qarabağda bir toy aparırmışlar. Xan əmi oxuyanda başına 25-liklər tökürmüşlər, Sovet hökuməti vaxtı da 25-lik 25-lik idi ey. İndiki yüzlükdən iki dəfə hörmətli idi. İldırım Həsənov da oxuyanda 5-lik verirmişlər.

Xan əmi qayıdır ki:

- İldırım, görürsən də qiymətimizi, mənə iyirmi beşlik verirlər, sənə beşlik.

İndiki nəsil İldırım Həsənovu tanımaz, o da çox ustad muğam oxuyan idi, amma danışanda kəkoluyurdu. Bu da qəribə məsələdir ki, oxuyanda kəkolamırlar. İldırım Həsənovun kəkolamaqla bağlı bir neçə lətifəsi var, zaman gəldikcə yazaram.





İldırım Həsənov:

- Xaan əəmi, biir kiişiinin iiki tooyuğu varmış. Biirinin yuyumurtası baazarda on qəəpiyə geedirmiş, oo bibirisininki bebeş qəəpiyə. Ooon qəəpiyə yuyumurtlayan səənin kiimi əəədayla bebeş qəəpiyə yuyumurtlaayana dedeyir. Heheç ev saahibindən uutanırsan məənim yuyumurtam oon qəəpik, səəninki bebeş qəəpik.



Oo biri tooyuq dedeyir:

- İndi səən nə iistəəyirsən, dedeyirsən bebeş qəəpikdən öötrü bübüzdüyümü cıcırım?

İndi çox yumurtlayan toyuqlarla az yumurtlayan toyuqların arasında qırğın düşəcək.

Rey Kərimoğlu demiş:

- Bunu da elə-belə yazdım...

***

İNDİ DİVİN CANI ŞÜŞƏDƏ DEYİL...

İndiki nəsillər bilməz, keçmişdə nağıllar vardı, həvəslə oxuyardıq. Hətta nağıllara inanardıq da, amma göydən heç vaxt üç alma düşmürdü - nə biri sənin olurdu, nə biri mənim, nə də nağıl söyləyənin.

Sonra göydən bombalar töküldü, elə indi dünyanın çox yerində tökülür, həm deyənə çatır, həm dinləyənə, həm də kənardan baxana.

Deyəsən, mövzudan aralandım. Hə, yadıma düşdü, nağıllarda belə bir şey də vardı - divlər qızları oğurlayırdı, sonra bir Məlikməmməd gedirdi qızları xilas etməyə, amma divə gücü çatmırdı. Necə ki indi göydən bomba tökən divlərə heç kimin gücü çatmır. Div yatanda qızlar Məlikməmmədə deyirdi ki, onun canı şüşədədi, sən o şüşəni qırsan, div öləcək. Amma şüşəni qırmaqla iş bitmirdi, qıranda içindən bir göyərçin uçurdu, gərək üç oxla həmin göyərçini vuraydın, vurmasan daşa dönərdin. Məlikməmməd də birinci oxu atırdı dəymirdi, dizəcən daşa dönürdü, ikinci oxu atırdı dəymirdi qurşağacan daşa dönürdü. Nəhayət, üçüncü oxla vura bilirdi, div ölürdü, Məlikməmməd də daşdan xilas olurdu.

Day belə nağıllar yoxdu. Çünki indi divlərin canı şüşədə deyil, indi hamının canı uşaqlı-böyüklü əl boyda telefondadı. Hamının canı bu əl boyda telefonda, bu telefonlar da bir divin əlindədi. O div də oturub Amerikada, deyəsən, adı da Maskdı.

İndi bütün dünyanın məlikməmmədləri yığışsa, Maskın bir telinə də toxuna bilməzlər. Hətta Tramp da ondan qorxur.

"Şübhəsiz, münasibətlər inkişaf edib dərinləşməsəydi..."

”2026-cı il noyabrın 12-də Dublin şəhərində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Baş naziri Endi Börnhemin ”Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə”ni imzalamaları ilə ikitərəfli münasibətlərdə tarixi hadisə baş verdi və yeni bir tarix yaradıldı. Məlumdur ki, hər hansı bir ikitərəfli və ya beynəlxalq sənədin imzalanması mərasimi bir gündə baş versə də, hazırlanması bir gündə olmur, bəlli zaman aparır. Ortaq maraqlar olmasa sənədlər hazırlanmır və imzalanmır”.

Adalet.az xəbər verir ki, bunu Milli Məclisin sədr müavini Musa Qasımlı deyib.

M.Qasımlı bildirib ki, ona görə də dövlət rəhbəri tərəfindən müəyyənləşdirilən vahid xarici siyasət xəttini həyata keçirən diplomatiya danışıqlar zamanı ortaq maraqları və onların reallaşdırılması yollarını müəyyənləşdirir:

”Bunda əsas rolu dövlət və hökumət başçılarının siyasi iradəsi oynayır. Bəs strateji tərəfdaşlıq özündə nəyi ehtiva edir?Strateji tərəfdaşlıq nə deməkdir? Dövlətlər arasında adi əməkdaşlıqdan fərqlənən strateji tərəfdaşlıq iki ölkə arasında qısamüddətli deyil, uzunmüddətli qarşılıqlı maraqlara və ortaq niyyətlərə əsaslanan əməkdaşlıq münasibətlərinin yaradılmasıdır. Bu tərəfdaşlıq qarşılıqlı maraq və faydaya, etimad və qarşılıqlı hörmətə, ortaq strateji məqsədlərə, siyasi, iqtisadi, təhlükəsizlik, hərbi, elmi və digər sahələrdə ümumi hədəflərə, vacib məsələlərdə qarşılıqlı yardıma, bütövlükdə müxtəlif sahələrdə geniş əməkdaşlığa əsaslanır.İki dövlətin prinsiplərini, məqsədlərini və niyyətlərini elan edən hüquqi-siyasi əhəmiyyət daşıyan bəyannamənin hazırlanmasını və imzalanmasını hansı amillər zəruri edib? Nə üçün Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə? Dərin tarixi köklərə dayanan qarşılıqlı münasibətlərə bir növ yekun vuran və yeni keyfiyyət mərhələsinin başlanğıcını qoyan bu sənədin imzalanmasını bir sıra amillər zəruri edib.

İlk növbədə, sənəd iki ölkə arasında təməlləri möhkəm olan uzunmüddətli münasibətlərə, 1994-cü il fevralın 23-də imzalanmış Dostluq və əməkdaşlıq, 1998-ci il 21 iyul tarixli Dostluq münasibətləri və tərəfdaşlıq haqqında birgə bəyannamələrə əsaslanır. Bu, xronologiya münasibətlərin davamlı inkişafının göstəricilərindən biridir. Şübhəsiz, münasibətlər inkişaf edib dərinləşməsəydi, tərəflərin maraqlarına cavab verməsəydi və üst-üstə düşməsəydi belə bir sənəd də imzalanmazdı. Deməli, bu sənəd məntiqi olaraq qarşılıqlı maraqlardan, zərurətdən meydana çıxıb. İkincisi, sürətlə dəyişən, mürəkkəb və ziddiyyətli proseslərin baş verdiyi, Avropada gedən müharibənin və Yaxın Şərqdə münaqişənin nə zaman, necə bitəcəyi və nəticələrinin necə olacağının bilinmədiyi bir zamanda bir sıra dövlətlər, o cümlədən Böyük Britaniya dünyanın ürəyi hesab edilən Avrasiyaya gedən yol zəncirində təkcə əsas həlqə deyil, eyni zamanda qeyri-adi ustalıqla yürüdülən xarici siyasəti və yüksək mədəniyyəti ilə birləşdirici güc, nümunə olan Azərbaycanla əməkdaşlığa ehtiyac duyur. Azərbaycanla bərabərhüquqlu münasibətlər qurmadan dünyanın ürəyinə getmək çətindir.



Üçüncüsü, sənəddə 2025-ci il 8 avqust tarixli Vaşinqton Sülh Zirvəsi Bəyannaməsinin əhəmiyyətinin vurğulanması, Azərbaycan və Ermənistan arasında münasibətlərin normallaşdırılması istiqamətində atılan sonrakı sülh addımlarının bəyənilməsi rəsmi Bakı və Londonun Cənubi Qafqaz siyasətlərinin üst-üstə düşdüyünü göstərir.

Qarşılıqlı ehtiyac və maraqlardan irəli gələn bu bəyannamə üçüncü dövlətə qarşı yönəlməyib.Münasibətlərin təməllərini nə təşkil edir?İmzalanan sənədin təməlində ilk növbədə beynəlxalq hüquq və bərabərhüquqluluq dayanır. Tərəflərin BMT Nizamnaməsinə, xüsusən beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığına, suverenliyə, müstəqilliyə və ərazi bütövlüyünə hörmət edəcəklərini bəyan etmələri beynəlxalq münasibətlərdə ümumi qəbul olunmuş norma və prinsiplərə sədaqətini göstərir.

Hansı sahələrdə əməkdaşlıq ediləcəkdir? Bəyannamədə əməkdaşlığın sahələri də müəyyənləşdirilib. Bilindiyi kimi, müasir qarmaqarışıq dünyada ən vacib məsələlərdən biri dövlətlərin müdafiəsinin və təhlükəsizliyinin etibarlı təmin edilməsidir. Bu sənədlə Azərbaycan və Böyük Britaniya regional sülh və sabitliyi dəstəkləməkdən ötrü müdafiə və təhlükəsizlik sahəsində əməkdaşlığı gücləndirmək, ümumi təhdidləri yayındırmaq, qarşısını almaq və onlara cavab vermək qabiliyyətlərini artırmaq üçün uzunmüddətli öhdəlikləri qəbul edirlər. Bu o deməkdir ki, bir dövlətə qarşı olan hər hansı təhdidə və onlara cavab vermək üçün qabiliyyətlərini birgə artıracaqlar. Həmin məqsədi həyata keçirməkdən ötrü tərəflərin yüksək səviyyəli fəaliyyətinin davam etdirilməsi, qarşılıqlı maraq doğuran ikitərəfli, regional və beynəlxalq məsələlərə dair müzakirələrin əlaqələndirilməsi, təlimin, potensialın artırılması, qarşılıqlı fəaliyyətə yönəlmiş müdafiə əməkdaşlığının inkişaf etdirilməsi, qarşılıqlı maraq doğuracaq sahələrdə birgə təşəbbüslər də daxil olmaqla, müdafiə sənayesi əməkdaşlığını gücləndirmək imkanlarının araşdırılması, təhdidlərinə cavab olaraq müxtəlif istiqamətlərdə təhlükəsizlik prioritetləri üzrə əməkdaşlığın gücləndirilməsi, hüquq-mühafizə orqanları arasında tərəfdaşlığın və sərhəd idarəçiliyinin, eləcə də məhkəmə və hüquqi əməkdaşlığın formalaşdırılması başlıca istiqamətlər olaraq bəyan edilir. Göstərilənlərin həyata keçirilməsinin müdafiə və təhlükəsizlik sahələrində böyük faydalar verəcəyini indidən təxmin etmək olar.Müasir dünyanı qarşılıqlı faydalı ticarət-iqtisadi əməkdaşlıqsız təsəvvür etmək çətindir. Bəyannamədə ikitərəfli ticarət və investisiya əlaqələrini genişləndirmək və dərinləşdirmək bəyan edilir. Amma etibarlı bağlantılar olmadan ticarət-iqtisadi əlaqələri davamlı həyata keçirmək mümkün deyildir. Ona görə də sənəddə regional və beynəlxalq bağlantıların vacibliyinin vurğulanması, Orta Dəhlizin inkişafının dəstəklənməsi Böyük Britaniya və Azərbaycanın ortaq mövqedən çıxış etdiyini göstərir. Bu, Azərbaycanın müvafiq məsələdə beynəlxalq mövqelərinin gücləndirilməsi deməkdir.Bəyannamədə təhsilin, elmin, tədqiqatların və innovasiyaların uzunmüddətli rifahın, məhsuldarlığın və sosial dayanıqlığın vacib amilləri, müasir, rəqabətə davamlı və inklüziv iqtisadiyyatların təməli olduğunun qəbul edilməsi o deməkdir ki, təhsil, elm və tədqiqatlar nəzəri biliklər kimi qalmamalı, bilavasitə cəmiyyətin rifah halının daha da yaxşılaşdırılmasına, dövlətin qüdrətinin daha da gücləndirilməsinə xidmət etməlidir.

Bəyannamənin həyata keçirilməsinin nə kimi faydaları olacaqdır? Bəyannamənin həyata keçirilməsinin böyük əhəmiyyəti olacağı şəksizdir. Bu sənəd ilk növbədə, ölkələrimizin arasında qurulmuş və tərəflərə qarşılıqlı fayda verən sıx münasibətləri daha da möhkəmləndirəcək, bütün sahələrdə əməkdaşlığı genişləndirəcək, xarici təhdidlərə qarşı birgə mübarizəni gücləndirəcəkdir. Ortaq fəaliyyətlər regionda hələ kövrək olan sülhün davamlı olmasına və yeni münaqişələrin başlanmasının qarşısını almağa kömək edəcəkdir. Ticarət-iqtisadi, elm, təhsil və innovasiyalar sahəsində əməkdaşlıq ölkələrimizi bir-birinə daha sıx bağlayacaq və yeni keyfiyyət gətirəcəkdir”.

Vasif ƏLİHÜSEYN

"Bu məsələdə olduqca ehtiyatlı davranılmalıdır"

”Hazırda əsas mövzu gələn ilin dövlət büdcəsidir. İnşallah, uğurla qəbul olunar. Büdcə göstəriciləri ümumilikdə normaldır. Nə fövqəladə sevindirici, nə də ciddi mənfi məqam görürəm. Ancaq bir məsələyə yenidən baxılmasını vacib hesab edirəm. Bu da ehtiyac meyarıdır”.

Adalet.az xəbər verir ki, bunu iqtisadçı Eldəniz Əmirov deyib. ”Onun 300 manatdan 314 manata, yəni cəmi 4,7% artırılmasına yenidən baxılması daha doğru olardı. Söhbət bu artımın heç infilyasiyanı qarşılaya bilməməsindən də getmir, axı həm də zamanla insanların zəruri məhsul və xidmətlərə olan tələbatının dəyişməsi də nəzərə alınmalıdır. İl 2027-dir, 2014-cü il deyil. 13 il keçib. Ehtiyaclar çox dəyişib və daim dəyişir. Artıq nəinki 10 ildə bir, hətta hər il ehtiyaclar da dəyişir, xidmətlər də, insanlar da, qurumlar da. Digər həssas məsələ kənd təsərrüfatında vergi güzəştlərinin dəyişdirilməsidir. Bu məsələdə olduqca ehtiyatlı davranılmalıdır.



Çünki aqrar sahəyə olan təsir hər yana sıçrayır, hətta Bakının tıxacına da təsir edir. Çünki rəsmi statistikaya görə işləyən hər 100 nəfərdən 35-36 nəfərin çörəyi burdan çıxır”, - deyə o, bildirib.

Sübhan

AQİL ABBAS

ÇAYXANADAN YIĞILMIŞ FUTBOLÇULAR

Deməli, 70-ci illərdir. Bakıda Azərbaycan üzrə futbol turniri keçirilir. Ağdama da xəbər göndəriblər ki, futbolçular yarışa gəlməlidirlər. Yay idi. Bütün futbolçular hərəsi bir yerdədi. Kimi bağda, kimi dağda, kimi Rusiyada, kimi alverdə, kimi də Şuşa da kef edir...

Allahverdi Bağırov komandanı bir yerə yığa bilmir. Rəhmətlik gəlir Fazil müəllimin kinoteatrının arxasındakı çayxanaya. Deyir ki, uşaqlar, bizi yarışa çağırıblar. Getməsək, bizə cərimə yazacaqlar. Məsul cəmiyyətin yarışıdır deyə bizi növbəti yarışlardan qova bilərlər. Mütləq getməliyik.

Kim futbol oynaya bilirsə, qalxsın ayağa. Aparacam Bakıya, 4-5 gün orda qalıb yeyib-içməyi mənlikdir. Lap uduzsaq da, eybi yoxdur. Əsas odur cərimə almayaq. Təxminən 10-15



oğlan ayağa qalxır. Allahverdi gedib avtobus kirayə verilən yerdən "Taksi-motornu"dan avtobus götürür. Beləcə, uşaqları yığıb Bakıya gətirir. Turnir indiki "Şəfa stadionu"nda idi. O vaxt belə deyildi, adi stadion idi.

Bizə xəbər gəldi ki, Ağdam gəlib, burada çempionat keçirilir. Biz də yığıldıq getdik futbola baxmağa. Bizdən başqa heç tamaşaçı yox idi. Ancaq futbolçular özləri idi. İndiki kimi tamaşaçı gəlməzdi. Deməli, Saşa (Hüseyn) Əhmədov "Neftçi"nin əvəzedici qapıçısı idi. Futbolçu Adil Nadirov da Bakıda idi. Nəysə, hamımız getdik ora.

Allahverdi uşaqları gətirdi. Peşəkar futbolçular deyil, məhlədə futbol oynayan uşaqlardır. Biz də yığışmışıq, oyun başlayıb. Saşa durub qapının arxasında qapıçıya deyir ki, sağa çıx, sola çıx. Çıx qabağa, qayıt geri. Elbrus Abbasov da dayanıb mərkəzdə deyir, filankəs, topu at. Orda oyuna bunlar göstəriş verirlər. Adil Nadirov dispeçerlik edir ki, filankəs, topu tut, topu at filankəsə. Bir futbolçuya "qırmızı vərəqə" çıxdı. Hakimin "qırmızı vərəqə"si olmadı. Gəldi bir polis işçisindən vəsiqəsini istədi. O vaxtı polislərin vəsiqələri qırmızı idi. Onu çıxardıb göstərdi futbolçuya. Belə maraqlı-məzəli bir oyun idi. Biz orda oynadıq. "Qarabağ" yaxşı da oynadı. Komanda futbolçu olmayan futbolçularla oynaya bildi. Turnirdə qalib gəldi, sevinə-sevinə getdilər.

İndi "Qarabağ"ın oyununa baxanda yadıma Allahverdi Bağırovun həmin oyun üçün çayxanadan yığdığı komanda düşür. Deyəsən, "Qarabağ"ın futbol alverçiləri Avropadakı komandaların çayxanalarına gediblər. Deyiblər ki, kim futbol oynaya bilirsə, dursun gedək, Azərbaycanda yaxşı pul, ev verəcəyik. Futbol alverçiləri də həmin o oyunçuları yığıb gətiriblər Azərbaycana. "Qarabağ"ın oyunlarına baxanda bunlar futbolçu deyillər. İndiki futbolçular çayxanalardan yığılmış komandadır.

Yadıma Allahverdi Bağırov düşür. Allahverdinin çayxanadan yığdığı uşaqlar Azərbaycanda çempion olmuşdu. Amma indi bu qədər pulun qarşılığında gətirilən çayxanadan yığılmış futbolçular heç bir şey edə bilmirlər.

Allah "Qarabağ"a kömək olsun! Yəqin onlardan da Qurban Qurbanov futbolçu düzəldə biləcək. Döyə- döyə, söyə-söyə futbolçu düzəldə biləcək.

Azərbaycanda işsizlərin sayı açıqlandı

Bu il oktyabrın 1-nə Azərbaycanda 251,2 min nəfər işsiz kimi qeydiyyatda olub. Adalet.az xəbər verir ki, bu barədə Azərbaycan Mərkəzi Bankının (AMB) 9 aylıq ”Pul Siyasəti İcmalı”nda bildirilir.

Sənədə əsasən, bu, ötən il oktyabrın 1-nə nisbətən 1,1 % çoxdur. Real sektorun monitorinqi çərçivəsində aparılan sorğu nəticələrinə əsasən sentyabr ayında məşğulluq gözləntiləri üzrə göstəricilər plastik məmulatlar istehsalı, metallurgiya və tikinti materiallarının istehsalı kimi qeyri-neft-qaz istehsalı sahələrində müsbət zonada olub.



Səxavət MƏMMƏD

Azərbaycanın yerləşdiyi coğrafiya...

Azərbaycanın yerləşdiyi coğrafiya və "Orta Dəhliz" kimi qlobal tranzit marşrutunun mərkəzində olması böyük üstünlüklər yaratsa da, eyni dərəcədə ciddi təhlükələrə də yol açır. Bunu bir dəfə də yazmışam: böyük güclər strateji və logistik xətlərin üzərində müstəqil iradəsi olan, güclü dövlətlər görmək istəməzlər; onlar üçün idarə edilməsi asan, zəif sistemlər daha əlverişlidir. Bu səbəbdən belə kritik mövqedə olan dövlətlər hibrid təhdidlərə, daxili sabitliyi pozmağa yönəlmiş xarici basqılara və neytral qaldıqları üçün hər iki tərəfdən gələn gizli təzyiqlərə məruz qalırlar. Bu cür strateji xətlərin üzərində duruş gətirmək yüksək səviyyəli dövlət ağlı və daimi ayıq-sayıqlıq tələb edir.

Ona görə də, daimi olaraq Rusiyadan, İrandan, Avropa İttifaqından, ABŞ-dən müəyyən dövrlərlə təhdid və təzyiqlər edilir. Şübhəsiz ki, Türkiyə ilə Azərbaycan arasındakı gərginliyin səbəblərindən başlıcası da məhz bununla bağlıdır. Ümumiyyətlə, hazırkı dünyada içi ABŞ, Çin, Rusiya qarışıq heç bir dövlət 50 illik strateji planlarla deyil, situativ qərarlarla hərəkət edir. Çünki dünyada baş verən proseslər həddindən artıq sürətlə cərəyan edir. Ona görə də, dövlətlər bəzən 50 illik planları bir kənara qoyub, hazırkı situasiyanı dəyərləndirir, ondan çıxış yolları axtarırlar. Bir neçə gündür sosial şəbəkələrdə və mediada İranın Çindən Azərbaycanın hava limanları barədə geoməkan kəşfiyyatı aldığı iddia olunur və tərəflərdən heç biri də bunu təkzib etmir. Azərbaycanla Çin arasında iki strateji müttəfiqlik bəyannaməsi mövcuddur, Azərbaycan bu bəyannamənin altını doldurmaq üçün Çindən HQ-9B hava hücumundan müdafiə sistemləri alıb, ancaq yenə də Çin İrana kəşfiyyat məlumatları təqdim edə bilir. Səbəb çox sadədir: dəyişən maraqlar, daha əhəmiyyətli istiqamətlər və kiçik dövlətlərin daim yem olma taleləri. Eyni yanaşmanı ABŞ-nin timsalında da görmək olar: Donald Trampın vaxtilə Azərbaycan və Ermənistanı sanksiya və ticarət məhdudiyyətləri ilə hədələyərək tərəfləri sənəd imzalamağa məcbur etdiyini açıq şəkildə bəyan etməsi böyük güclərin kiçik dövlətlərə əsl münasibətinin bariz göstəricisidir.

Rusiya-Ukrayna müharibəsi başlayan zaman bunun Avropanın çökdürülməsinə hesablandığını yazanda bir çoxları buna dırnaqarası baxırdı, fikirləri-zikrləri Rusiyanı bölməyə, parçalamağa yönəlmişdi. Hazırda isə prosesin real mənzərəsi ortadadır. ABŞ Avropa ölkələrini də məcbur etdi ki, Rusiyaya qarşı sanksiya tətbiq etsinlər, ancaq ilk sanksiyanı da pozan ABŞ özü oldu. Ümumiyyətlə, sanksiyalar ikibaşlı olur - qarşı tərəfi tutmayanda özünü tuta bilir. Rusiyaya qarşı sanksiyalar tətbiq olunan zaman bir çox Avropa dövlətləri və ekspertləri iddia edirdi ki, Rusiya qısa zamanda çökəcək. Yeri gəlmişkən, Rusiya və İranın sanksiyaya qarşı immuniteti var. Hazırkı proseslər onu göstərir ki, Rusiya Ukraynadakı müharibəni bilərəkdən uzadıb. Rusiyanın nəzəri baxımdan müharibəni qısa zamanda bitirmək imkanı var idi? Əlbəttə. Rusiya müharibəni qısa zamanda bitirmək yerinə, uzun müddətə və sürünən müharibə formatına salaraq Avropadakı reaksiyaları gözlədi. Zamanında yazırdım ki, müharibə və sanksiyaların müddəti uzandıqca Avropa ölkələri daxilində müəyyən problemlər ortaya çıxacaq: qiymət artımı, sosial partlayışlar, ABŞ ilə Avropa ölkələri arasındakı fikir ayrılıqları. ABŞ Trampın dili ilə "Avropa öz təhlükəsizliyini özü qorumalıdır" desə də, paralel olaraq Avropa ordusunun yaranmasının da qarşısını alır. İllər öncə Fransa Avropa ordusunun yaradılması variantını ortaya atan zaman da hazırda baş verən proseslərin bənzəri yaşanmışdı. Yəni, ABŞ Avropanı daim öz nəzarətində saxlamaqdan əl çəkmək niyyətində deyil. Avropa ölkələrinin qısa zamanda güclü ordu qurmaq istəkləri də praktiki baxımdan mümkünsüz görünür. Avropa ölkələri paralel olaraq həm ÜDM-in 5 faizini NATO-ya ödəməli, eyni zamanda öz ordularını da formalaşdırmalıdır. Bu isə ciddi şəkildə sosial problemlərə yol açacaq. Bundan əlavə, Avropa ölkələri Ukraynanın maliyyə yükünü də öz üzərinə götürüb. Faktiki olaraq Avropa dövlətləri həm Ukraynanı müharibə aparması üçün maliyyə ilə təmin etməli, eyni zamanda isə öz təhlükəsizliyini düşünməlidir. Rusiya da müharibə fonunda ciddi şəkildə yaralar alır, iqtisadi çətinliklərlə boğuşur, ancaq Rusiyanın resursu, coğrafi dərinliyi onu dözməyə məcbur edir. Rəsmi Moskva hətta danışıqlar fonunda belə şərtlərindən geri addım atmayacağını bəyan edir. Açıq şəkildə görünür ki, ABŞ tələsir, bu müharibənin istədikləri nəticələri verməyəcəyini anlayır. Avropa ölkələri isə Ukraynanın müharibə aparmasında maraqlıdır. Burada Ukraynanın ərazi bütövlüyündən, dövlət kimi varlığından, beynəlxalq hüquqdan söhbət gedə bilməz. Avropa ölkələri sadəcə olaraq Ukraynanı Rusiya ilə döyüşdürərək vaxt qazanmağı, ordularını formalaşdırmağı əsas hədəf kimi görürlər. Haradan baxsaq, Ukrayna qurbanlıqdır. Ukraynalılar öz vətənlərini qoruyurlar, bunun üçün döyüşürlər, ancaq onların bu qəhrəmanlıqları üzərindən hərə öz marağını təmin etməyi hədəfləyir.

Zamanında ən çox nüvə təhdidi ilə Rusiya çıxış edirdi. Son günlər ABŞ-nin də İrana qarşı nüvə silahından istifadə edə biləcəyi deyilir. Maraqlı məsələdir ki, ABŞ özü Rusiya ilə nüvə silahlarının məhdudlaşdırılmasına dair müqavilələri yeniləməkdən imtina edir, ancaq İranın nüvə silahı əldə etməməsi üçün çalışdığını bəyan edir. Ümumiyyətlə, əlində nüvə silahı olan ən təhlükəli ölkə ABŞ-dir, çünki ondan zamanında istifadə edib. ABŞ faktiki olaraq İranla bağlı istədiklərinə nail ola bilmədi, əksinə, respublikaçılar İran müharibəsi ilə seçkilərdə əzici şəkildə məğlub oldular. Ona görə də, onların yanvara qədər İrana qarşı yeni hücum dalğası başlatmaq ehtimalı mövcuddur. Noyabrın sonuncu həftəsi bunun üçün ən uyğun variantdır. İran isə açıq şəkildə bəyan edir ki, onlar coğrafiyanı daha da genişləndirəcəklər. Bundan əlavə, İran rəsmi olaraq özləri üçün qadağa qoyduqları 2 min km-lik raket istehsalı məhdudiyyətini də aradan qaldırdığını bəyan etdi. Yəni, bundan sonra İranın 4 min, daha sonra isə 6 min km-lik raketlər istehsal etmə ehtimalı çox yüksəkdir. Onsuz da qeyri-rəsmi olaraq 4 min km-lik raketlər istehsal etdikləri barədə məlumatlar var idi. İranın nəzəri baxımdan Avropadakı ABŞ hərbi bazalarına zərbələr endirəcəyi də mümkündür. Ancaq Avropa ölkələrinə çatmadan o raketlərin hava hücumundan müdafiə sistemləri tərəfindən vurulma ehtimalı yüksəkdir. İrana qarşı ağır hücumlar olacağı təqdirdə, xüsusilə Bəhreyn, Birləşmiş Ərəb Əmirlikləri və Küveytə daha ağır zərbələr endirəcəyi daha inandırıcıdır. Bu dəfəki hücumlar bundan əvvəlkilərdən xeyli fərqlənə və birbaşa ABŞ hərbi bazalarına yox, həmin ölkələrin özlərinin infrastrukturuna da yönələ bilər. Bu isə hakimiyyət dəyişiklikləri, yaxud siyasi sərhədlərin dəyişdirilməsi ilə nəticələnə bilər. ABŞ və İsrail birgə İranın mülki infrastrukturuna zərbələr endirəcəyi təqdirdə, bu dəfə İrana bağlı qrupların teraktlar törədəcəyi ehtimalı da göz önündə saxlanılmalıdır.

Ümumiyyətlə, həm Körfəzdəki qarşıdurmanın, həm də Rusiya-Ukrayna müharibəsinin bu hədlərdə dayandırılması natamamlıq yaradacaq, bu isə gələcəkdə daha böyük müharibənin xəbərçisi olacaq.

Cənubi Qafqaz bu iki ağır müharibə içərisində olan ölkələrin arasında, mərkəzində yerləşir. Müharibələrin bu hədlərdə bitməsi İran və Rusiyanın diqqətinin Cənubi Qafqaza yönəlmə ehtimalını artırır. Bu isə TRİPP layihəsinin gələcəyini sual altına qoyur. Yəni, Azərbaycana qarşı informasiya müharibəsi, psixoloji müharibə, hibrid hücumların və kiberhücumların artma ehtimalı xeyli yüksəkdir. Xüsusilə informasiya məkanında yeni yanaşmaya, fərqli baxışlara ehtiyac olacaq - çünki qarşıdakı dövrdə dövlətin təhlükəsizliyi sərhədlərdən əvvəl məhz informasiya və düşüncə məkanında qorunacaq. Beləliklə, cəmiyyəti qarşıdakı hibrid və psixoloji təzyiqlərə hazırlamaq üçün klassik təbliğatdan imtina edib, "hamılıqla ora hücum, hamılıqla bura hücum" təfəkküründən çıxıb, daha çevik və realist kommunikasiya modelinə keçmək zəruridir.



Rüstəm HACIYEV

"Dünyaya sülh"

Bunlar kiminlə məzələnirlər?

Hazırda dünyada ən aktiv müharibə şəraitində yaşayan üç ölkənin liderləri "Dünyaya sülh" gətirmək şüarı altında görüşə hazırlaşırlar (???).

Çin dövləti ilə Tayvan arasında illərdi davam edən münaqişə hələ ki, aktiv silahlı müharibəyə çevrilməsədə, bunun nə vaxtsa baş verməyəcəyinə heç kim təminat verə bilməz. Çünki, münaqişənin həll olunması ilə bağlı tərəflərin irəli sütdüyü şərtlər məsələnin həllini silahlı müharibəyə aparır.

ABŞ artıq neçənci ildir İranla açıq müharibə aparır. Hələlik regionda silahlar sussada, bunun davamlı sülhlə bitəcəyi inandırıcı görünmür. ABŞ rəsmi Tehrandan nüvə proqramını dayandırmağı və Hötmüz boğazının ticarət gəmilərinin sərbəst hərəkəti üçün açılmasını tələb edir, İran isə bu tələbləri yerinə yetirməkdən imtina edir. Bu isə, ABŞ-ın yenidən İran ərazilərinə raket zəbbələri endirmək ehtimalını günü-gündən artırır.

Rusiyanın Ukrayna ərazilərinə hücum etməsindən və suveren dövlətin 20 faizə yaxın ərazilərini kşğal etməsundən 5 ilə yaxın vaxt ötməsunə baxmayaraq, silahlar bu gündə susmur, qanlı müharibə davam edir. ABŞ prezidenti Donald Trampın müharibəni dayandırmaq təşəbbüsləri (???) hələ ki, heç bir nəticə vermir. ABŞ prezidentinin xüsusi rlçilərinin müharibənin dayandırılması üçün tərəflər arasında apardığı danışıqlar nəticəsiz qalmaqdadır.

Beləliklə, özləri aktiv müharibə aparan dovlətlərin başçıları hansı üzlə "Dünyaya sülh" gətirə biləcəkləri "maraq" doğurur.

Aprelin 1-də deyil ki, onların zarafat etdiklərini, dünya ilə məzələndiklərini ciddiyə almayaq...

«ABŞ, Çin və Rusiya liderlərinin görüşü həlledici olmayacaq»

"ABŞ Prezidenti Donald Tramp, Rusiya Prezidenti Vladimir Putin və Çin lideri Si Cinpinin iştirakı ilə üçtərəfli görüşün keçirilməsi beynəlxalq siyasi gündəmdə xüsusi maraq olsa da, ciddi qərarların qəbul edilməsi gözlənilmir. Rusiya tərəfi belə bir görüşü müəyyən mənada ikinci Yalta konfransı kimi təqdim etməyə çalışır. Çünki Moskva yenidən fövqəldövlət statusunu möhkəmləndirmək, formalaşmaqda olan yeni geosiyasi nizamda öz təsir dairəsini genişləndirmək və beynəlxalq təcriddən çıxmaq niyyətindədir".



Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloqun sözlərinə görə, Rusiya üçün ABŞ və Çin kimi dünyanın iki aparıcı gücü ilə eyni masa arxasında əyləşmək mühüm siyasi fürsətdir:

"Kreml çalışır ki, belə bir görüşü Rusiyanın və şəxsən Vladimir Putinin diplomatik uğuru kimi təqdim etsin. Bununla da Moskva dünya siyasi nizamının formalaşdırılmasında Rusiyanın da əsas aktorlardan biri olduğunu nümayiş etdirməyə çalışır. Lakin mümkün üçtərəfli görüşdə fundamental strateji məsələlər üzrə ciddi razılaşmaların əldə olunması real görünmür. Çinin öz geosiyasi və iqtisadi maraqları var və Pekin nə Rusiya, nə də ABŞ ilə dünyanın təsir dairələrinə bölüşdürülməsi istiqamətində razılaşmaya getməkdə maraqlıdır".

O, bildirib ki, ABŞ-nin Rusiya-Ukrayna müharibəsi, strateji nüvə silahlarına nəzarət və digər qlobal təhlükəsizlik məsələləri ilə bağlı Çinin və Rusiyanın maraqları ilə üst-üstə düşən mövqeyi yoxdur:

"Bu baxımdan, görüş daha çox siyasi dialoq və tərəflərin mövqelərini nümayiş etdirməsi xarakteri daşıya bilər. Digər tərəfdən, ABŞ-də daxili siyasi vəziyyət də Donald Trampın mövqeyinə təsir göstərir. Konqresdə demokratların mövqelərinin güclənməsi və respublikaçıların siyasi manevr imkanlarının məhdudlaşması Trampın siyasi fəaliyyətinə əlavə təzyiqlər yaradır. Bu amil də onun beynəlxalq siyasətdə atacağı addımlara təsirsiz ötüşməyəcək. Donald Tramp belə bir görüşdə Ukrayna müharibəsi, nüvə təhlükəsizliyi və İran ətrafında yaranmış vəziyyət kimi məsələləri müzakirəyə çıxara bilər.

Lakin bu müzakirələrin konkret strateji razılaşmalarla nəticələnəcəyini düşünmürəm. Mümkün üçtərəfli görüşü İkinci Dünya müharibəsindən sonra beynəlxalq münasibətlər sisteminin formalaşmasında mühüm rol oynayan Yalta və Potsdam konfransları ilə müqayisə etmək düzgün olmazdı.

Çünki bugünkü beynəlxalq münasibətlər sistemi, geosiyasi reallıqlar və böyük güclərin maraqları tamamilə fərqlidir.Hesab edirəm ki, bu görüş daha çox ümumi siyasi dialoq və diplomatik təmas xarakteri daşıyacaq.

Onun nə Rusiya-Ukrayna müharibəsinin gedişinə, nə də ABŞ-İran qarşıdurmasına həlledici təsir göstərəcək tarixi görüş olacağını mümkün deyil".

Vasif ƏLİHÜSEYN



Məzahir ƏHMƏDOĞLU

ONUN NÜFUZU VƏ ŞƏXSİYYƏTİ NÜMUNƏ İDİ

(Qulu Məmmədovun əziz xatirəsinə)

Yaxın keçmişimizin ən hörmətli mətbuat fədailərini xatırlayarkən Əli İldırımoğlu, Ağababa Rzayev, Sadıq Qarayev, Rəfael Nağıyev, Ənvər Əmrəliyev, Əşrəf Hacıyev və başqa məhşurlarla yanaşı , mənim daha yaxından tanıdığım Qulu Məmmədovun da adını jurnalist peşəsini və şəxsiyyətini həmişə uca tutan böyük qələm sahibi olaraq hörmətlə yad edirəm. Sovet dönəmində Azərbaycanda müxtəlif qəzet və jurnallarla bərabər iki əsas və ən nüfuzlu mətbu orqanı kimi "Kommunist" və "Bakinski raboçi" qəzetləri tanınırdı. Qulu müəllim çox savadlı və işgüzar



jurnalist olaraq , eyni zamanda həm azərbaycan, həm də rus dilindəki fəaliyyəti ilə müqayisəolunmaz peşəkarlığa malik idi. Elə bu səbəbdən də onu rayon qəzetindən birbaşa "Bakinski raboçi" qəzetinə zona müxbiri vəzifəsinə təyin etmişdilər. Bu, elə də sadə bir proses deyildi. Bilməyənlər üçün xatırladım ki, o vaxtlar respublikanın bu iki aparıcı qəzetlərinin zona müxbirlərini həmin vəzifələrə mərkəzi komitənin bürosu təsdiqləyirdi.

Mən orta məktəbin şagirdi olarkən küçəmizin poçtalyonu bir sıra uşaq və böyük qəzet və jurnalları ilə yanaşı, bizə "Bakinski raboçi" qəzetini də gətirirdi. Vətən müharibəsi iştirakçısı olan atam rayon icraiyyə komitəsində şöbə müdiri vəzifəsində çalışdığı üçün onun abunələri bir qədər çox olurdu.Beləliklə, mən yuxarı siniflərə adladıqca atamın nəyə görə daha çox "Bakinski raboçi" qəzetinə diqqət yetirməyinin də səbəbini öyrəndim.Həmyerlimiz Qulu Məmmədov bu qəzetin ən nüfuzlu yazarı kimi həmişə maraq doğururmuş. Bu alatoran xatirələrdən ayrılıb da məşhur həmyerlimizi şəxsən görüb tanıdığım, daha sonralar ünsiyyətdə olduğum illərə qayıdaq.

Qulu müəllimi ilk dəfə atamla birlikdə keçmiş kolxoz bazarının girəcəyində qəssab dükanının qarşısında görüb tanıdım. Evə bazarlıq etməyə getmişdik. Onlar qəssab Babanın (Qulu müəllimin uşaqlıq illərindən bəri dostluq etdiyi hörmətli bir insan) dükanından azca aralıda çox səmimi görüşüb hal-əhval tutdular. Sonradan öyrəndim ki, atamdan bir neçə yaş böyük olan Qulu müəllim də nə vaxtsa az müddət ispolkomda da işləyib və həm də hər ikisi müharibə veteranı kimi xüsusi istiqanlılıq edirlər. Yeri gəlmişkən, Qulu müəllimin 1939-cu ildən hərbi xidmətə gedib Fin müharibəsində, daha sonra Böyük Vətən müharibəsində iştirakını, dəhşətli Leninqrad blokadasını yaşadığını , faşizm üzərində qələbəyə qədər dəfələrlə yaralanıb yenidən döyüşə atılmasını, göstərdiyi şücaətlərə görə bir çox orden və medallarla təltif olunmasını da xüsusi vurğulamaq gərəkdir.

Əlbəttə, mən məşhur jurnalist, respublikanın əməkdar mədəniyyət işçisi Qulu Məmmədovu sonralar daha yaxından tanıdım,yaradıcılığını, çoxlarına örnək olası həyatını öyrəndim, şahidi oldum. Əvvəllər də etiraf etmişəm , mən birbaşa arzu və istəyimlə deyil, təsadüfən jurnalistikaya gəlmişəm.Rayon qəzetində işlədiyimə görə də Qulu müəllimi və digər məşhur jurnalistləri yaxşı tanıyırdım. Tez-tez rastlaşdığım Qulu müəllimi isə , təbii ki, həyatımızın xüsusi məqamları ilə.

Qulu Məmmədov "Bakinski raboçi" qəzetində işə başlayandan ömrünün sonuna kimi Göyçay, Ucar, Ağdaş, Zərdab, Kürdəmir, Ağsu və İsmayıllı rayonları üzrə zona müxbiri işləyib. Qəzetin müxbir məntəqəsi təbii ki, Göyçay şəhərində yerləşirdi. Bu hündürboylu, hər mövsümə uyğun hədsiz səliqəli geyinən yaraşıqlı insan səhər evdən çıxıb indiki Atatürk küçəsi ilə özünəməxsus aram addımlarla kabinetinin yerləşdiyi binaya doğru gedər, rastlaşdığı adamların salamlarını təbəssümlə cavablandırar, heç vaxt bu 200-250 metrlik məsafədə maşına minməzdi.İmkan versəydi hər səhər evinin qarşısına onun üçün 7-8 maşın düzülərdi.Ancaq Qulu müəllim başqa rayonlara getmirdisə və hərdən şəhərdə müəyyən məsafəli bir ünvana gedəcəkdisə , onda uzaq qohumları olan sürücü İsmayılı çağırtdırıb deyərdi : "Sən get o "Mersedes"i həyətdən çıxart".

Qulu müəllimin "Mersedes"dediyi həmin maşın müharibə veteranı kimi dövlət tərəfindən ona verilmiş "Zaporojest" idi. Onun bu sadəliyi və səmimiliyi ailədən, qonşulardan tutmuş çalışdığı rayonlara, redaksiyaya , bütövlükdə tanındığı bütün yerlərə sirayət edir, əsl jurnalist və ləyaqətli şəxsiyyət portretini yaradırdı.

Qulu müəllimin jurnalist kimi fəaliyyətinin əsas istiqamətləri də elə o nümunəvi xarakterinə uyğun idi. Sovet dövrünün düzgün sovet adamı, əsl sovet vətəndaşı idi. Haradan , nədən yazırdısa mövzuya mütləq peşəkarlıq və reallıq prizmasından yanaşır, bir-birindən maraqlı məqalələri ilə böyük oxucu auditoriyasının rəğbətini qazanırdı.

Qulu müəllimi hər yerdə hamı çox istəyirdi. Hətta tənqid etdiyi şəxslər də. Çünki, heç vaxt qərəzli olmadı, hər dəfə həqiqəti, reallığı üstün tutdu. Onu mərkəzi komitənin rəhbər vəzifəlilərinə qədər hamı tanıyırdı. Doxsanıncı illərin əvvəllərində qəfil infarkt keçirmişdi. Artıq mən də mərkəzi mətbuatda çalışırdım. Böyük oğlu Siyavuşla dost idik deyə hərdən bir-birimizin evinə də gedirdik.Qulu müəllim vəziyyətə görə evdə müalicə olunurdu. Həkimlər icazə verməsələr də bəzi hallarda Qulu müəllimlə görüşmək mümkünləşirdi. Şahidiyəm ki, bir dəfə tanıdığım iki böyük vəzifəli şəxs də Bakıdan Qulu müəllimi görməyə gəlmişdi.Onlardan biri mərkəzi komitənin katibi , digəri isə şöbə müdiri idi.Onu da deyim ki, üç il sonra bu gözəl insan və məşhur jurnalist təkrar infarktdan vəfat etdi.



Qulu müəllim çətin günlər, çətin illər yaşayıb görmüş insan idi. O, keçmişini unutmayan aqil kişilərdən idi. Bu səbəbdən də Qulu müəllim kimsəsizlərin, yetimlərin adamı, atası kimi də ad çıxarmışdı. Ona üz tutan düzgün, ancaq çətinə düşmüş insanlara həmişə köməklik göstərir, arxa dururdu.O, vəzifəsinə və cəmiyyətdəki nüfuzuna görə heç vaxt kimsə qarşı haqsızlıq etmədi.Yaxşılıq və yetimdarlıq onun şəxsi keyfiyyəti,vərdişi idi. Onu ilk dəfə görən , tanımayan elə bilərdi ki, Qulu müəllim çox ağır və zəhimli bir insandır. Ancaq təmasda , ünsiyyətdə olunca Qulu müəllimin necə mehriban və səmimi, həm də punktual bir şəxsiyyət olduğu ap-aydın görünürdü.

Mərkəzi mətbuata getməmişdən əvvəl onun bir çox qayğılarını gənc jurnalist kimi mən də öz həyatımda yaşamışdım.Sadəliyi , eyni zamanda məişət yanaşmaları da öz yerində. Axı 50-55 yaşlarında heç də asan deyil ki, böyük vəzifən , iş-gücünlə yanaşı həm də ağsaqqal kimi qəbul ediləsən. Qulu müəllimə bu imtiyaz və xoşbəxtlik də nəsib olmuşdu. Nümunəvi həyat yolu, həyat tərzi sayəsində!

Bir də görürdün məni axtarır. Tapşırıq verirdi ki, filan yerdən bu mövzuda iki vərəqlik bir yazı hazırla.Mən də hazırlayırdım.Təbii ki, azərbaycan dilində. İki,üç gündən sonra yazım "Bakinski raboçi"qəzetində dərc olunurdu. Bəzən heç mənə demədən Göyçay rayonundan verdiyi kiçik informasiyalara da imzamı qoyardı. Hər ayın sonunda çalışdığım qəzetdən çox "Bakinski raboçi" qəzetindən qonorar pulu almağım Qulu müəllimin sayəsində idi.

... Və ən maraqlı bir hadisə. Mən 1975-ci ildən demək olar ildə və yaxud iki ildə bir dəfə yay vaxtı məzuniyyətimin 10-15 gününü Soçi şəhərində keçirirdim. 1983-cü ilin iyul ayının sonlarında yenə Soçidəyəm. Şəhərin Qaqarin prospektinin sonuna doğru dəniz istiqamətinə məşhur "Park Rivera" açılır. Özəl bir səbəbə görə hərdən bu parka da gedirəm. Və burada xüsusi bir guşə var. SSRİ-nin 15 respublikasının hər birində çıxan ən nüfuzlu rusdilli qəzetlər məxsusi çərçivələrdə sırayla düzülür. İdeologiya öz yerində, şəhər rəhbərliyinin bu jesti çox xoş qarşılanırdı. Bəzən bu guşədə oxucu çoxluğundan növbə tutmaq lazım gəlirdi. Bu cümləmə görə, əgər varsa, müasir obıvatellərin mənə əməllicə gülməyi tutar. Olsun . Amma dövrü, zamanı da unutmayaq.

... Beləcə, yaxınlaşıram guşənin Azərbaycan bölməsinə. Çərçivədəki "Bakinski raboçi" ni birinci səhifəsindən acgözlüklə oxumağa başlayıram.İkinci səhifədə Qulu müəllimin Ucar rayonundakı "Şəfəq" kolxozundan iri bir məqaləsini qeyri-adi və çox doğma hisslərlə oxuyub ...Və qəfildən üçüncü səhifədə kiçik bir informasiya . İmza yerində yazılıb : M.Axmedov, Qeokçay.

Dönüb o tərəf,bu tərəfə baxıram. Doğrusu, istəyirəm ki kimsə gəlib çərçivədəki qəzetə baxsın və mən də daxili bir qürurla bu kiçik yazının müəllifinin kimliyini bildirim. Güman ki, inanacaqdılar. Çünki, köynəyimin döş cibində SSRİ Jurnalistlər İttifaqının üzvülük vəsiqəsi vardı, bir il qabaq qəbul olunmuşdum.

Bəli, Qulu Məmmədov haqqında çoxlu gözəl xatirələrdən bəzilərinin yer aldığı bu yazını elə bu xoş ovqatla da bitirmək vaxtıdır.

Ankarada "Azərbaycan Evi" böyük maraqla qarşılanıb



Ankara şəhərində, Türkiyə Respublikası Prezident Administrasiyasının Beştəpə Millət Parkı ərazisində yerləşən və yaxın günlərdə açılışı baş tutan Türk Dövlətləri Mədəniyyətlər Parkındakı "Azərbaycan Evi" ziyarətçilər tərəfindən böyük maraqla qarşılanmaqdadır.

Adalet.az xəbər verir ki, Türk dünyasının ortaq mədəni irsinin və dəyərlərinin təbliği məqsədilə yaradılmış Mədəniyyətlər Parkında türk dövlətlərinin hər birini təmsil edən milli çadırlar - Milli Evlər qurulub, onların qarşısında isə müvafiq ölkələrin mədəni irsini əks etdirən abidələr ucaldılıb.

Park ərazisində "Azərbaycan Evi" Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin layihəsi əsasında, Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin təşkilatçılığı ilə inşa edilib.

"Azərbaycan Evi" XII əsrin dahi Azərbaycan memarı Əcəmi Naxçıvaninin zəngin memarlıq irsinə və anadan olmasının 900 illik yubileyinə həsr edilərək, onun memarlıq şah əsərlərindən biri olan Möminə xatun türbəsinin üslubu, naxışları və zərif bəzək elementləri əsasında səkkizguşəli ulduz formasında yaradılıb.

Azərbaycan Evində yaradılmış səkkiz məlumat guşəsinin hər birində ölkəmizin zəngin tarixi, mədəniyyəti, ədəbiyyatı, xalçaçılıq sənəti, eləcə də Qobustan, Şuşa və digər mədəni dəyərlərimiz əks olunub. Elektron ekranlar və xüsusi rəqəmsal proqramlar vasitəsilə Azərbaycanın xəritəsi üzərində tarixi abidələrimiz, habelə milli musiqimiz və mədəni irsimiz haqqında interaktiv təqdimatlar nümayiş etdirilir.

Azərbaycan Evinin diqqətçəkən elementlərindən biri də Azərbaycanın və bütövlükdə Türk dünyasının zəngin musiqi irsini təcəssüm etdirən milli musiqi alətlərindən ibarət instalyasiyadır.

Bu kompozisiya ziyarətçilərə ortaq musiqi və mədəni dəyərlərimizi vizual-estetik formada təqdim edərək xüsusi maraq doğurur.

Azərbaycan Evinin qarşısında ucaldılmış "Sonsuzluğun Simfoniyası" adlı monumental kompozisiya da məkanın bədii-estetik bütövlüyünü tamamlayır.

Azərbaycanın Əməkdar rəssamı Rəşad Mehdiyevin müəllifi olduğu əsər zəngin mədəni irsimizi, milli kimliyimizi, və tarixi yaddaşımızın əbədiliyini simvolizə edir.

Buta, alov, Xəzər dalğaları və DNT-nin qoşa spiralından ilhamlanan formaları özündə birləşdirən kompozisiya keçmişlə gələcək, Şərqlə Qərb arasında mənəvi və mədəni körpü ideyasını ifadə edir.

"Azərbaycan Evi" Ankara sakinlərinin və şəhərin qonaqlarının ölkəmizin tarixi, mədəniyyəti və milli-mənəvi dəyərləri ilə yaxından tanış olması üçün mühüm tanıtım məkanına çevrilib.

Qeyd edək ki, Türkiyədəki Azərbaycan Mədəniyyət Mərkəzinin həyata keçirdiyi "Həftəsonu - Bazar günü" layihəsi çərçivəsində müxtəlif universitetlərin, tələbə və gənclər təşkilatlarının, eləcə də könüllü qruplarının iştirakı ilə burada mütəmadi olaraq tanıtım proqramları, mədəni tədbirlər, görüşlər və ekskursiyalar təşkil olunur.



Faiq QİSMƏTOĞLU
faiqqismetoglu@box.az

BİZDƏ HƏMİŞƏ SÜRÜCÜNÜ GÜNAHKAR SAYIRLAR...

Avtomobil idarə eləmək çox məsuliyyətli bir işdir. Çünki sürücü bütün hallarda diqqətli olmalı, baş verə biləcək qəza şəraitini öncədən hiss eləməli və bu vəziyyətdən çıxmağı bacarmalıdır. Təbii ki, bunlara əməl edən sürücü mənzil başına sağ-salamat çatır və sonda rahat nəfəs alır. Bunlar hamısı aydındır.

Amma aydın olmayan odur ki, bizdə piyada vurularkən (sürücünün günahı oldu-olmadı) bütün hallarda məsuliyyət sürücünün üzərinə düşür. Bəs, belə ölüm hadisəsi baş verəndə günahı olmayan sürücüyə qarşı niyə belə bir ədalətsizlik olmalıdır???

Axı bəzi hallarda belə qəza şəraitini piyadalar yaradır. Bu prosesdə təhqiqatçılar və müstəntiqlər də sürücünün yaxasından yapışır. Və yazıq sürücü də çıxış yolu tapa bilmir. Az da olsa, haqsızlıqla üzləşmiş sürücülər var. Və onların hüquqları çox vaxt qorunmur. Hansı ki, yeraltı və yerüstü piyada keçidi olan yerdə, təyin olunmayan yerdən keçən nə qədər piyadalar var.



Düzdür, onlar İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən 20 manat civarında cərimə edilirlər. Çox gözəl! Amma pis odur ki, yeraltı və yerüstü keçidin bir addımlığında piyadanı maşın vurursa, yenə məsuliyyətə sürücü cəlb edilir. Belə hallarda sürücü niyə məsuliyyətə cəlb edilməlidir? Bax burda təhqiqatçılar və müstəntiqlər hadisəni araşdırarkən daha diqqətli olmalıdırlar. Hər küçə və prospektlərdə kameralar mövcuddur. Kamera görüntülərinə baxmaqla və digər istintaq hərəkətləri ilə hər şeyə aydınlıq gətirmək olar. Sadəcə olaraq burda bir qədər vicdan məsələsi var.

Yəni piyada həmin qəza şəraitini yaradıbsa və nəticədə avtomobil onu vuraraq ölübsə, buna görə sürücü niyə cinayət məsuliyyətinə cəlb edilməlidir? Əksinə, o piyada cinayət məsuliyyətinə alınmalıdır. Bir dəfə mənim qohumumu Bakının Ziya Bünyadov prospektində maşın vurmuşdu. O, iki addımlıqdakı yolüstü keçidin deyil, axşam saatlarında nəqliyyat vasitələrinin yüksək sürətlə hərəkət etdiyi yerdən keçib və maşın da onu vurub.

Heç şübhəsiz ki, günah mənim qohumumda olmuşdu. Hadisəni törədən adamın qohum-əqrəbası kəndə yaş yerinə gəlmişdi, sürücünün bağışlanmasını istəyirdi. Rəhmətə gedən qohumumun atası dedi ki, sizin uşaqda heç bir günah yox idi, bütün günah mənim oğlumdadır, mən sizin oğlunuzu bağışlayıram! Bax belə! Günahı olmayan adamın üzərinə günah yıxmaq özü də böyük günahdır. O böyük günahlardan Allah bizi qorusun! Və hər günahı da sürücülərin üzərinə atmayaq!!!

"Bakcell" gənclər üçün növbəti süni intellekt hakatonunu keçirib

"Bakcell" gənclərin texnoloji bacarıqlarının inkişafına yönəlmiş hakatonlar silsiləsini davam etdirir.

Bu dəfə "Peerstack Academy" tələbələri süni intellekt üzrə keçirilən hakatonda bir araya gəliblər.

Hakaton çərçivəsində iştirakçılar telekommunikasiya sahəsi üçün süni intellekt dəstəkli məhsullar hazırlayıblar. Komandalar müasir süni intellekt alətlərindən istifadə edərək müxtəlif texnoloji həllər üzərində çalışıb, ideyalarını praktik layihələrə çeviriblər. Hakaton zamanı gənclər texniki bilikləri ilə yanaşı, komanda işi, problem həlletmə və yaradıcı düşünmə bacarıqlarını da nümayiş etdiriblər. Hazırlanan layihələr funksionallıq, texnoloji yanaşma, istifadəçi təcrübəsi və təqdimat meyarları əsasında qiymətləndirilib.

Hakatonun sonunda fərqlənən komandalar "Bakcell" tərəfindən xüsusi hədiyyələrlə mükafatlandırılıb.

"Bakcell" bu kimi təşəbbüslərlə gənc istedadların inkişafına və onların rəqəmsal bacarıqlarının gücləndirilməsinə dəstəyini davam etdirir.

"Bakcell" haqqında

"Bakcell" Azərbaycanın ilk və ən böyük özəl telekommunikasiya şirkətidir. Hazırda şirkət üç milyondan çox müştərini yüksəkkeyfiyyətli və sürətli telekommunikasiya xidmətləri ilə təmin edir. Ölkə iqtisadiyyatının qeyri-neft sektorunun ən böyük investorlarından biri olan "Bakcell" süni intellekt əsaslı innovativ həllərlə Azərbaycanın dayanıqlı inkişafına töhfə verir. "Bakcell" müxtəlif ölkələrdə və sahələrdə fəaliyyət göstərən NEQSOL Holding beynəlxalq şirkətlər qrupunun tərkibində olan "Azerconnect Group"a daxildir.

Yüz ildən sonra...

... Dünyada elə insanlar var ki, rəhmətə gedəndən sonra da yaşayır, xatırlanır, yada salınır... Belə insanlardan biri də müəllimlər müəllimi, Füzuli rayonunun Böyük Bəhmənli kənd orta məktəbində direktor işləmiş, Allahın dərgahına qovuşmuş Əvəz Əliş oğlu Əli-



yevdir. Əliş kişi Füzulinin, Bəhmənlinin ağsaqqallarından olub və onun oğlu Əvəz müəllim də atasının yolunu davam etdirərək həmin yolla addımlayıb. O, Bəhmənlidə həm böyük ziyalı, həm böyük ağsaqqal, həm də böyük müəllim kimi iz qoyub! Əvəz Əliyevin yüz illik yubileyi oğlu Qəhrəmana məxsus "Şax" restoranında noyabrın 15-də keçirilib.

Yubiley tədbiri çox möhtəşəm təşkil edilib. Bu tədbirdə Füzuli ictimaiyyətinin nümayəndələri, ziyalılar, şəhid ailələri, Əvəz müəllimlə bir yerdə çalışmış müəllimlər və böyük müəllimin yetişdirdiyi, həyata vəsiqə verdiyi insanlar iştirak ediblər. Tədbiri uzun müddət Əvəz müəllimlə bir yerdə işləmiş Balaca müəllimin oğlu, böyük ziyalı və müəllim Əsəd Kazımov aparıb. Əsəd müəllim tədbir iştirakçılarına Əvəz Əliyevin keçdiyi şərəfli ömür yolundan, onun müəllim peşəsinə necə dəyər verməsindən danışıb.

Sonra ayrı-ayrı ziyalılara söz verib. Tədbirdə çıxış edən müəllimlər müəllimi (o, mənim atamın ibtidai sinif müəllimi olub) Həqiqət Rzayeva deyib ki, Əvəz müəllim kimi məktəb direktorları xalqımızın tarixində əbədi yaşayacaq. O, çox qeyri-adi və istedadlı bir şəxsiyyət olub. Heç vaxt haqqı nahaqqa verməyib və bizim ürəyimizdə əbədi bir heykəl ucaldıb. Əvəz müəllim yüz ildən sonra da elə həmin şəxsiyyət, həmin insandı. Onun adı bizim məktəbin tarixinə qızıl hərflərlə yazılıb. Və biz bununla fəxr edirik. Tədbirdə Füzuli rayonu Ağsaqqallar Şurasının sədri Zülfüqar Əliyev, Əvəz müəllimlə çiyin-çiyinə çalışmış Nurəddin Abbasov, Əhliman Babayev, Yunis Məmmədov, Fəxrəddin Məmmədov, İsmayıl İsmayılov, Böyük Bəhmənli kənd tam orta məktəblərin direktorları Solmaz Qənimətli, Həsən Rzayev, onun yetirmələri Natiq Şükürov, Təbriz Süleymanov, Zülfüqar Məmmədov, Barat Səfərov və başqaları çıxış edərək Əvəz Əliyevin şanlı və işıqlı həyatından söhbət açıblar.





Onlar qeyd ediblər ki, Əvəz müəllimin yetirmələrinin arasında elmlər doktoru, professor, general, prokuror, hakim, məşhur şairlər, yazıçılar, jurnalistlər var! Onlar ölkəmizin tanınmış simalarındandır. Əvəz Əliyev yüz ildən sonra belə bir sevgi ilə xatırlandı.

Tədbirin sonunda onun oğlanları - Qəhrəman, Mətləb, Rəhman Əliyevlər çıxış edərək atalarına yüksək qiymət verdiklərinə görə rayon ictimaiyyətinə, iştirakçılara minnətdarlıqlarını bildiriblər. Böyük insanlar, millətin yoluna Günəş kimi işıq saçan ziyalılar, müəllimlər heç vaxt ölmürlər. O cümlədən müəllimlər müəllimi Əvəz Əliş oğlu Əliyev!!!

Emil FAİQOĞLU

Bakıda güclü külək



Bu barədə hələ bir neçə gün öncə sinoptiklər əhaliyə və aidiyyəti qurumlara məlumat vermişdi. Deməli, insanlar mövcud hava şəraiti ilə bağlı bilgilənmişdi. Üstəlik də əhalinin nəzərinə hidrometreoloqlar onu da çatdırmışdı ki, noyabrın 15-16- da paytaxtımızda yağış yağacaq və bəzi yerlərdə leysan olacaq! Düzdür,noyabrın 15- i saat 15 olsa da, hələ ki, yağış yağmır və ola bilsin ki, axşamüstü şəhərimizə yağış yağsın! Hələ ki, Bakıda güclü külək əsir! Küləklə də bağlı Fövqəladə Hallar Nazirliyi əhaliyə məlumat verib.

Məlum qurum bildirib ki, küləklə havada yüngül konstruksiyalı qurğuların və reklam lövhələrinin yanında dayanmaq olmaz! Hündür və yaşlı, çürümüş və qurumuş ağacların yanından keçərkən ehtiyatlı olmaq lazımdır! Rayon yerlərində isə şımşək çaxanda ,ildırım olanda mobil telefonlardan və digər avadanlıqlardan istifadə etmək məqsədəuyğun deyil! Əgər avtomobildə yol gedərkən ildırım çaxırsa, mobil telefonu söndürmək, avtomobili saxlamaq və nəqliyyat vasitələrinin şüşəsini qaldırmaq lazımdır!

Bu proses ildırım çaxıb qurtarana qədər davam etməlidir! Şımşək çaxması başa çatandan sonra avtomobili idarə etmək olar!!! Göründüyü kimi, aidiyyəti qurumlar mövcud hava şəraiti ilə bağlı əhalini tam maarifləndirir! Bircə qalır insanların həmin qurumların tövsiyələrinə əməl eləmək!!!

Su xətti partlamışdı...


Biz həmişə suya qənaətdən danışırıq ! Əlbəttə , hamı suya qənaət etsə, ölkəmizdə su qıtlığı yaranmaz! Onsuz da bu gün dünyada içməli su problem var!Belə olduğu halda, heç şübhəsiz ki, dünyəvi problemin həllinə bütün ölkələr kömək eləməlidir!



Nə isə ... Noyabrın 14- də Yeni Günəşli yaşayış sahəsinin " D" massivində saat saat 13:05- də , konkret olaraq " OBA" marketin yaxınlığından gedən yolda su xətti partlamış və içməli su küçəyə axmağa başlamışdı. Su çox sürətlə axırdı. Suyun qarşısın almaq üçün sakinlər partlamış yerə mişar daşı qoymuşdular.

Qəza ilə bağlı isə Suraxanı rayon Su-kanal İdarəsinin qəza xidmətinə məlumat.verilmişdi! Təəssüf ki, onlar gəlib çıxmaq bilmirdi! Üç-dörd saat su küçəyə axdı. Axır ki, axşamüstü məlum qurumun əməkdaşları gəlib problemi həll etdilər!!!

Hər kitabı oxumaq olmur...



İndi kiminlə söhbət edirsən, deyir ki, kitabım çıxıb və tez yeni çapdan çıxmış kitabına avtoqraf yazıb sənə verir! Sən də üzə düşüb kitabı götürursən! Tay deyə bilmirsən ki, ay qardaş, vallah keçən dəfə verdiyin kitab bir şey deyildi!

Nə isə... " Lənət şeytana"- deyib kitabı vərəqləyirsən! Nə qədər kitabı ələk-vələk eləsən də oxumalı bir şey tapa bilmirsən! Bədii söz, poetik ifadə bir tərəfə qalsın, heç normal bir cümlə tapıb oxuya bilmirsən! Beşinci sinif şagirdi belələrindən savadlıdır, çünki onlar ən azından cümlə qura bilir və fikirlərin aydın, səlis ifadə edə bilir! Bu on kitab müəllifinin isə bir normal, bitmiş bir fikiri ifadə edən cümlə tapa bilmirsən!

Ona görə də mən belə kitabları çırıb zibil qutusuna atıram! Bir dəfə belə kitablardan birini müəllif mənə verdi, baxdım , içində bir şey tapa bilmədim, sonra da çırıb atdım zibil yeşiyinə! Üç gündən sonra müəllif mənimlə görüşəndə soruşdu ki, " kitabım xoşuna gəldi?" Dedim ki, yox cırıb atdım zibil qutusuna! Bu sözlərdən sonra o, qıpqırmızı qızardı və bir də mənə " kitabı"nı vermədi! Kitab müqəddəs bir şeydir! Ona görə də bu məsələyə hamı diqqətlə yanaşılmalıdır!!!

EMİL

"Səudiyyə Ərəbistanı Çinin ikinci ən böyük xam neft təchizatçısıdır"

"İran parlamentinin sədri Məhəmməd Baqir Qalibaf Tehranın Yaxın Şərqdəki mövcud münaqişələrin tənzimlənməsi və bölgədə sabitliyin bərpası üçün Çinin diplomatik vasitəçiliyinə cəlb olunmasında maraqlı olduğunu bəyan edib. Qalibaf eyni zamanda İranın Çinlə münasibətlər üzrə xüsusi nümayəndəsidir. Görünür, bu Qalibafla yanaşı İrandakı mühafizəkar qüvvələrin ortaq təklifidir".

Adalet.az xəbər verir ki, bunu politoloq Elxan Şahinoğlu deyib.

Politoloq bildirib ki, Qalibaf misal olaraq Çinin İranla Səudiyyə Ərəbistanı arasında vasitəçiliyini göstərib:

"Həqiqətən Çinin vasitəçiliyi ilə 2023-cü ilin martında İran və Səudiyyə Ərəbistanı nümayəndələri Pekində diplomatik əlaqələrin bərpasına razılaşmışdılar. Nəticədə 7 illik fasitlədən sonra iki ölkə diplomatik əlaqələri bərpa etdilər. Ancaq diplomatik münasibətlər bərpa edilsə də, bu, iki ölkə arasında gərginliyin tam ortadan qaldırılmasına şərait yaratmadı. ABŞ-İran müharibəsi zamanı İran İslam Keşikçiləri Korpusu Səudiyyə Ərəbistanı ərazisinə raket zərbələri endirdilər. Bu raket zərbələri ABŞ-nin Səudiyyə Ərəbistanındakı hərbi məntəqələrini hədəf götürməklə yanaşı neft hasil edən mərkəzlərinə zərər verdi.



Bundan başqa husilərin Səudiyyə Ərəbistanına raket və dron hücumlarının arxasında da SEPAH dayanır. İrandan maliyyə və hərbi dəstək almadan husilərin davamlı olaraq Səudiyyə Ərəbistanına hücumlar təşkil etməsi mümkün deyil. Digər tərəfdən Çin şirkətlərinin husilərə raket istehsalı üçün ikili təyinatlı komponentlər satması barədə xəbərlər mövcuddur. Çinli diplomatlar bu iddiaları əsassız hesab etsələr də, reallıq fərqlidir. Çin dron və raket istehsalındakı texnologiyalarını tərəfdaş saydığı ölkələrlə bölüşür. Pekinin əsas məqsədi ABŞ-nin Avrasiya bölgədəki hegemonluğunu azaltmaqdır".

Onun sözlərinə görə, Çin İran üzərindən husilərə dron istehsalı üçün komponentlər göndərsə də, Bab əl-Məndəb boğazında sabitliyin tərəfdarıdır:

"Çünki Səudiyyə Ərəbistanı Çinin ikinci ən böyük xam neft təchizatçısıdır və 2025-ci ildə Çinin ümumi idxalının 14 faizini təşkil edir. Mümkündür ki, məhz bu səbəbdən husilər Bab əl-Məndəb boğazında ticarət gəmilərinin yük daşımalarına mane olmurlar. Halbuki, İran Hörmüz boğazına nəzarəti əlində saxlamağa çalışır. Beləliklə, Tehran Çinin Yaxın Şərqdəki proseslərdə vasiəçi olmasını istəsə, buna qarşı çıxacaq dövlət yalnız ABŞ ilə məhdudlaşmır. Çinlə münasibətlərdə gənginlik yaşayan bölgə dövlətləri də Pekinin Yaxın Şərqdə əsas vasitəçi olmasını istəməzlər. Çünki, Tehranın təklifi reallaşarsa, Çin bölgədə diplomatik fəallıqla yanaşı hərbi iştirakını da təmin etməyə çalışacaq. Bu isə Avrasiya bölgəsinin bir çox dövlətinin maraqlarına cavab vermir".

Vasif ƏLİHÜSEYN

"Moskvanın bu cür tələbləri irəli sürməsi onun Ukraynaya qarşı..."



"Rusiya Avropa ilə təhlükəsizlik danışıqlarında ciddi tələblər irəli sürür. Rusiyanın Əbu-Dabidə keçirilən Rusiya-Ukrayna danışıqlarında Avropa İttifaqının da iştirak etməsinə razılıq verməsi, təbii ki, Ukraynanın danışıqlar masasında tək olmadığını göstərir. Lakin diqqət yetirməli olduğumuz əsas məqam Rusiyanın Avropaya münasibətdə irəli sürdüyü şərtlərdir. Belə ki, Rusiyanın irəli sürdüyü tələblər sırasında Finlandiyanın NATO-dan çıxması, Baltikyanı regionda hərbi bazaların ləğv edilməsi, Ukraynanın NATO üzvü olmaması, Moldovanın federallaşdırılması və Qaqauziyanın müstəqilliyi ilə bağlı referendum keçirilməsi kimi məsələlər yer alır".

Adalet.az xəbər verir ki, bunu politoloq Məhəmməd Əsədullazadə deyib.

Politoloq bildirib ki, bunun müqabilində isə Moskvanın Belarusdakı taktiki nüvə silahlarını geri çəkməsi və Dnestryanı bölgədəki hərbi qüvvələrini çıxarması nəzərdə tutulur:

"Təbii ki, bu şərtlərin qəbul edilməsi Avropanın mövcud təhlükəsizlik arxitekturasının ciddi şəkildə dəyişdirilməsi və faktiki olaraq yenidən qurulması demək olardı. Burada söhbət yalnız Ukraynanın gələcək təhlükəsizlik təminatlarından getmir. Rusiya daha geniş geosiyasi məsələləri, o cümlədən NATO-nun 1997-ci il sərhədlərinə geri çəkilməsi məsələsini gündəmə gətirir. Düşünürəm ki, Moskvanın bu cür tələbləri irəli sürməsi onun Ukraynaya qarşı müharibəsinin məqsədlərinin daha geniş geosiyasi müstəvidə olduğunu bir daha göstərir. Rusiya Şərqi Avropada öz təsir imkanlarını genişləndirməyə, Baltikyanı ölkələr, Ukrayna və Moldova üzərində Qərbin təsirini məhdudlaşdırmağa çalışır. Bu isə faktiki olaraq həmin regionun yenidən Rusiyanın təsir dairəsinə daxil edilməsidir".

Onun sözlərinə görə, digər tərəfdən, bu tələblər Avropanın təhlükəsizlik məsələləri ilə bağlı aparıcı danışıqlarının əsas mövzularından birinə çevrilə bilər:

"Lakin Avropa İttifaqının belə şərtləri qəbul etməsi onun mövcud təhlükəsizlik siyasətində ciddi dəyişikliklərə səbəb olardı. Avropa dövlətlərinin bu tələblərlə razılaşması real siyasi çətinliklərlə üzləşəcək. Beləliklə, Rusiyanın maksimalist mövqeyi danışıqların nəticəsiz qalmasına və diplomatik prosesin dayanmasına gətirib çıxara bilər. Rusiya Avropada öz geosiyasi mövqelərini möhkəmləndirə biləcəyi təqdirdə, Cənubi Qafqaz və Mərkəzi Asiyada da təsir imkanlarını genişləndirməyə çalışa bilər. Bu baxımdan, hazırkı danışıqlar təkcə Rusiya-Ukrayna müharibəsinin taleyi deyil, bütövlükdə Avropanın yeni təhlükəsizlik sisteminə təsir edir".

Vasif

Torpaqlarında heç vaxt Günəş batmayan imperiya

Britaniya ilə Azərbaycan necə strateji tərəfdaş oldu?

"12 noyabr 2026-cı ildə Dublin şəhərində Prezident İlham Əliyev və Böyük Britaniyanın Baş naziri Endi Börnem "Strateji Tərəfdaşlıq haqqında Birgə Bəyannamə"ni imzalayıblar. Sənəd müdafiə və təhlükəsizlik, ticarət-investisiya, təhsil və innovasiya olmaqla üç əsas sütuna dayanır. Bu, 1994 və 1998-ci illərin bəyannamələrindən sonra münasibətlərin rəsmi olaraq strateji səviyyəyə qaldırılması deməkdir".

Adalet.az xəbər verir ki, bunu politoloq Əziz Əlibəyli deyib.

Politoloqun sözlərin görə, iki ölkə arasındakı münasibətlərin tarixinin təhlili ayrıca tədqiqat mövzusu kimi çox maraqlıdır:

"Kifayət qədər faktlar və kuryozlar mövcuddur. - 1561-1581-ci illərdə İngiltərə kraliçası I Yelizabetin göndərdiyi "Moskva şirkəti"nin 6 ekspedisiyası Səfəvi dövlətinə (o cümlədən Azərbaycan torpaqlarına) gəlib. Entoni Cenkinson kimi səyyahlar Şamaxı və Bakıda olub, nefti "qara yağ" adlandırıblar. - 1621-ci il "Əbədi dostluq" müqaviləsiSəfəvi dövləti ilə İngiltərə arasında imzalanmış ilk rəsmi sənəd. Bu, iki ölkə arasında diplomatik-ticari əlaqələrin rəsmi başlanğıcı sayılır. - XX əsrin əvvəlində Bakı nefti İngiltərəni "qidalandırırdı. 1904-cü ildə İngiltərənin ağ neft tələbatının təxminən 47-74%-i (müxtəlif mənbələrə görə) Bakı nefti hesabına ödənilirdi. İngilis şirkətləri Bakıya on milyonlarla rubl investisiya qoymuşdu.- Dunsterforce - 1918-ci il Bakı əməliyyatı General Lionel Danstervilin komandanlığı altında kiçik Britaniya qüvvəsi (təxminən 1000-1500 nəfər) Bakını Osmanlı-Alman təhlükəsindən qorumaq üçün gəlib. Şəhəri tuta bilməsələr də,



neftin digər tərəfin əlinə keçməsinin qarşısını 6 həftə saxlayıblar. Sonra geri çəkiliblər, amma noyabrda yenidən qayıdıblar. - 1920-ci il 11 yanvar - de-fakto tanınma-Versal Sülh Konfransında Antanta Ali Şurası Azərbaycan Xalq Cümhuriyyətinin müstəqilliyini de-fakto tanıdı. Təklifi Britaniya nümayəndəsi Lord Kerzon irəli sürüb. - Margaret Thatcher 1992-ci ildə Bakıda"Dəmir xanım" müstəqil Azərbaycana gələn ilk yüksək səviyyəli Qərb siyasətçisi olub (7-8 sentyabr 1992). BP-nin dəvəti ilə gəlib və $30 milyonluq çekləri şəxsən təqdim edib. Bu, "Əsrin müqaviləsi"nə aparan yolda mühüm addım idi.- Diplomatik münasibətlərin qurulması Böyük Britaniya Azərbaycanın müstəqilliyini 31 dekabr 1991-də (bəzi mənbələrdə 26 dekabr) tanıyıb. Diplomatik münasibətlər isə 11 mart 1992-də qurulub. Britaniya səfirliyi 1993-cü ildə, Azərbaycan səfirliyi isə 1994-cü ildə açılıb.- Heydər Əliyevin 1994-cü il London səfəri22-25 fevral 1994-də Prezident Heydər Əliyev Böyük Britaniyaya ilk rəsmi səfərini edib.

Dostluq və Əməkdaşlıq haqqında Birgə Bəyannamə imzalanıb.

Bu, müasir münasibətlərin təməli sayılır. - Əsrin müqaviləsi" (20 sentyabr 1994)Azeri-Çıraq-Günəşli yataqlarının işlənməsi üçün BP-nin başçılıq etdiyi konsorsiumla imzalanıb. Böyük Britaniya şirkətləri bu layihənin əsas oyunçusu olub və bu günə qədər də qalırlar.- 1998-ci ildə Kraliça II Yelizabetlə görüş Heydər Əliyev ikinci rəsmi səfəri zamanı (iyul 1998) Kraliça ilə görüşüb. Kraliça onun demokratik dövlət quruculuğu fəaliyyətini diqqətlə izlədiyini bildirib. Eyni zamanda Tony Blair ilə də görüş olub. - BP-nin "səfirlik" rolu1990-cı illərin əvvəlində Britaniyanın Bakıdakı diplomatik nümayəndəliyi bir müddət BP ofisində yerləşirdi. Şirkət və dövlət maraqları o qədər iç-içə idi ki, bayraq BP binasının üzərində dalğalanırdı.- Böyük Britaniya - ən böyük investorBu günə qədər Böyük Britaniya Azərbaycana 30+ milyard dollar (bəzi məlumatlarda daha çox) investisiya qoyub və ən böyük xarici investor statusunu saxlayır. 600-ə yaxın Britaniya şirkəti fəaliyyət göstərir. - 2017-ci ildə ACG müqaviləsinin uzadılmasıPrezident İlham Əliyev və Baş nazir Tereza Mey-in iştirakı ilə London və Bakıda müqavilə 2049-cu ilə qədər uzadılıb. Bu, uzunmüddətli enerji tərəfdaşlığının simvoluna çevrilib.- Müdafiə əməkdaşlığının sürətlə inkişafıSon illərdə (xüsusən 2025-2026) ilk daimi Britaniya müdafiə attaşesi təyin olunub, ikiillik hərbi əməkdaşlıq proqramı imzalanıb və yüksək səviyyəli müdafiə nazirləri səfərləri olub. - 2026-cı il Strateji Tərəfdaşlıq Bəyannaməsi Dublin imzası ilə münasibətlər rəsmi olaraq "strateji tərəfdaşlıq" səviyyəsinə qaldırılıb. İndi illik strateji tərəfdaşlıq görüşləri keçiriləcək və əməkdaşlıq üç sütun üzrə dərinləşəcək.

Göründüyü kimi, siyahıda xeyli maraqlı detallar vardır. Ən diqqətçəkən cəhət isə budur ki, 16-cı əsrdə "qara yağ" axtarışı ilə başlayan əlaqələr 2026-cı ildə rəsmi strateji tərəfdaşlığa çevrilib".

Sübhan

"Su buxarı soyudularaq maye hala gətirilir və təmiz su əldə olunur"

"Bəşəriyyətin ən böyük problemlərindən biri olan içməli su qıtlığının həlli gözümüzün qabağında, amma çox vaxt ağlımıza gəlməyən bir yerdə gizlənə bilər: havada!2025-ci ildə kimya üzrə Nobel mükafatına layiq görülmüş Kaliforniya Universitetinin Berkli kampusunun professoru Omar Yaghi bu sahədə inqilabi texnologiyanın inkişafına rəhbərlik edir.Texnologiyanın əsasında metal-üzvi karkaslar (MOF) adlanan qeyri-adi materiallar dayanır. Bu materialların daxilində milyonlarla mikroskopik məsamə var. Onlar havadakı su molekullarını süngər kimi özünə çəkir, daha sonra istiliyin təsiri ilə həmin nəmi buraxır. Su buxarı soyudularaq maye hala gətirilir və təmiz su əldə olunur".

Adalet.az xəbər verir ki, bunu məşhur telejurnalist İbrahim Nəbioğlu deyib.

Onun sözlərinə görə, ən maraqlısı isə budur ki, bu proses hətta səhraların son dərəcə quru havasında da işləyə bilir:

"Omar Yaghinin yaratdığı Atoco şirkəti artıq gündə 1000 litrə qədər su istehsal etmək üçün nəzərdə tutulmuş avtonom qurğular hazırlayır.

Günəş enerjisindən və aşağı temperaturlu istilik mənbələrindən istifadə edə bilən bu sistemlər elektrik və mərkəzləşdirilmiş su şəbəkəsi olmayan bölgələr üçün böyük perspektiv vəd edir.

Hələlik 1000 litr göstəricisi kütləvi istifadədə təsdiqlənmiş nəticə deyil, kommersiyalaşdırılması üzərində işlənilən texnologiyanın hədəf gücüdür. Bu kəşf hələ dünya su böhranının tam həlli demək deyil. Ancaq elm bizə mühüm bir həqiqəti göstərir: Bəzən təbiətdə yeni resurs axtarmağa ehtiyac yoxdur. Mövcud resursdan istifadə etməyin yeni yolunu kəşf etmək kifayətdir".

Sübhan




Əbülfət MƏDƏTOĞLU
madatoglua@mail.ru

BUYNUZSUZ DƏLİLİK...

İlk işartıları

Həyatda hamıdan və hər kəsdən daha çox sığındığım və həm də güvəndiyim ünvan tənhalıqdır. Yəni Allahın görə biləcəyi və daha doğrusu, gördüyü həmin o ünvanda mən necə yaranmışamsa, necə varamsa həm zahirən, həm daxilən o cürə də oluram. Kimsə məni orada başqa cürə görə bilməz. Xüsusilə ona görə ki, mən tənhalıqda Allahımla və sənինlə söhbət edirəm. Hətta Allahıma yalvarışlarımla sənə müraciətlərim o qədər mübhəmdir ki, onu bəlkə də kənardan dinləsən bir daha qarşıma çıxmaqdan ehtiyatlanarsan. Düşünərsən və bəlkə də əmin olarsan ki, öz-özü ilə danışan bu adam DƏLİDİ. Özü də elə bir dəli ki, nə dəlixanaya, nə də müalicəyə ehtiyacı yoxdur. Yəni bu dəlilik sağalmayandı. Qana, ruha hopmuş dəlilikdi. Bədəni, ağlı, ürəyi idarə edən dəlilikdi. Hətta sənin dəli hesab etdiyin bu adam sənинlə söhbət edəndə,təbii ki, öz sığındığı məkanda , sən də dəli olursan. Bilirsən niyə?



Ona görə sən də dəli olursan ki, onun verdiyi sualların cavabı bunu tələb edir. Axı dəli sualların cavabı da dəli olur. Deməli, mən əgər sənin təbəssümünü, çöhrəni, saç düzümünü başqalarından fərqli görürəmsə, fərqli dəyərləndirirəmsə və sən də güzgüyə baxıb mənim dediklərimi müşahidə edə bilmirsənsə, onda mənim dəliliyimə şübhən qalmır. Amma mən həmin dediklərimi təkrar israrla dilə gətirirəmsə və sən mənim yaratdığım aurada yavaş-yavaş özündən uzaqlaşırsansa, bax, onda özünə mənim gözlərimlə baxırsan Mənim hisslərimlə qiymət verirsən özünə və nəhayət sən də görürsən ki, saç düzümün fərqlidi, təbəssümün fərqlidi, oturuşun-duruşun fərqlidi. Hətta mənim adımı da hamı kimi yox, fərqli deyirsən. Onda içindən qəribə bir hiss gəlib keçir. Şübhəli hiss. Təkrar güzgüyə baxırsan və dəli olduğunun əlamətləri kimi görürsən yaşadıqlarını

Bütün bunlar kiminsə xoşuna gəlmək üçün, kiminsə qəlbinə yol tapmaq üçün kağıza köçürülmür. Bu mənim tənhalıqda pıçıldadıqlarımdı, etdiyim söhbətin 5-6 cümləsidi. Onu məktub kimi yazmaq da istəyirəm. Özü də keçmiş illərdəki məktublar kimi. Əgər xatırlayırsınızsa, çox da uzaq olmayan keçmişdə məktublar belə başlayırdı.

- Əvvəla salam. Salamdan sonra əgər zəhmət çəkib bizim tərəflə haləhval tutmaq istəyirsənsə

Bəli, belə başlayırdı məktublar. Arasında gül ləçəyi, ürək şəkli. Üstündə isə göndərənin adının yeri boş qalırdı. Oxuyan, yəni məktubun qəhrəmanı hansısa bir sözdən bilirdi ona kimin üz tutduğunu ... kimin məktub yazdığını. Çəkilib xəlvətə oxuyurdu sonra gül ləçəyini qoxlayıb yenidən məktubun arasına qoyub gizlin bir yerdə, ən çox da kitabların arasında , ya da gündəlik geyinilməyən paltarların içində gizlədirdi. Özü ilə gəzdirənlər də olurdu o məktubu, cırıb yandırıb atanlar da. Amma bütün hallarda sevgidən xəbər tuturdu. Anlayırdı, hiss edirdi ki, onu düşünən var, onu xəyal edən var, onu yuxusunda görən var. Onunla bir ömrü bərabər bölüşmək istəyən var

Mən bu duyğuların yaşının neçə min il olduğunu dəqiq bilmirəm. Lakin əminəm ki, sevgi insandan əvvəl yaradılan duyğudu, hissdi Tanrı tərəfindən. Zənnimcə elə Tanrı insanı sevdiyi üçün yaradıb SEVGİNİ!. Və həmin özəl sevgisindən insana da pay verib. Və insan da o sevgidən qaynaqlanıb öncə Allahını, sonra valideynlərini, sonra da bir-birini sevməyə başlayıb. Beləcə, şaxələnib sevgi duyğuları. Bu məqamda orta məktəbin aşağı siniflərində oxuyarkən yazdığım şeirin müəyyən məqamları yadıma düşdü. Onda yazmışdım ki:

Sənə sevinc dilərəm,
Dünyanın özü boyda.
Mənim bəxtimə düşsün,
İynənin gözü boyda -
Bəsimdi!..

Dilərəm sənin üçün
Ürəyin nə istəsə.
Mənə sənin gözlərin
Sevgim, sevənim desə -
Bəsimdi!..

Bu, mənim məktəb illərimin şeirlərindəndir. O illərin ki, sevginin mehi əsirdi. Biz də hiss edirdik, duyurduq yavaş-yavaş o sevgiləri. Amma indi təkcə duymuram, həm də yaşayıram sevgini. Özü də açıq-aşkar. Özü də dəli kimi. Təəssüf ki, bu sevginin gerçək cizgiləri ... boynu bükük , gözü yolda, fikrli, xəyallı ...Hə və bir də tənhalıq!...

Bəlkə də qınayacaqsınız, bəlkə də haqlı çıxaracaqsınız- deyə bilmərəm. Lakin bir şeyi dəqiq bilirəm ki, heç bir duyğu, heç bir hiss elə-belə yaranmır. Onu yaradan cazibə qüvvəsi var. O cazibə qüvvəsi öncə gözlərini çəkib onun arxasınca aparır, sonra da bütün varlığını. Mən də dünyanın ən güclü, necə deyərlər daşı-daşa yapışdıran, yeri göyə, göyü yerə sirdaş, məsləkdaş edən o maqnit gücünün yaşatdıqlarını yaşayıram. Harda olmağımdan, kiminlə söhbət etməyimdən asılı olmayaraq hər yerdə, hər an səni yanımda görürəm, səni özümlə götürürəm, özümlə aparıram. Özü də səndən soruşmadan, izin almadan. Çünki, mən sevginin özəlliyini, tamlığını özümə sığınacaq, ümid yeri seçmişəm. Bilə-bilə, inana-inana, necə deyərlər dəlicəsinə.

Adına məktub gəlibsə
Açmadan onu yandır at!
Düşün unudulmamısan -
Bundan da bir ümid yarat -
Əbülfət!

Telefonun gecə üçdə
Dayanmadan bağırırsa ....
Demək , qalmısan keçmişdə -
Xəyal səni çağırırsa-
Əbülfət!

Yerdən bir çöp qaldırmağa
Gücün yoxsa, yadsan ,artıq...
Sərçədən dən saldırmağa
Heyin yoxsa "adsan" , artıq -
Əbülfət!

Qələmindən qaçırsa tay ,
Axtardığın vergül, nöqtə..
Sual sənə gəlirsə tay -
Bu meydanda bitdi diqtə -
Əbülfət!

Qulağında qarışıq səs
Kipriyinin ucunda nəm...
Dörd divardı sənə qəfəs,
Tənhalıq da sadiq həmdəm-
Əbülfət!

Hə, sevginin dəlilik olduğunu deyənlər haqlıdır. Çünki onlar da bir tərəfdirlər. Qoşalaşmaq, bir yerdə olmaq istəkləri onlara əlçatmaz olub. Ona görə də davranışları da, öz güşələrinə çəkilmələri də qəbul ediləndi. Yəni bu dəlilik əbədidi və şükürlər olsun ki, mən öz dəliliyimin müalicəsini axtarmıram. Sadəcə məni dəli edənin yanımda olmasını istəyirəm. Bu, hətta günah sayılsa da. Neynəyim, dəlinin buynuzu olmur ki Və bir də bu RUH, həm də ÜRƏK məsələsidir...

Bir az ağıl dəlisidi,
Bir az nağıl dəlisidi...
Öz- özünün zəlisidi -
Ürəyim!

Bir az gecə ovqatlıdı
Bir az sabah sovqatlıdı
Göydən uca - on qatlıdı -
Ürəyim!

Bir az gülüş istəklidi
Bir az kədər dəstəklidi ...
Böyük sevgi məsləklidi-
Ürəyim!

Bir az Allah ətəyində,
Bir az ümid pətəyində...
Vurur, bir qız ürəyində -
Ürəyim!

P. S. **Görəsən yanılmıram ki?..**

P.P.S. **Amma yanılsam yəqin ki bunu dəlilik sayacaqlar... Buynuzsuz dəlilik!..**

Gözümü əmanət etdiyim həkimə minnətdarlıq məktubu

Daha ömrün payızını yaşadığım bir vaxtda, gözlərimin işığının yavaş-yavaş azaldığını hiss edirdim..Və nəhayət sağ gözümün görmə qabiliyyəti tam zəiflədi. Əməliyyat olunması məsləhət bilindi. Bakı şəhərindəki "Yeni Klinika" xəstəxanasına müraciət etməli oldum. Uzman Cərrah-Oftalmoloq dr. Günel xanım Musayeva dadıma yetdi: gözümü cərrahi əməliyyat etdi. Çox səmimi, bacarıqlı doktor kimi gözümün işığını özünə qaytardı.

Günel xanım mənim müəllim, şair, publisist olduğumu öyrənmişdi. Mən dərin minnətdarlığımı bildirdim və ona "Gözümü əmanət etmişəm həkim" adlı şeirimi ithaf etdim. Günel xanımın öz təşəbbüsü ilə çəkdiyi fotomuzun altında yazmışdı:



- Mənə amanət edilən hər gözə öz gözüm kimi məsuliyyətlə yanaşıram. Amma bir şairin gözünü əməliyyat edərkən qat-qat artıq məsuliyyət hiss etdim. Gözlərinizə verdiyim işığın mənə şeir olaraq dönməsi çox xoş oldu, şair. Həmişə işıqlıqda.

Günel həkimin bu xoş sözləri mənə qarşı ən böyük hədiyyə idi. "Yeni Klinika" xəstəxanasının rəhbərliyinə və dr. Günel xanım Musayevaya öz təşəkkürümü bildirirəm. Buyurun, şeiri oxuyun.

ƏMANƏT ETMİŞƏM

Doktor Günel xanıma

Gözləri əmanət etmişəm, həkim,
Çən hopmuş halına gün ağlayasan.
Cərrah bıçağınla yaralasan da,
Səfalı əlinlə sığallayasan.

Axı gözlərimin didələrində,
Ömrümün təzadlı illəri yaşar.
Toxunsan, sozalmış gilələrində,
Kövrək xatirələr çağlayıb-daşar!

Atasız boy atan kənd oğlanının,
Yurd salıb kədəri göz bəbəyində.
Tanrı bəxş etdiyi söz sərvətləri
Qəlbinə ələnib göz ələyində.

Baxsan, taledəki bəxtsiz sevginin,
Solğun işartısı duyulacaqdır.
İllərin nisgili, ayrılıq qəmi,
Kövrək göz yaşıyla yuyulacaqdır.

Həkim! Elə et ki, gözlərimdəki,
Həlimlik, həzinlik silinməsinlər.
Acının, ağrının, kədər, nifrətin
Adlı cizgiləri bilinməsinlər.

Vermişəm gözləri əmanət Sizə,
Dözərəm hər ağrı, acını çəkim.
Bircə gözlərimdə yaşananları,
Cərrah bıçağından yan saxla, həkim!

İbrahim YUSİFOĞLU
Azərbaycan Respublikasının
qabaqcıl təhsil işçisi, şair-publisist

Bu qidalar xərçəng riskini artırır

Terapevt Əmir Xan bəzi qidaların tez-tez istehlak edilməsinin bağırsaq xərçəngi riskini artırdığı barədə xəbərdarlıq edib.

Adalet.az xəbər verir ki, mütəxəssis söhbətin kolbasa, sosiska, qurudulmuş ət və digər emal olunmuş ət məhsullarından getdiyini bildirib.

Həkim izah edib ki, bu məhsulların hazırlanmasında nitritlərdən və digər konservantlardan istifadə olunur:

"Orqanizmdə onlar N-nitrozo birləşmələrinə çevrilir və özlüyündə bağırsaq xərçəngi riskini artıra bilir. Bu maddələr mutasiyaları gücləndirə bilər".

Ə. Xan qeyd edib ki, ideal halda bu qidaları ümumiyyətlə yeməmək daha yaxşıdır, lakin praktikada tam imtina mümkün deyil. Buna görə də həkim daha real hədəflərə yönəlməyi - məsələn, emal olunmuş ət məhsullarını həftədə bir dəfədən çox yeməməyi tövsiyə edib.

Azərbaycanlı yazıçının müsahibəsi Amerika mediasında

ABŞ-ın Kaliforniya ştatında fəaliyyət göstərən müstəqil Maskomania News nəşri Azərbaycan yazıçısı, şairi və dramaturqu Seyran Səxavətdən geniş eksklüziv müsahibə alıb.

Müsahibədə Seyran Səxavət vicdan, ədalətsizlik, ədəbiyyat, süni intellekt və insanların üzləşdiyi mənəvi seçimlər haqqında danışır.

Seyran Səxavət, həmçinin Azərbaycan-Ermənistan sülhü, yazıçıların məsuliyyəti, tamahkarlığın siyasətdə və cəmiyyətdə rolu barədə fikirlərini bölüşür. 80 yaşında o, həyatından çıxardığı dərslərə nəzər salaraq həqiqət, insan təbiəti və dünya haqqında düşüncələrini ifadə edir.

Eksklüziv müsahibə Maskomania News-un baş redaktoru Fərhad Elmar tərəfindən yazılı suallar əsasında aparılıb. Seyran Səxavət sualları Azərbaycan dilində cavablandırıb. Cavablar Maskomania News tərəfindən ingilis dilinə tərcümə edilərək dərc olunub.

Müsahibənin ingilis dilində tam mətni: "https://maskomania.com/seyran-sakhavat-the-world-is-ruled-by-greed/" (https://maskomania.com/seyran-sakhavat-the-world-is-ruled-by-greed/)

Haqsızlığa məruz qalmaq ağırdır, yoxsa haqsızlıq etmək?

SUAL: Seyran müəllim, qədim yunan filosofu Sokratın müdafiə etdiyi fikirlərdən biri budur ki, haqsızlığa məruz qalmaq haqsızlıq etməkdən daha yaxşıdır. Ancaq həyatda çox vaxt bunun əksini görürük: haqsızlıq edən adam uğur qazanır, haqsızlığa məruz qalan isə həm itirir, həm də əziyyət çəkir. Sizcə, belə bir vəziyyətdə əslində kim uduzur? Başqasına haqsızlıq edib rahat yaşayan insan, yoxsa öz vicdanını qoruduğu üçün əziyyət çəkən adam? Bəs vicdan əzabı çəkməyən bir insanı mənəvi cəhətdən uduzmuş hesab etmək olarmı?

CAVAB: Haqsızlıq edən adam bunun ağırlığını duysa bəlkə də etməz. Haqsızlıq onun üçün çox yüngül başa gəlir - bəzən də əyləncə səviyyəsində. Ona görə də hesab edirəm ki, haqsızlığa məruz qalmaq ağırdı!!!

Fəxri adlar: mükafat, yoxsa ömürlük mənəvi borc?

SUAL: Seyran müəllim, təsəvvür edin ki, Amerikada Ernest Heminqueyə "Amerika Xalq Yazıçısı", Maykl Ceksona "Amerika Xalq Artisti", Nikol Kidmana isə "Amerika Əməkdar Artisti" adı verilsəydi, yəqin ki, amerikalılar buna təəccüblənərdilər. Azərbaycanda isə sovet dövründən qalan bu fəxri adlar sistemi hələ də yaşayır. Sizcə, dövlət sənətkara fəxri ad verəndə onun yaradıcılığını qiymətləndirir, yoxsa onu öz qarşısında mənəvi borclu da qoyur? Bəlkə, bəziləri daxilən bu ada layiq olmadıqlarını bilir, həqiqətən xalqın sevgisini qazanmış sənətkarların yanında utanırlar, amma aldıqları addan da imtina edə bilmirlər? Mənə bəzən elə gəlir ki, belə bir fəxri ad sənətkarın söz azadlığına ömürlük iş kəsmək kimidir.

Siz necə düşünürsünüz? Azərbaycan bu sistemi saxlamalıdır, yoxsa sənətkarın qiymətini onun yaradıcılığı və xalqın sevgisi müəyyən etməlidir?

CAVAB: Fəxri adlar Sovet dövründə, xalq arasında böyük hörmət və söz sahibi olan şəxslərə verilmiş "rüşvətdir", yəni al bunu ağzına gələni danışma. Təəssüflər olsun ki, bu indi də davam edir. Ədalət naminə onu da demək vacibdir ki, fəxri ad alanlar arasında son dərəcə böyük sənətkarlar və bu fəxri adı "doğrultmayanlar" (hökumətin nəzərində) da var - bu reallıqdır, həqiqətdir.

Azərbaycan-Ermənistan sülhü: tarixi yaddaşla gələcək arasında seçim

SUAL: Seyran müəllim, siz 2021-ci ildə "Həftə içi" qəzetinə müsahibənizdə ermənilərlə birgə yaşamağa hazır olmadığınızı bildirmişdiniz. Bu gün isə Azərbaycanla Ermənistan arasında sülh istiqamətində addımlar atılır. Həmin müsahibə: "https://hafta.az/ermenilerle-hec-vaxt-birge-yasamaram...--seyran-sexavet-310079-xeber.html" (https://hafta.az/ermenilerle-hec-vaxt-birge-yasamaram...--seyran-sexavet-310079-xeber.html). Artıq XXI əsrdə yaşayırıq. Müharibənin ağrılarını yaşamış insanlardan keçmişi unutmağı gözləmək olmaz. Amma bu gün böyüyən uşaqların gələcəyə hansı düşüncə ilə baxacağı da mühüm məsələdir. Təsəvvür edin, bir azərbaycanlı uşaq atasından soruşur: "Ata, ermənilər bizim düşmənimizdir?" Sizcə, ata bu suala necə cavab verməlidir? Tarixi yaddaşı qorumaqla keçmişin düşmənçiliyini gələcək nəsillərə ötürmək arasında sərhəd haradan keçir? Sizcə, uşaqlara Azərbaycan xalqının yaşadığı faciələri olduğu kimi öyrədib, eyni zamanda onları başqa xalqlara nifrət etmədən böyütmək mümkündürmü? Bu məsələdə ədəbiyyatın üzərinə hansı məsuliyyət düşür?

CAVAB: Azərbaycan türkləri kinli deyil, uzun illərdən sonra tariximizin ən qanlı səhifələrindən olan Xocalı faciəsinə də bu günkü kimi yanaşmayacaq, əgər belə demək mümkündürsə nisbətən "unudacaq". Ancaq inanmıram ki, erməni xislətli tarix boyu özünə məxsus şəkildə (torpaq iddiası, dənizdən-dənizə böyük Ermənistan hülyası və sair sərsəmləmələri ilə) Xocalını təkrar-təkrar yadımıza salmasın - kaş yanılsaydım. Övladlarımızı isə sonradan-sonraya bizə qonşu gələn ermənilərlə düşmənçilik ruhunda deyil, son dərəcə ehtiyatlı olmağı tövsiyə etmək gərəkdir. Siyasətçilərin meydan suladığı məkanda isə ədəbiyyat köməksizdir və heç nə edə bilməz - ədəbiyyat 100-150 il bundan əvvəl kömək eləyə bilərdi və eləyirdi də!

Azərbaycan ədəbiyyatı niyə dünyada kifayət qədər tanınmır?

SUAL: Seyran müəllim, Azərbaycan ədəbiyyatının dünyada kifayət qədər tanınmamasını çox vaxt keyfiyyətli tərcümələrin azlığı və xarici nəşriyyatlarla əlaqələrin zəifliyi ilə izah edirik. Amma bəlkə, Azərbaycanda öz ədəbiyyatının dünya səviyyəsindəki yeri və imkanları olduğundan yüksək qiymətləndirilir? Yoxsa dəyərli hesab edilən əsərlər dünya oxucusu üçün eyni dərəcədə maraqlı olmaya bilər? Ümumiyyətlə, bir yazıçının dünyada tanınmaması onun yaradıcılığının zəifliyini göstərirmi? Təsəvvür edin ki, nüfuzlu bir xarici nəşriyyat sizdən dünya oxucusuna təqdim etmək üçün üç müasir Azərbaycan yazıçısı, üç şair və üç publisist seçməyi xahiş edir. Kimləri seçərdiniz və nə üçün? Özünüzü bu doqquz nəfərlik siyahıya daxil edərdinizmi?

CAVAB: Bizlər, ümumiyyətlə xaricdə tanınmağa heç vaxt meylli olmamışıq. Belə olmasaydı Nizami, Füzuli, Xaqani... və onlarla klassiklərimizi dünyada tanıdardıq da... Tanıtmamışıq. Rəssamlıqdan, musiqidən fərqli olaraq ədəbiyyatın dünyəvi tanınması tərcümə kimi bir qıl körpüdən keçir - keçə bilirmi? Yox, keçə bilmir və keçilməzliyin xeyli səbəbi var ki, bu bizim daxili işimizdi və burda yalnız özümüz-özümüzə kömək edə bilərik. Sizin dediyiniz kimi nüfuzlu bir xarici nəşriyyat məndən dünya oxucusuna təqdim etmək üçün üç müasir Azərbaycan yazıçısı, üç şair və üç publisist seçmək xahiş etsə kimləri seçərdiniz və özünüzü də bu doqquz nəfərlik siyahıya daxil edərdinizmi?

Cavab verirəm:
Üç yazıçı:
İsi Məlikzadə
Yusif Səmədoğlu
Fərman Kərimzadə

Üç şair:
Məmməd Araz
Qulu Ağsəs
Əşrəf Veysəlli



Üç publisist:
Səyavuş Sərxanlı
Bahəddin Həzi
?

Əlbəttə, bu mənim zövqümdü və heç kəs bunu məndən ala bilməz. Ədalət naminə onu da deməliyəm ki, bu "üçlüklər"dən başqa yetərincə istedadlı nasirlər, şairlər var, sırf publisist yoxdu; yazıçılar, şairlər var ki, gözəl publisistik yazıları var. Qaldı, sizin sualınızın o tərəfinə ki, Seyran Səxavət olaraq özümü bu doqquzluqda görürəmmi? Bəli, şair kimi də, publisist kimi də, nasir kimi də... Və mən havayı danışmıram, ortada romanlar, şeirlər, poemalar, yeddi min beş yüzdən yuxarı intervu, yol qeydləri və digər publisistik yazılar var... Mən özümə də ədalətlə yanaşmalıyam və bunu bacarıram.

Hicab: şəxsi seçim, yoxsa cəmiyyətin qadına qoyduğu tələb?

SUAL: Seyran müəllim, Azərbaycanda hicab məsələsi uzun illərdir mübahisə doğurur. Bəziləri bunu qadının dini inancının və şəxsi azadlığının ifadəsi hesab edir, digərləri isə ailənin və cəmiyyətin təsiri altında verilən qərarın nə dərəcədə azad seçim olduğunu sorğulayırlar. Təsəvvür edin ki, bir qadın ailəsinin etirazına baxmayaraq hicab taxmaq, başqa bir qadın isə ailəsinin təzyiqinə baxmayaraq hicabını çıxarmaq istəyir. Sizcə, bu iki qadının seçim hüququna Azərbaycan cəmiyyətində eyni hörmətlə yanaşılırmı?

Əgər insan öz seçiminə görə ailəsinin sevgisini, yaxınlarının hörmətini, hətta yaşadığı mühitdəki yerini itirmək təhlükəsi ilə üzləşirsə, onun qərarını nə dərəcədə azad hesab etmək olar? Sizcə, burada əsas problem hicabın özü, yoxsa cəmiyyətin qadının həyatına və şəxsi qərarlarına nəzarət etmək istəyidir?

CAVAB: Səxsi seçim, yoxsa cəmiyyətin qadına qoyduğu tələb, - deyə soruşursunuz. Cavab birmənalıdır:

- İkisi də.

Süni intellekt: insan öz yaratdığının əsirinə çevrilə bilərmi?

SUAL: Seyran müəllim, süni intellekt getdikcə insanların gördüyü işləri öz üzərinə götürür. Sizcə, bir gün yazıçıların və şairlərin də yerini tuta bilərmi? Təsəvvür edin ki, süni intellekt insan psixologiyasını, duyğuları və ədəbiyyatın incəliklərini təqlid etməyi öyrənir, oxucuları heyran edən romanlar, hekayələr, ssenarilər, şeirlər və dərin psixoloji əsərlər yazır. Hətta insanlar bu əsərləri tanınmış yazıçıların əsərlərindən üstün tuturlar. Belə olan halda hiss etmədən hisslər haqqında yazmaq həqiqi sənət sayıla bilərmi? Bəlkə, insanlar öz yaratdıqlarına inanmağa, onun qərarlarını öz qərarlarından üstün tutmağa meyillidirlər? Bu, insanın təbiətindəki könüllü tabeçilik, hətta qul olmaq istəyi ilə bağlıdır, yoxsa məsuliyyəti öz üzərinə götürmək istəməməsi ilə? Yaxud bəlkə, süni intellekt dünyanı insanlardan daha yaxşı idarə edib daha ədalətli bir gələcək quracaq? Sizcə, insanlar öz yaratdıqlarının əsirinə çevriləcəklər, yoxsa onun sayəsində daha azad olacaqlar?

CAVAB: Hələ süni intellekt ortalığa çıxıb bütün boy-buxunu ilə görükdükdən xeyli, uzun illər əvvəl insan süniliyi əsarətində idi - girov düşmüşdü - plen. Bu süni intellekt heç vaxt, heç vaxt, heç vaxt nəinki əsl istedad sahibi olan yazıçıların yerini tutar, heç onların böyründən yel olub ötə də bilməz - bu həqiqətdir.

Ziyalının dəyişən mövqeyi: vicdan, yoxsa şəxsi maraq?

SUAL: Seyran müəllim, təsəvvür edin ki, bir ziyalı illərlə hakimiyyəti sərt tənqid edir. Sonra ona ev, avtomobil, yüksək vəzifə və ailəsi üçün müəyyən imtiyazlar verilir. Bundan sonra həmin insan dünən tənqid etdiyi hakimiyyəti tərifləməyə başlayır. Məni maraqlandıran onun niyə mövqeyini dəyişməsi deyil. Daha çox bu dəyişikliyin insanın daxilində nə baş verdiyini bilmək istərdim. Sizcə, belə bir insan öz vicdanı ilə necə barışır? Zaman keçdikcə yeni mövqeyinə özü də inanmağa başlayır, yoxsa qazandığı rahatlıq onun üçün əvvəlki prinsiplərindən daha vacib olur? Bəs cəmiyyət belə insanlara niyə bəzən əvvəlkindən də böyük hörmət göstərir? Bu, həmin ziyalının nüfuzudur, yoxsa onun qazandığı imkanlara göstərilən hörmət? Bəlkə, insanlar belə halları gördükcə "O dəyişdisə, mən niyə dəyişməyim?" deyə düşünür və zamanla prinsiplərindən imtina etməyi adi hal saymağa başlayırlar? Sizcə, bu cür münasibət cəmiyyətin mənəvi dəyərlərini də tədricən dəyişə bilərmi? Belə olan halda bu, cəmiyyəti hara apara bilər?

CAVAB: İnsanın yer üzünə ayağı dəyəndən bu günə qədər Vicdan - Şəxsi Maraq müharibəsi, bu günə qədər də davam edir və edəcək. Orasını da deyim ki, bu elə bir mürəkkəb seçimdir ki, onun başında Nəfs dayanır - özü də çox möhkəm. Əslində Vicdan - Şəxsi Maraq müharibəsini də, elə Dünyanın özünü də Nəfs idarə edir - dünyanın idare olunmasında böyük dövlət başçılarının rolu görüntü xarakteri daşıyır - siyasi butaforiya...

Yazıçı həqiqəti deməlidir, yoxsa xalqını qorumalıdır?

SUAL: Seyran müəllim, yazıçının vəzifələrindən biri cəmiyyətin görmək istəmədiyi həqiqətləri üzə çıxarmaqdır. Amma bəzən həmin həqiqətlər xalqın özü haqqında yaratdığı təsəvvürlərlə ziddiyyət təşkil edir. Xalqını sevmək onun səhvlərini gizlətmək deməkdir, yoxsa həmin səhvləri açıq göstərmək də vətənə xidmət sayıla bilər?

(ardı 10-cu səhifədə)



Dr. Hüseyn Şərqidərəcək (Soytürk)
"Xudafərin" dərgisinin təsisçisi və baş redaktoru

ADIMIZ - SOYADIMIZ

İnsan oğlu şüurlu həyata başladığı gündən bəri həmişə ad-san qazanmağa çalışmışdı. Bu üzdən də insanlar arasında fərqliliklər ortaya çıxmışdır. İnsanlar arasında öncə yer-yurd, sonra isə tayfa adları yaranmağa başlamışdır. İş bölgüsü ortaya çıxdıqda bu səbəbdən bir çox titullar əmələ gəlmişdir. Siyasi quruluşların yaranmışı ilə bir çox adlar, o cümlədən "xan", "xanım", "bəy", "xaqan", "əmir", "seyid", "şah" və s. yaranmışdır. İnanc və dini düşüncələr əsasında da xeyli adlar və soyadlar ortaya çıxmışdır. Demək olar ki, günümüzdə də hələ bu türlü adlar ən yayqın adlar hesab edilir.

Sevgi və məhəbbətin ortaya çıxardığı bir çox isimlər də vardır. Bunlardan əlavə texnologiyanın da özü ilə gətirdiyi ad və adlandırmalar vardır. Bu dediklərimiz adların ortaya çıxmasında önəmli amil hesab edirsə də tam da ad və adqoyulmanın fəlsəfəsini əhatə etmir. İnsanoğlu hər zaman kim olduğunun və yaxud hardan gəldiyinin və nə olduğunun axtarışında olmuşdur. Bu əlavəyə uyğun müxtəlif dillərdə çeşidli terminlər yaradılmışdır ki, bu terminlər Qərbdə familiya, Şərqdə ailə adı və s. kimi səslənmişdir. Biz türklərdə isə bu əlavəyə soyadı deyilmişdir. Əsas məsələ də buradan irəli gəlmişdir. Bunu ifadə etmək üçün adlara çeşidli əlavələr edilmişdir: "zadə", "pür", "li", "qızı", "oğlu", "çı", "çi", "çu", "ov", "ova", "yeva", "gil" və s.

Bu kimi ifadələri familiya, soyad, ailəvi ad, kökə bağlı terminlər kimi işlətmişlər. Hal-hazırda bu önəmli kimlik göstəricisi türklər arasında soyadı göstəricisi kimi istifadə olunmaqdadı.

Soyadı bağlarını təxminən belə izah etmək mümkündür:

Zadə - bu söz türk ruhuna və ədəbiyyatına zidd bir soyad əlavəsidir. Ona görə ki, onun yaranma səbəbləri bizim mentalitetimizə ziddir. "Zadə" doğulmuş deməkdir. Halbuki insan atadan doğulmur. Ona görə bu soyad kökündən yanlış olmaqla bərabər, həm də yanlış bir soyun göstəricisi idi. Bu istilah zərdüştlərdən qalmadı və qədim farsların həyat tərzi ilə əlaqədardır. Farslarla ailədaxili evlənmələr yayqın olduğundan belə bir soyaddan istifadə edilmişdir. Halbuki, tüklərdə heç zaman ailədaxili izdivaclar (bacı və qardaş kimi yaxınlar) olmamışdır. Xüsusilə də islamı qəbul etdikdən sonra haram məsələsi çox önəm daşıdığından "zadə" kimi soyadları tamamilə yanlış və uyğunsuz hesab edilmişdir. Onun yerinə taxma hesab edilmişdir. Onun yerinə taxma adlar və ləqəblər yayqın hal almışdır.

"Zadə" sözü qədim farsların həyat tərzinə uyğun olaraq ortaya çıxmış və yayqınlaşmış, həm də ailəiçi izdivacların gətirdiyi bir soyaddır. Əgər bir türk bu soyaddan istifadə edərsə, onda kişi yerinə qadın adı qoyaraq qadından doğulduğunu göstərməlidi. Məsələn, Hüseynzadə yerinə anasının adı - Şamamazadə daha uyğundur. Bu soyad türklərin heç bir ənənəsinə uyğun deyil və onun duru ruhuna yaddır. Həm də dini inancla bağdaşlaşmayan farslardan gəlmə arxaik soyaddır.

"Pür" - Bu soyad Azərbaycanın güneyində də çox yayqındır. Onun da səbəbi də Pəhləvi rejimi dönəmində türkləri öz kök və varlığından qoparmaq üçün bu soyadlardan istifadə edilməsidir. "Pür" sözü əslində hind mənşəlidir və "oğlu" deməkdir. Bunun da soyadı kimi istifadəsi türklərə uyğun deyil. Ona görə ki, türklərdə oğul və qız sözləri varkən bir qızın və ya oğlanın adına "pur" əlavəsi yanlışdır və arzuedilməzdir.

"Oğlu" - Bu tamamilə türk mənşəli soyaddır, ancaq cinsi fərq nəzərə alınmalıdır. Sadəcə kişi cinsinin soyad əlavəsi kimi istifadəsi mümkün sayıla bilər.

"Qızı" - Bu soyad şəkilçisi dilimizə uyğundur. Yalnız qadın cinslərinə əlavə edilməsi uyğundur. Məsələn, Əliqızı, Anarqızı və s.

"li", "lı", "lu" - Bu soyad şəkilçisi doğru görünsə də onun lu şəkili yad kimi səslənmişdir. Doğru şəkili li-lı kimidir. Soyada əlavə edilən bu şəkilçi yalnız tayfa və yer ilə bağlı mənsubiyyəti göstərə bilir. Ancaq bizim soyadlarımıza uyğundur, çünki soyadlarımızın göstəricisi kimi görünür.

"Y" - Bu soyad şəkilçisi ərəbcədən alınmış mənsubiyyət şəkilçisidir. Iı şəkilçisini əvəz edir. Məsələn, "Şərqi" "Şərqli" kimi istifadə anlamı vardır.

Heç nədən istifadə etməmək: Bu bir çox hallarda xüsusilə də əsil türk sözlü soyadlarında keçərlidi. Məsələn, - Yaşar Qaraxan, ancaq bu cür soyadı alınma adlarda keçərsizdir. Məsələn, Məhəmməd Məhəmməd. Belə soyadları ərəb mənşəlidir və türk dil və varlığına uyğun deyildir.

"Çi", "Çı", " Çu", "Çü" - Bu soy şəkilçiləri insanın peşə bağlılığından törəmişdir. Azərbaycan soyadına uyğundur. Məsələn, Toğrul Dəmirçi, Həsən Kömürçü və s.

Bütün bunlarla yanaşı bir çox saxta və qondarma əcnəbi soyad şəkilçiləri ilə də qarşı-qarşıyayıq.

"Ov", "Ova", "yev", "yeva" - Bu soyad şəkilçisi Azərbaycanda, yəni Şimali Azərbaycanda rus işğalının nəticəsində yaranmışdı. 1813-cü ildə Şimali Azərbaycan çarlıq Rusiyasına ilhaq edildikdən sonra burada yaşayan azərbaycanlıların soyadına edilən rus kökenli şəkilçidir. Bu yad soyad şəkilçisi 70 illik sovet rejimi illərində də davam etmişdir və türklüyün ruhuna və varlığına yabançı və zidd soyadını ifadə edir. Günümüzdə bu soyad şəkilçisi mövqeyini itirməkdədir.

Soyadlarını araşdırdıqca ulusumuzun nə kimi əcnəbi işğallarına məruz qaldığı aydın görürük. Adlarımız və soyadlarımız milli varlığımızın göstəricisidir. Türklüyümüzü qorumaq üçün əcnəbi və qondarma, həm də aşılamıyan hədəfli soyadlardan imtina məqsədyönlüdür. Bunlara "yox" deyək və ən azı adımızı və soyadımızı milli mentalitetimizə uyğun olaraq seçib qoruyaq. Çünki səni başqalarından fərqləndirən ilk öncə sənin adın və soyadındı.

Milli mentalitetimizə uyğun soyadımız, həm də boy adımızdır. Biz təbiətə bağlı bir varlıq olduğumuzdan bizdə təbiət bağlılığı çox güclüdür. Gəlin dağlarımızdan, çaylırımızdan, oba və yerləşim yerlərimizdən aldığımız adları "zadə", "y", "ov", "ova", "pür" və s. yerinə istifadə edək. Məsələn, "Qoşadağlı", "Qoşqarlı", "Qaradağlı", "Uludərəli".

"Gil", "gillər" - kimi soyadlardan da yerində istifadə etmək olar. Həsəngil/Məmmədgillər və s.

El-oba ilə bağlı olan minlərlə soyadımız var. tayfa və nəsil soyadlarımız hamıdan zəngindir. Məsələn, Bəşirov ya ova yerinə, Elbəyli, Elcanlı, Bakılı, Gəncəli və s. istifadə edək.

Oxucularımıza təqdim etdiyimiz və tövsiyyə etdiyimiz bu yazı özünə dönüşünün bir əlamətidir. Əsas odur ki, özümüz öz varlığımızı dərindən başa düşək. İşğalçı adlarından və soyadlarından uzaq duraq.

(əvvəli 9-cu səhifədə)

Sizcə, burada yazıçının vicdanı ilə cəmiyyət qarşısındakı məsuliyyəti arasında sərhəd haradan keçir? Bədii əsərdə həqiqətlə təxəyyülü bir-birindən ayırmaq nə dərəcədə vacibdir?

CAVAB: Yazıçının vicdanı ilə cəmiyyət qarşısındakı məsuliyyəti arasında sərhəd, nəfsdən keçir-çox ağır olsada bu həqiqətdir. Bədii əsərdə həqiqətlə təxəyyülü bir-birindən ayırmaq nə dərəcədə vacibdir sualına isə cavabım belədir: bədii əsərdə təxəyyüllə həqiqəti bir birindən ayırmaq sözə xəyanətdir. Yazıçı yalnız və yalnız həqiqəti deməlidir, çünki xalqı qorumağın yeganə yolu da elə həqiqətdən keçir... Xalqın səhvlərini gizlətmək xəyanətdir. Bir dəfə Azərbaycan televiziyalarının birində bu barədə o qədər sərt danışdım ki, məni o qədər də dərindən anlamayan teleaparıcı soruşdu:

- Seyran müəllim, bu xalqa qarşı bu qədər nifrət sizdə hardandır?!

Cavab verdim:

CAVAB: Bu yaşda mənim gəldiyim xeyli nəticələr var:

İnsan yalnız ölümə yaltaqlana bilmir.

Yalan yaltaqlığın lirikasıdır.

Təqsiri olan adamlar günahını zəmanənin boynuna atırlar və nəticədə zəmanə bəşəriyyətin günah ambarına çevrilir - bax, bir gün bu anbar partlayanda dünyanın axırı olacaq.

Baba ilə nəvə ona görə bir-birini çox istəyir ki, ikisi də bir ağılda olur.

İndiki övladlar valideynlərinə bankomat kimi baxırlar.

Mənə elə gəlir ki, insan yalnız ölənə qədər deyil, öləndə də öyrənir - öləndə də ölmək öyrənir.

Dünya Allahın çin olmuş yuxusudur.

Xalqın uğrunda ölməyə dəyməz, çünki xalq həqiqət deyil - həqiqətin yolunda ölmək lazımdır.

Körpə ölümü yaşlı adamların yuxusu boyda bir şeydir.

Cümlə qurmaq dövlət qurmaq qədər çətindir!

Azərbaycanlı yazıçının müsahibəsi Amerika mediasında

- Sevgidən!!!"

İnsan öz həyatını yenidən yaşamağa razı olardımı?

SUAL: Seyran müəllim, alman filosofu Fridrix Nitşe "Şən elm" əsərində belə bir düşüncə təcrübəsi irəli sürür: təsəvvür edin ki, sizə bütün həyatınızı, yaşadığınız sevincləri, ağrıları, uğurları, itkiləri və etdiyiniz səhvləri heç nəyi dəyişmədən yenidən, özü də sonsuz dəfə yaşamaq təklif olunur.

Sizcə, insan belə bir təklifi qəbul edə bilərmi? Yoxsa həyatında dəyişmək istədiyi heç olmasa bir hadisənin olması onun öz taleyi ilə tam barışmadığını göstərir? Bəs sizə belə bir seçim verilsəydi, Seyran müəllim, öz həyatınızı olduğu kimi yenidən yaşamağa razı olardınızmı?

CAVAB: İnsanları dəyə bilmirəm, ancaq söhbət məndən gedirsə: - Mən heç vaxt!!! Çünki son dərəcə maraqsız olardı və birinci yaşamda gördüyüm yaxşı şeylər də burnumdan gələrdi... İstəmirəm...

Dünya - həyat haqqında gəldiyiniz nəticələr barədə...

SUAL: Sizin 80 yaşınız var - böyük ömür yaşamısınız - Zəhmət olmasa Dünya - həyat haqqında gəldiyiniz nəticələr barədə nə deyərdiniz? Fikriniz nədi?

Ən asan şey dünyaya gəlməkdir, çünki burda sənin heç bir zəhmətin yoxdur.

"Salam verdim rüşvət deyildir deyə almadılar" (Füzuli) - ancaq rüşvət verdim salam deyildir deyə o saat aldılar...

Qız uşağı sevinəndə Allah da gülümsəyir. Allahın dodaqlarına təbəssüm qonanda o, bəşəriyyətə qarşı daha çox mərhəmətli olur.

Yumruq boyda daş, milyon illər boyu sıxılmış Yer kürəsi boyda torpaqdır.

Mənə elə gəlir ki, Allah bütün dünyanı bizim kəndin üstündən idarə eləyir.

Yoooox!!! Sənin dediyin o həqiqət doğulmayacaq - Sən də, Mən də, O da yığışıb o həqiqəti abort elətdirməliyik! ("Qızıl teşt" tamaşasından - 1988-ci il).

Aralıdan baxanda Yer kürəsi çürük toxuma oxşayırdı, yaxından baxanda isə oxşamırdı - eləcə çürük idi.

Əgər Abdulla da davadan qayıtmasaydı, tarix kitabında yazacaqdılar ki, Sovet xalqı İkinci Dünya müharibəsində iyirmi milyon bir nəfər adam itirib.

Qızlarının üzü gülməyən məmləkətin gələcəyi ağlar qalar.

Dünyanın ən xoşbəxt xalqı, dünyanın ən az yalan danışan xalqıdır.

Xalq birləşəndə güclü olur, yazıçı təklənəndə.

Seyran muəllim, vaxt ayırıb bizimlə musahib olduğunuz üçün minnətdarlıgımızı bildiririk!

"İnsan qorxunu bu gizli həyatıyla aşır və yaradıcılığın..."

"Andrey Tarkovski deyirdi ki, sənətin missiyası insanı ölümə hazırlamaqdı. Bu, sənətin boyununa yüklənən dini öhdəlikdir. Sənətə "dinin instrumental alt qatı" kimi baxmaqdır. Sənət insanı ölümə hazırlayacaqsa, onda din nə işə baxacaq? İnsanı ölüm qorxusuyla manipulyasiya edib öz həqiqətlərinə inandırmaq dinin strategiyasıdır".

Adalet.az xəbər verir ki, bunu yazıçı Aqşin Yenisey deyib.

O, bildirib ki, sənət insana bir anlıq da olsa ölümü unutdurmaq, onu dinin mənəvi işgəncəsindən müvəqqəti də olsa azad etmək cəhddir:

"Ağıllı insan qorxmuş yox, qorxudulmuş insandır. Qorxmaq ağıl yaratmır, bütün heyvanlar qorxur, ağlı yaradan qorxudulmaqdır. Qorxma aktı təhlükə anında yaranır və təhlükə keçdikdən sonra unudulur. Heyvanlarda bu mexanizm işləyir. Qorxudulmaq isə təhlükənin insan beyninə ömürlük transplantasiyasıdır.

Din qorxunun transplantasiya mərkəzidir, qorxunu donor olaraq təbiətdən alır və onu təbiətin övladının vücuduna köçürür.

Qorxudulmaq, emosional beyninin - amiqdalanın (mistiklərin ruh dediyi orqan) - qorxu hissi ilə mumiyalanmasıdır. Ağıl, ruhu, yaxud amiqdalası qorxu ilə mumiyalanmış insanın gizli həyatıdır. İnsan qorxunu bu gizli həyatıyla aşır və yaradıcılığın fantasmaqorik ərazilərinə daxil olur. Mağara divarına şəkillər qazıyan insan özünün ağlı, yəni gizli həyatıyla qorxunu aşan və yaradıcılığın fantasmaqorik ərzilərinə daxil olan ilk insan olmuşdur.

Burada onu xaosla nizamın, qarabasma ilə qroteskin, faciə ilə yumorun qarışığından yaranan fərqli bir gerçəklik gözləyirdi. Gerçəkliyin qroteskvari, yəni əyləncəli-xəyali şərhi sənətin zatındadır. Bu mənada Servantes Tarkovskidən daha mistikdir, çünki o, yaradıcılığın fantasmaqorik ərazilərinə daxil ola bilmişdi, Tarkovski isə gerçək dünyadakı yerindən tərpənmir, mistisizmi din onun evinə pay göndərir".

Vasif ƏLİHÜSEYN



Ramiz GÖYÜŞ
Yazıçı-publisist AYB-nin və AJB-nin üzvü

Ağamalı Sadiq Əfəndi: Mənim şeirlərim, mənim göz yaşım

Mənə elə gəlir ki, bir şair kimi Ağamalı Sadiqin yaradıcılığına qiymət vermək, onun poeziyamızda yerini və səviyyəsini müəyyənləşdirmək üçün onun ixtiyari bir şeirini oxumaq kifayət etmiş olar...

Xalqımıza görkəmli dövlət xaimləri, elm adamları, irfan şəxsiyyətlər bəxş etmiş İncə Dərəsi ölkəmizdə və onun hüdudlaından kənarda ən çox sazlı-sözlü insanları ilə məşhurdur. Əslən İncə dərəsindən idi Ağamalı Sadiq də... Azman şairimiz Akif Səməd yazırdı: "Aşıq Cəlalı, aşıq Avdını, İncə Dərəsini o kəşf eləmişdi. Bəli, qədim İncə Dərəsinin sazının fəlsəfəsini tapmışdı."

Ağamalı Sadiq yazılarının birində özü İncə dərəsini belə təqdim edirdi: "İncə dərəsi Azərbaycanın qədim qəzalarından olan Qazaxdan xeyli aralı, başı bəyaz şallı dağların ətəyində yerləşir. Bu dərə üç böyük kəndi - Asdanbəylini, Qaymaxlını və Kəmərlini özündə birləşdirir... İncə dağlarının qüzeyində quzular mələşər, güneyində bulaqlar söyləşər, ətəyində ərənlər güləşər... Və bu üç kəndin camaatı elə İncə dərəsindən aralanan kimi dönüb olarlar ancaq və ancaq incəli. Ta hansı kənddən, hansı məhəllədən olduğunu xırdalamağa ehtiyac qalmır. Mənimçün Azərbaycan elə burdan başlanır."

Ağamalı Sadiqlə bircə dəfə, uşaqlıq dostum, əmimi oğlu Nəsiminin vasitəsi ilə təmasda olmuşdum. Təpədən dırnağa, şeir dəlisi, saz həvəskarı olan, hərdən özü də maraqlı şeirlər yazan Nəsimi, Ağamalı Sadiq şəxsiyyətinin və yaradıcılığının vurğunu idi. Dəqiq yadımda deyil, deyəsən 80-ci illərin sonuna yaxın vaxtlarda, günlərin birində mənə dedi ki: "Ağamalı Sadiq İncə dərəsindədir. Görüşə məni də dəvət ediblər. Gəl gedək bir yerdə "... Tərəddüd etmədən razılaşdım. Məclis ətrafında görüşdük onunla. Tökmə bədənli, ciddi görkəmli, köhnə kişiləri xatırladan, lakin kövrək qəlbli, içi sözlə, havacatla, qımqımı ilə dolu olan bu kişi ilə bircə görüş məndə, onun haqqında bütün mənalarda son dərəcə maraqlı bir insan təsiri bağışlamışdı. Həmin məclisdə yaddaşımda qalan "Anama" şeirini də həmin gün şairin öz səsində eşitmişdim:

Biz altı uşaqdıq, qayğısız, qəmsiz.
Dünya da bizimlə yaşıd olardı.
Körpə nəfəsliydi köhnə nənnimiz.
Kökləyib könlünü bayatı üstə,
Anam sonbeşiyə layla çalardı...

...Fəsillər...fəsillər...nə yaman ötdü,
Bir-bir pərvazlanıb uçdu balalar,
Gah əsgər pencəyi geyməyə getdi,
Gah "Vağzalı" üstə köçdü balalar.
Balalar gəlmədi şəhərli oldu,
Yurdda ocaq yanır, yandıranı sən,
İntizar gözlərin ypollarda qaldı,
Yollar da uzandı axır deyəsən...

Nə qədər həyati bir şeir. Yaşanmış həzin xatirələrlə, kövrək hisslərlə qələmə alınmış bu şeirdə, şair "köhnə nənni", "bayatı", "ana laylası", "əsgər pencəyi", "Vağzalı" və digər ifadələri işlətməklə əslində kənddə yaşayan bir ailənin bütöv bir ömrünün poetik sələnməsini yaratmışdır...

Çox təəssüf ki, bu görüşdən başqa mənim onunla heç vaxt təmasım olmadı və indin bu yazı üzərində işləyəndə Ağamalı Sadiq haqqında fikirlərimi ifadə etmək üçün onun yaradıcılığı, haqqında eşitdiyim və oxuduğum xatirələr mənə bələdçilik etməli olacaq. Ağamalı Sadiq haqqında xatirələri, söhbətləri ən çox şair, rəssam və heykəltəraş, mərhum dostum Məmməd Dəmirçioğlundan eşitmişdim. Dəmirçioğlunun söhbətlərinin başlanğıcı da, sonu da Ağamalı Sadiq, Məmməd İlqar və Akif Səməd olardı. Ən çox xatırladığı da Ağamalı Sadiq idi: "Ağamalı Sadiq deyəndə, ilk olaraq İncə dərəsi, İncə dərəsi deyəndə, ilk olaraq Ağamalı Sadiq yada düşür...Məmməd İlqar içi qarışıq, əlinə qələm götürüb şeir yazan hər bir incəli onu özünə mürşüd sayıblar"... Sazlı-sözlu İncə dərəsinin yaradıcı adamlarının əksəriyyətinin yaradıcılığı haqqında araşdırmalar aparmış, məqalələr yazmışam. Bu bölgənin yaradıcılıq mühitinə yaxından bələdəm. Ancaq İncəli şairlərin Mürşidi sayılan Ağamalı Sadiq haqqında indiyədək yazı yazmamışdım. Bəlkə də çürət etməmişdim... Gələn ilin martında Ağamalı Sadiqin 80 yaşı tamam olur. Eşitdim ki, onun "müridləri", başda şair Mahmud Vəli olmaqla bu əlamətdar günə bir toplu hazırlamaq istəyirlər. Dostum Mahmud Vəlinin təklifi ürəyimcə oldu. Deməli məqam indi imiş.

Və budur, Ağamalı Sadiqin ölümündən bir il sonra nəşr olunan, 83 şeiri və bir poeması toplanmış "qara cildli" "Əyil səndən keçim dünya" adlı şeirlər kitabı xeyli vaxtdır ki, yazı masamın üzərindədir. Şeirləri təkrara-təkrar oxuyuram və oxuduqca böyük istedad və poetik qüdrət sahibi olan bu kişinin vaxtsız gedişinə min dəfə təəssüf edirəm. Kim idi Ağamalı Sadiq Əfəndi? Qara cildli kitaba "Ön söz yerinə doct sözü" yazmış şairin dostu Akif Səməd yazırdı: "Ağamalı bəyin ömrü qırılmadı yarıda. Şamıydı, əridi. Əridi-söndü. "Qırmızı qaranlığı" əritmək üçün əlindən gələni etdi"...

Sözsüz ki, Ağamalı Sadiq Azərbaycanın müstəqillik dövr tarixinə, xalqımızın yaddaşına həm bir dissident şair- yazıçı kimi, həm milli azadlıq hərəkatının təşkilatçılarından və öncüllərindən biri kimi, həm müstəqil Azərbaycan mətbuatının (həm də müxalif mətbuatın) əsasını qoyanlardan biri kimi, həm də alovlu publisist kimi daxil olub. Ancaq bu yazıda mən onu mənim dərk etdiyim və başa düşdüyüm bir şair kimi incələmək istəyirəm.

Maraqlı odur ki, müəllifin hər bir şeiri ayrıca bir təhlilin mövzusudur. Ancaq təəssüf ki, mən bu kiçik yazıda o imkandan məhrumam və istəyirəm fikirlərimi onu bir neçə şeirinə münasibətimi bildirməklə kifayətlənim. Sözsüz ki, ilk diqqətimi çəkən də onun dillər əzbəri olan "Əyil səndən keçim dünya" şeiri oldu. Şeir dünyaya qarşı qəzəb və nifrət saçan, son dərəcə sərt və üsyankar poetik ifadələrlə başlayır və elə birinci sətrlərdən oxucunu öz cazibə qüvvəsinə salır:

Dünya sənin anan ölsün,
Bic oğlu, bic dünyasanmış.
Hayıf mənim göz yaşıma,
Sən ki, gülünc dünyasanmış.

Çırpındım uça bilmədim
Barından keçə bilmədim
Elə qapıların oldu,
Qılıqsız keçə bilmədim,
Anan olsun, gidi dünya.

Şeirin nümunə gətirdiyim bu iki bəndində müəllif canlı xalq danışıq dilindən və ifadələrindən məharətlə istifadə edərək dünyaya itehza ilə, sərt və ironik şəkildə müraciət edir və ona üsyan edir. Əslində bu üsyan müəllifin cəmiyyətdə kök salmış yaltaqlıq, biclik, hiyləgərlik kimi insan münasibətlərinə şairin etirazının və çağırışının poetik ifadəsi idi. Şeirin finalı daha maraqlı və heyrətamizdir, oxucunu düşünməyə vadar edir, mübarizəyə, ölümsüzlüyə səsləyir. Həmin misralara diqqət yetirək:

Bundan anrı ucalım yox,
Dayanmağa macalım yox,
Yüz dəfə öldüm, dirildim,
Mən Adəməm acalım yox
Əyil, səndən keçim, dünya.

"Əyil səndən keçim dünya" misrası isə şeirin kuliminasiya məqamıdır. Bu ifadə müəllifin, şeirin qəhrəmanından dünyanın qarşısında dayanmaq deyil, onu aşmaq, onun maneələrini dəf etmək tələbidir. Müəllif, yüz dəfə ölüb-dirildiyini söyləyən insanın əcəlinin olmadığını bəyan edir. Bu, fiziki ölümsüzlük iddiasından çox, insan ruhunun yenilməzliyinin poetik ifadəsidir.

Şeirin bu sonluğu dünyaya qarşı üsyanla yanaşı, həm də insanın öz ömrü və taleyi üzərində mənəvi hökmranlıq arzusunu da ifadə edir.

Ağamalı Sadiq Əfəndinin şeirlərini oxuduqca yaşantılarını, ağrı və acılarını, hiss və hyacanlarını duymamaq üçün kərək daş olasan. Əslində bu şeirlərin hər biri müəllifin poetik tərcümeyi - halıdır. Diqqət yetirin onun, gənclik dostu, əqidə və qələm yoldaşı şair Məmməd İlqara xitabən yazdığı şeirə. Həmin şeiri kiçicik ixtisarla dəyərli oxucuların diqqətinə çatdırmaq istəyirəm:

İşdi, bir gün məni səndən sorsalar
De ki, o da yandığını yazardı.
De ki, onu alıb getdi ruzigar,
O hardasa indi bir tək məzardı.


De ki, o da belə, bir cür adamdı,
Qohum-qardaş susamışdı qanına.
De ki, bir gün bu dünyaya sığmadı,
Uçub getdi yaradanın yanına.

De, yurdunda yalqız idi o qərib,
Damağında doğma torpaq, daş dadı.
De hardasa məzarından göyərib,
Bəlkə yenə yaşamağa başladı.

Ağamalı Sadiqin sənətkarlıq və poetik qüdrəti bu 48 illik keşməkeşlərlə və mübarizələrlə dolu kişi ömrünü, əzablı şair ömrünü bu şeirə sığışdıra bilib. Yazdıqlarının hamısını yandığından yazırdı. Özünü Simurq quşu kimi oda çırparaq məqsədinə çatmaq üçün, bu odda da yana-yana yazdı:

Mənim sözüm adam sözü, el sözü,
El oxuyar, elə qurban olum mən.
Kəlmə-kəlmə yelə verin, yandırın,
Yel oxuyar, yelə qurban olum mən.

Ağamalı Sadiqin bütün müasirləri, onunla təmasda olan, onu tanıyan hər kəs bilirdi ki, o çox gözəl saz çalır və aşıq havalarını da xüsusi bir şövqlə və özünəməxsusu məlahətlə oxuyurdu. Şairin dostu, sazı dilləndirməkdə heç də Ağamalı Sadiqdən geri qalmayan mərhum dostumuz Məmməd Dəmirçioğlu yazırdı: " Qəribə saz çalıb-oxumağı var idi. Çox ustad aşıqlara qulaq asıb, heyranlıqla sazın sehrinə düşüb, tilsimləndiyim anlarım çox olmuşdu. Ancaq heç bir ustad aşıq, hec bir saz havacatı Ağamalı Sadiqin eş-



qindən süzülən sirlər, sehirlər qədər məni ovsunlaya bilməmişdi. Nəsə, başqa cür çalıb-oxuyurdu o". Ağamalı Sadiq Əfəndinin folklorumuza, saz alətinə, aşıq havalarına olan qeyri-adi münasibətini dəyərli oxucularımıza çatdırmaq üçün mən yenə də azman şairimiz Akif Səmədə istinad etməli oluram: "Sazı sanki əjdaha ağzından qapmışdı, balası kimi oxşayırdı. Özü də saza oxşayırdı, dərddən qapqara yanmışdı. İncə qımqımısını saza o gətirmişdi, Aşıq Avdının İncəgülündən sonra sazda qımqımı adlı bənövşə bitirmişdi". "Mənim dərdim özgə dildə oxunmaz, oxu aşıq oxu mənim dərdimi"- deyirdi. Elə ona görə də Ağamalı Sadiq Əfəndinin şeirlərinin bir çoxu saz üstə köklənib. Onun şeirlərinin kökü, mayası folklorumuzdan, xalqın adət ənənəsindən, etnik yaddaşından qaynaqlanır. Bu baxımdan onun Şəhriyar sayağı və "Heydər Baba müəllifinə" epiqrafı ilə yazdığı "Baba yurdu" şeiri son dərəcə maraqlı və cəlbedicidir.

Hörmətli oxucu! Həmin şeirdən bu yazıya daxil etdiyim ikicə bəndi oxuyanda mənim dediklərimə əmin olacaqsınız:

Baba yurdu, yadındamı o çağlar,
Qoynun açıb çağırardı yaylaqlar,
Arabalar yüklənərdi o ki var,
Ağ vedrələr asılardı cağlara,
Hay-harayla köç gedərdi dağlara.

Gün batardı, Ayı bulud alardı
Yerlər inlər, göylər "cəngi" çalardı,
Sona inək örüşlərdə qalardı,
Qarı nənəm bağlayardı qurdağzı,
Titrəyərdi namazının avazı.

Şeirləri oxuduqca adamın içində bir oxşama, saz havası, bir qımqımı baş qaldırır.

Nə vaxtsa yaddaşıma yazılıb qalmış, "Qaraçı" havasına yazılmış aşağıdakı misralarda Ona məxsusudur:

Ayə "Qaraçı" çal başına dönüm,
Ayə "El havası"- "Qaraçı" dedim.
Ayə "Qaraçı" çal məcnunluq edim,
Qaraçı köçünə qarışım gedim.
Ayə elə çaldın "El havası"nı,
Demədin bu yazıq dəli-zad olar,
Qurbannan, Abbasdan bir ağız da de,
Dədə Qorqudun da ruhu şad olar.

Qəribədir, onun ictimai məzmun kəsb edən şeirləri nə qədər sərt və üsyankardısa, aşaq havaları üstə yazdığı şeirləri sön dərəcə kövrək və təsirlidir. Oxucuların diqqətini şairin bu qəbildən olan şeirlərindən birinə - "Aman aşıq bir hava çal" şeirinə cəlb etmək istəyirəm:

Duman gəldi bu dağları bürüdü,
Bulaqları bizə həsrət qurudu.
Gözüm qannı, göz yaşlarım qurudu,
Aman aşıq, bir hava çal ağlayım...

...Cavanlığım axdı getdi sularda,
Durnalarla geri dönməz baharda.
Qaranquşlar yuva salmır şəhərdə.
Aman aşıq, bir hava şal ağlayım.

Şeirdə misralara diqqət yetirdikcə aydın olur ki, müəllif bədii təsvir vasitələrindən məharətlə istifadə edərək, ağlamaq istəyən, lakin göz yaşları qurumuş insan obrazının emosional zirvəsini ifadə edə bilib. Aşığa müraciət isə təsadüfi deyil və aşıqın sazı burada insanın sözlə ifadə edə bilmədiyi dərdin dilinə çevrilir. Şeir sanki sazın dili ilə ağlamaq istəyən insanın daxili monoloquna çevrilir.

Ağamalı Sadiq Əfəndinin dillər əzbəri olan, son dərəcə həyacan doğuran, insanı düşünməyə vadar edən, qeyri-adi poezya nümunəsi hesab etdiyim "Ağaclar qorxudan əyri göyərir" şeiri üzərində də daynmağı lazım bildim:

...Bir qozbel kişiyə qalb bir meşə,
Ağacın düzünü kəsib aparır.
Baltalar endikcə içim göynəyir,
Sanki gözlərimi oyurlar ana,
Düz ağac Nəsimi dönməzliyidir,
Soyurlar dönməzi soyurlar ana,
Kəsirlər aranda, dağda, meşədə,
Bütün qozbellərin əli baltalı
Bütün əyrilərin canı şüşədə...

Şeirdə "qozbel", " meşə", "ağac" kimi obrazlar əslində cəmiyyətdə baş verən proseslərə işarə olaraq yazılmışdır, poetik kəşfdir və şairin qeyri - adi istedadından xəbər verir. Müəllifin 1980-ci ildə qələmə aldığı bu misralar, zahirən təbiətin məhvindən bəhs etsə də, şeirin alt qatında əslində cəmiyyətin mənəvi aşınmasını ifşa edən, özündə dərin ictimai-siyasi və fəlsəfi fikirləri ehtiva edən güclü bir poeziya nümunəsidir.

Diqqət yetirək şeirin finalına:
Bir dünya uyuyur bu keşməkeşə,
Torpaq günahkarmı, yer günahkarmı?
Bir qozbel kişiyə qalıb bir meşə,
Ağaclar qorxudan əyri göyərir,
Görən bu torpağın sahibi varmı?
Görən bu millətin yiyəsi varmı?

Ağamalı Sadiqin bu əsəri sadəcə bir meşənin qırılması deyil, haqq-ədalətin, ləyaqətin və dürüstlüyün kökünün kəsilməsi haqqındadır. Şair cəmiyyəti xəbərdar edir: qozbellərin qarşısını almasaq, əgər düzləri qorumasaq, gələcək nəsillər "qorxudan əyri böyüyəcək" və bütün meşə (cəmiyyət) qozbellərin ixtiyarına qalacaq.

Ağamalı Sadiq mənşə etibarı ilə şair idi. Lakin siyasi mübarizə, Azərbaycanın müstəqilliyi, xalqın güzaranı, haqq -ədalət uğrunda savaş onun həyat amalı idi. Yaradıcılığının xeyli hissəsini də bu amalları özündə ehtiva edən şeirlər təşkil edir.

Həyatda ölüm var, ölümdə həyat
Ölərəm, odumda, külümdə həyat.
Qəbrimin üstündə çinarlar bitər,
Təzədən daşınar belimdə həyat
Görərsən hardasa vuruşdayam mən...

Yer adamı deyildi, Ağamalı Sadiq Əfəndi. Göydən gəlmişdi. Cəmi 48 il Yerdə yaşadı." Bu dünyaya sığışmadı". "Yetimişi addadım otuz beş yaşda", "Tələsmək lazımdı, bir az tələsmək"- deyirdi:

..Xal düşür səfinə yaşıdlarımın,
Qapımın ağzında ulayır külək.
Gördüm bu dünyanın etibarını,
Tələsmək lazımdır, bir az tələsmək...

Ürəyim titrəyir sözün üstündə,
Elə korun-korun əriyirəm mən...
Hamını ovutdum saz çala-çala,
Özümü bir yana yoza bilmədim.
Yaxşı ki, qarşıda qarlı dağlar var,
Yaxşı ki, çalxanır sinəmdə ürək,
Arxamca əlini yelləndi bahar.
Tələsmək lazımdı, bir az tələsmək.

Ruhu göylərə çəkildi. "Uçub getdi yaradanın yanına". Cismi isə hər yaz gələndə məzarının üzərində baş qaldıran göy otlar, çiçəklər kimi şeirləri ilə müridlərinin, onu sevənlərin səsində, nəfəsində, söz-söhbətlərində, cücərir, çiçəkləyir , yarpaqlayır, gül açır, bar verir. "...məzarından göyərib, yenə yaşamağa başlayır".



Nicat KOLAN

SULARDA BİTƏN ÖMÜR...

(Hekayə)

Qorabişirən yay günlərinin sonları idi. Artıq yeni dərs ilinin başlamasına sayılı günlər qalırdı. O da yaşıdları kimi məktəbə qayıdacağı günü böyük həvəslə gözləyirdi. Dəftər-qələmini, məktəb çantasını böyük həvəslə hazırlamış, səliqə ilə ütülənmiş məktəbli formasını paltar dolabından asmışdı. Hər şey öz qaydasında idi. Bircə məktəbin açılması qalmışdı...

Tətil günlərində sinif yoldaşlarından ayrı düşmüşdü. Onlarla yenidən görüşməyə, yay boyunca gördüklərini, yaşadıqlarını bölüşməyə tələsirdi. Yəqin ki, dostlarına danışacağı xeyli sözü, bölüşəcəyi maraqlı xatirələri vardı. Bir yeniyetmənin ürəyində nə qədər arzu, nə qədər sevinc ola bilərdisə, onun da ürəyi elə həmin arzularla döyünürdü. Sentyabr ayında doğum gününü də qeyd edəcəkdi. On üç yaşı tamam olacaqdı...

On üç yaş... İnsan ömrünün ən qayğısız, ən işıqlı çağlarından biri. Dünyanın ağrı-acısından xəbərsiz, sabahın bu gündən daha gözəl olacağına inanan bir uşağın yaşı. Qarşıda onu gözləyən neçə-neçə dərs ili, açılmamış kitablar, yazılmamış dəftərlər, gerçəkləşməmiş arzular vardı. O da bütün yaşıdları kimi böyük arzularla gələcəyə boylanırdı. Hələ həyatın ona nələr yaşadacağından xəbərsiz idi.

Ad gününə hələ bir neçə gün qalsa da, o, böyük həyəcanla həmin günü gözləyir, tez-tez təqvimə baxırdı. Bir gün anası onun bu həyəcanını görüb təbəssümlə soruşdu:

- Oğlum, ad günündə neçə yaşın olacaq?

O, uşaq sevincilə, sanki böyüməyə bir addım da yaxınlaşdığı üçün fərəhlənərək cavab verdi:

- On üç yaşım tamam olacaq, ana. Daha bir yaş böyüyürəm!

Anası gülümsəyib onun saçlarını sığalladı. Bəlkə də ana üçün o, həmişə balaca uşağı olaraq qalacaqdı. Amma oğlunun ürəyində böyüməyə, həyatı tanımağa, gələcəyə doğru tələsməyə böyük bir həvəs vardı.

Nəhayət, səbirsizliklə gözlədiyi gün - sentyabrın biri yetişdi. Böyük həvəslə məktəbli paltarını geyinib evdən çıxdı. Məktəb evlərindən çox da uzaq deyildi. Qonşu uşaqlara qoşulub tədris ocağına, qarşıda onu gözləyən yeni günlərə doğru addımladı...

İlk dərs günü çoxdan görmədiyi sinif yoldaşları və müəllimləri ilə görüşdü. Müəllimləri onu çox sevirdilər. Yaxşı oxuması, istiqanlılığı, mehriban davranışı ilə həm müəllimlərinin, həm də sinif yoldaşlarının sevgisini qazanmışdı. Tətil günlərində yaşadıqlarını, gördüklərini böyük həvəslə tənəffüs vaxtı dostlarına danışır, onların da yay təəssüratlarını maraqla dinləyirdi. Məktəb yenidən öz əvvəlki səs-küyünə, uşaq gülüşlərinə qovuşmuşdu...

Sentyabrın altısı gəlib çatdı. Onun on üç yaşı tamam olurdu. Atası ilk övladının bu özəl gününü yaddaqalan etmək istəyirdi. Ona gözəl bir qol saatı hədiyyə etdi.

- Ad günün mübarək, oğlum! Bu saatı sənə ona görə almışam ki, vaxtının qədrini biləsən. Hər keçən dəqiqə səni arzularına bir addım yaxınlaşdırsın.

O, saatı sevincək qoluna taxıb atasına baxdı:

- Ata, mən də böyüyəndə sənin kimi həkim olacağam. İnsanları sağaldacağam.

Atası oğlunun bu sözlərindən məmnunluqla gülümsədi:

- İnanıram ki, olacaqsan, oğlum. Sənə böyük ümidlərim var. Əminəm ki, məndən də yaxşı həkim olacaqsan. Əsas odur ki, yaxşı insan olmağı heç vaxt unutmayasan...

O, atasının sözlərini böyük bir sevinc və qürurla dinləyirdi. Hələ bilmirdi ki, bu saat onun qolunda cəmi iki gün qalacaq, atasının onun gələcəyi ilə bağlı qurduğu arzular isə bir daha gerçəkləşməyəcək...

Ad günündən cəmi iki gün keçmişdi. Sentyabrın səkkizi idi. On üç yaşının sevincini hələ ürəyində yaşadan yeniyetmə əmisinin yaşadığı kəndə qonaq getmişdi. Həmin gün əmisi və digər üç uşaqla birlikdə göl sahilinə gəzməyə yollandılar. Heç kimin ağlına gəlməzdi ki, bu adi gəzinti bir neçə dəqiqə sonra həyatlarının ən ağır xatirəsinə çevriləcək...

Sahil boyu uşaqların şən səsləri eşidilirdi. Hər şey öz axarında idi. Ta ki, uşaqlardan biri qəfil sürüşərək suya düşənədək...

Bir anın içində şənlik vahiməyə, qayğısızlıq qorxuya çevrildi. Suda çabalayan uşağın köməyə ehtiyacı vardı. O, heç düşünmədən özünü suya atdı. Çünki həmin an onun üçün hər şeydən vacib olan suda boğulan uşağın həyatını xilas etmək idi. Uşağı xilas etdi. Bir ailəyə övladını, bir anaya balasını qaytardı. Amma özü geri dönmədi...

O, suyun qoynunda yaşamaq uğrunda mübarizə aparırdı. Bəlkə də son ana qədər sahilə çıxacağına, yenidən doğmalarının yanına qayıdacağına ümid edirdi. Amansız sular onu sahilə qovuşmağa qoymadı...

Onun cansız bədənini sudan çıxaranda qolundakı saat hələ də işləyirdi. Əqrəblər öz axarı ilə irəliləyir, zamanın dayanmadan keçdiyini göstərirdi. Lakin sahibinin ömrü əbədi olaraq yarımçıq qalmışdı...

Bu xəbər ata-anasının dünyasını başına yıxdı. Bir neçə gün əvvəl on üç yaşını qeyd edən, gələcəklə bağlı arzular quran, böyüyüb atasının yolunu davam etdirmək istəyən övladları artıq həyatda yox idi. Kaş onu həmin gün yola salmayaydılar, kaş bu səfərin qarşısını ala biləydilər... Nə ata-ananın peşmanlığı, nə də göz yaşları zamanı geri qaytara bilməzdi. Onların qəlbində ömürlük bir övlad nisgili qalacaqdı...

Onun həyatı faciə ilə bitsə də, göstərdiyi qəhrəmanlıq unudulmadı. Bir uşağın həyatını xilas etmək üçün öz canından keçən bu yeniyetmənin adı yaşadığı el-obada hörmətlə anıldı. Vaxtilə təhsil aldığı məktəbə onun adı verildi. Məktəbin qapısında indi böyük hərflərlə onun adı yazılmışdı. O, arzularına çatmaq, böyümək, həkim olmaq istəyirdi. Amansız ölüm buna imkan vermədi...

Uşaqlıq arzuları yarımçıq qalan həmin yeniyetmənin ruhu indi adını daşıyan məktəbin dəhlizlərində, sinif otaqlarında dolaşırdı.

Onun məzarını ziyarət edənlər isə başdaşına həkk olunmuş misraları oxuyaraq cəmi on üç yaşında bir ömrün necə yarımçıq qaldığını, eyni zamanda, bir insan həyatını xilas etmək üçün göstərilən böyük fədakarlığı anlayırlar. Bu misralar onun necə cəsur, fədakar bir insan olduğunu gələcək nəsillərə çatdırır...

Yenicə çatmışdım mən on dörd yaşa,
Ömrümün yelkəni toxundu daşa.
Əlim də çatmadı qohum-qardaşa,
Aldı ağuşuna dalğalar məni.

Ölümün qoynuna atıldım ki, mən,
Qurtulsun sularda can verib ölən.
Bütün ixtiyarım getdi əlimdən,
Yaşadar ellərdə etibar məni.

Başdaşındakı gülərüz portret və üzərində yazılmış "Sədrəddin Soltan oğlu Bayramov" adı onun kimliyini ziyarətə gələn hər kəsə xatırladırdı. Bir vaxtlar böyüməyə tələsən, arzuları yarımçıq qalan bir uşağın adı indi yaddaşlara əbədi həkk olunmuşdu... Onun ömrünü sular aldı, amma adını, qəhrəmanlığını və xatirəsini zamanın dalğaları belə silə bilmədi...

AĞDAM SƏMASINDA DOLAŞAN RUHLAR

Bu gün minlərlə şəhidin doğma yurdu Ağdam azaddır! Bir zamanlar amansız dağıntılara məruz qalaraq acısı sərhədlərə sığmayan, "Qafqazın Xirosiması" adını almış bu qədim Azərbaycan şəhəri artıq yenidən doğulur. Xarabalıqların üzərində yeni ocaqlar çatılır, bu müqəddəs torpaqdan gələcəyə ünvanlanan quruculuq səsi ucalır. Yenidən göylərə yüksələn azan səsi ilə Ağdamın yaraları sağalır, şəhərin qüruru, vüqarı və əzəməti bərpa olunur.

Bu gün Ağdamın səmasında yalnız quruculuğun sevinci deyil, həm də keçmişin xatirələri dolaşır. Sanki bu torpağın hər qarışında izi qalan, elin hörmətini qazanmış ağsaqqalların, zəhmətkeş insanların, Vətənə bağlı kişilərin Ağdam səmasında dolaşan ruhları doğma yurdun dirçəlişinə tamaşa edir. Onların bir vaxtlar qurub-yaratdıqları, sevdikləri Ağdamın yenidən dirçəlməsi narahat ruhlara sevinc bəxş edir.

Ağdam səmasında ruhu dolaşan belə unudulmaz insanlardan biri də Qarabağda böyük bir nəslin nümayəndəsi olaraq bütün mənalı ömrünü Vətən övladlarının təhsil almasına sərf etmiş, müdrik ağsaqqallığı ilə insanların yaddaşına həkk olunmuş, ölümündən sonra külli-Qarabağın rəhmətini qazanmış, 110 illik yubileyi ehtiramla qeyd olunan Böyük Vətən müharibəsi iştirakçısı, ömrünü müəllimliyə və ictimai fəaliyyətə həsr etmiş Zülfüqar Səfərəliyevdir.

Bu gün Zülfüqar Səfərəliyev kimi müdrik insanları xatırlamağı özümüzə mənəvi borc bildik. El-obada böyük nüfuz sahibi olan bu cür müdriklərin ömür yoluna işıq salaraq haqqında xoş sözlər söyləmək, əslində, Ağdam kimi əzəmətli bir elin yaddaşında iz qoymuş insanların irsinə dərin ehtiram göstərməkdir.

Bəzi insanlar var ki, onların böyüklüyü tutduqları mövqe ilə deyil, malik olduqlarıı hörmətlə, insanlara qayğı mərhəməti ilə qazandıqları el sevgisi ilə ölçülür. Zülfüqar Səfərəliyev də məhz belə şəxsiyyətlərdən biri olub. O, təhsil sistemində rəhbər şəxs, fədakar müəllim kimi neçə-neçə insanın həyat yoluna işıq salıb, fəal ictimaiyyətçi kimi el-obasının qayğıları ilə yaşayıb, ağsaqqal kimi sözü, məsləhəti və müdrikliyi ilə insanların rəğbətini qazanıb. İnsanlarla, tabeçiliyində olan müəllim və işçilərlə davranışında zəngin mənəvi-əxlaqi dəyərlərlə nümayiş etdirdiyi nəzakət və nəcabət onu hər zaman uca tutub.


Zülfüqar müəllimə pənah gətirən insanlar heç bir zaman naümid geri dönməyib, o, əlindən gələn köməkliyi heç vaxt əsirgəməyib. Xeyir-şərdən qalmayan bu el adamı məclislərə ağsaqqallıq edib. Ağdam kimi milli-mənəvi və İslam dəyərlərinə həssaslıqla yanaşılan, dəli-dolu övladları ilə seçilən bir rayonda bəzən "birinci" sayılan rəsmilərin aciz qaldığı müşküllərin həllində Zülfüqar müəllim kimi ağsaqqalın adı, onun gəlişi və bir kəlmə sözü kifayət edib.

Onun mənalı ömür yolu bir xalqın zəhmətkeşlik, mərdlik, vətənpərvərlik və mənəvi bütövlük kimi ali dəyərlərinin təcəssümüdür. Alman faşizmi ilə mübarizədə Böyük Vətən müharibəsinin ağır sınaqlarından keçmək, Vətənə və insanlığa sədaqətlə xidmət etmək hər kəsə nəsib olmayan bir tale, böyük iradə və dözüm tələb edən həyat məktəbidir. Zülfüqar Səfərəliyev məhz bu həyat məktəbinin yetirməsi kimi ömrünü mənalı əməllərlə zənginləşdirib.

Heç vaxt təvazökarlığını, sadəliyini və yüksək insani keyfiyyətlərini itirməyən Zülfüqar Səfərəliyev üçün müəllimlik sadəcə bir peşə deyildi. Pedaqoji fəaliyyət Zülfüqar müəllim üçün gələcək nəsillərin taleyinə məsuliyyətlə yanaşmaq, insanlara elm və bilik aşılamaq, bütövlükdə Azərbaycana xidmət missiyası idi.

Zülfüqar müəllimin ictimai fəaliyyəti isə onun bütün varlığını Seyyid Lazım Ağalı, Qədirli, Rəmişli doğma Ağdamın həyatına bağlamışdı, onu elin dərdini öz dərdi, sevincini öz sevinci bilən bir şəxsiyyət kimi tanıtmışdı.

Zülfüqar Səfərəliyev həyatının ən dəyərli səhifələrindən biri də Vətənə layiqli altı övlad böyütməsi idi. Altı övladın tərbiyəsi, onların cəmiyyətə faydalı, xalqa və torpağa bağlı insanlar kimi yetişdirilməsi böyük zəhmət, səbir və məsuliyyət tələb etmişdi. Bu, yalnız bir atanın ailəsi qarşısında deyil, bütövlükdə cəmiyyət və Vətən qarşısında daşıdığı mənəvi borcun şərəfli ifadəsi idi. Zülfüqar Səfərəliyev Avropaya qədər ağır döyüş yolu keçərək Böyük Vətən müharibəsinin ağır sınaqlarından çıxmış bir insan kimi o, Vətənin qədrini, mərdliyin, dözümün və insan ləyaqətinin əhəmiyyətini dərindən bilirdi. Bu dəyərlərin ailədə qorunması və gələcək nəslə ötürülməsi onun ata kimi mənəvi ucalığını səciyyələndirən əsas cəhətlərdən idi.



Ailədə kişi xasiyyətli ər, tələbkar və mərhəmətli ata, kövrək və mülayim baba, doğmalığı ilə seçilən qaynata, istiqanlı, qayğıkeş qohum kimi tanınan Zülfüqar müəllim bu gün də onu tanıyanların xatirəsində ən xoş duyğularla yaşayır. Ən başlıcası isə Vətənə gərəkli vətəndaş kimi yrtişdirdiyi övladları bu gün öz xeyirxah əməlləri ilə atalarının ruhuna rəhmət oxutdururlar.

Bu bir həqiqətdir ki, ağsaqqallıq insanın yaşadığı illərin çoxluğu deyil, ömrün müdrikliyə çevrilməsidir. Tam səmimiyyətlə qeyd edə bilərik ki, Zülfüqar Səfərəliyevin adı da məhz bu müdrikliyin, el sevgisinin və insanlıq ucalığının rəmzi kimi xatırlanmağa layiqdir. Belə insanlar yaşadıqları dövrün mənəvi dayağı, ailələrin və cəmiyyətin etibar ünvanı olurlar. Onların söylədiyi bir kəlmə nəsihət, göstərdiyi hər nümunə gələcək nəsillər üçün əsl həyat dərsinə çevrilir.

Bu gün azad Ağdamın səmasında qürurla dalğalanan Azərbaycan Bayrağı, doğma yurdda yenidən qurulan həyat, gələcəyə inamla baxan insanlar həm də bir vaxtlar bu torpağın sabahına ürəkdən inananların arzularını yaşadır. Zülfüqar Səfərəliyev kimi insanların mənəvi irsi də həmin arzuların davamıdır.

Onlar zamanın arxasında qalmır, xeyirxah əməlləri ilə elin yaddaşında yaşayır, övladlarının və gələcək nəsillərin həyatında öz ömürlərinin davamını tapırlar.

20 Noyabr - Ağdam Şəhəri Günü ərəfəsində Ağdamın el ağsaqqalı Zülfüqar Səfərəliyevin 110 illik yubileyi münasibətilə onun əziz xatirəsini dərin ehtiramla yad edirik. Zülfüqar müəllimin şərəfli ömür yolunu, pedaqoji fəaliyyətini, ictimai xidmətlərini və Vətənə layiqli altı övlad bəxş edən ata missiyasını minnətdarlıqla anırıq.

Qoy azad Ağdamın hər yeni səhəri bu torpağın dəyərli övladlarının xatirəsinə ehtiramın, onların arzuladığı firavan gələcəyin və xalqımızın sarsılmaz ruhunun rəmzinə çevrilsin!

Hilmət Xudiyev (Cəmilzadə)
Əməkdar jurnalist



Vaqif YUSİFLİ
Filologiya elmləri doktoru

"NƏFS" ROMANI HAQQINDA

Ərəb sözü olan nəfs dilimizdə bir çox mənaları özündə əks etdirir: ehtiras, şiddətli istək, tamah, tamahkarlıq, şəhvətə meyl. Bir çox mənfi mənaları ifadə edən bu sözün bədii ədəbiyyatda da işlənməsi təbii idi. Ehtirasa, təmahkarlığa meyl edən insanlara nəfsani demişlər. Məsələn, Hüseyn Cavidin "Şeyx Sənan" pyesində əsərin qəhrəmanı deyir ki: "Mənə biganə zövqi-nəfsani, Sevdiyim yalnız eşqi-ruhani". Tanış olduğumuz nəsr əsərlərində, şeirlərdə, dram əsərlərində də biz tez-tez nəfsani obrazlarla qarşılaşmışıq.

Yazıçı-publisist Zemfira Məhərrəmli "Nəfs" romanında ("Qanun" nəşriyyatı, 2026) məhz nəfsani insanların - onların əməllərinin cəmiyyətdə, insanlar arasında, ailələrdə necə fəsadlar törətdiyini qələmə alıb. Romanda bir neçə xətt var ki, bunlar bir-biri ilə çulğaşaraq nəfsin-tamahkarlığın mənəvi təmizlik, sevgi üzərində kabus kimi dolandığının şahidi oluruq. Nəfs insana məxsusdur, onu öz içində, daxili aləmində boğa bilmirsənsə, deməli, istər-istəməz bəd əməllər, pis niyyətlər carçısı olacaqsan. Amma bu da məlum həqiqətdir ki, nəfsini ram etməyən adamların gec-tez maddi və mənəvi uğursuzluğu, canlı ikən ölülüyü naçılmazdır. Zemfira xanımın "Nəfs" romanı da məhz bu ideyanı reallaşdırır.

Roman bir sevgi "dastanı"nın kədərli anları ilə başlayır. "Həm zahirən, həm də mənən, sözün həqiqi mənasında gözəl xanım, əsl ziyalı, sədaqətli həyat yoldaşı, qayğıkeş, mehriban ana və hamının bəyəndiyi nəcib bir insan" olan Aynurun təşviş və həyəcanları əbəs deyil. Onun əri Pərviz evə gəlmir və məlum olur ki, o, Nura adlı bir qadınla yaşayır və hətta ondan bir uşağı da dünyaya gəlib. Halbuki, Aynurla Pərvizin məhəbbəti necə romantik necə saf və ülvi idi. Bir payız günündə onlar öz sevgilərinin baharını yaşayırdılar: "Bizim payızımız bütün fəsillərin ən gözəliymiş" deyən Aynur sevdiyi gəncin qolundan tutub ona sığınmışdı. Pıçıltı ilə danışırdı: "Bizi görüşdürən payızın yağmuru da, çiskini də gözəldi. Hələ bərq vuran qızılı payız günəşini demirəm.. Məncə, payız aşiq olmuş, bənizi qaçmış bahardı"... Sevgi dünyasında uçmağa bircə qanadları çatmırdı. Az qala məhəbbətin təmiz, qara buludlar olmayan səmasında pərvaz edirdilər. Necə oldu? Harda itdi sevgi dolu o günlər?".

Doğrudan da bu romantik, əsl sevgi macərasını xatırladan, bir ailə səadətinin başlanğıcına səbəb olan "dastan" niyə kədərli anlara çevirilir? Niyə ər xəyanəti qəlbi sevgi ilə dolu bir qadının isti ocağını külə döndərir? Axı, evlilik iki nəfərin bir-birinə deyil, bir səmtə baxmasıdır. Yunan filosovu Siseron deyib ki: "Evlilik insan cəmiyyətinin birinci pilləsidir". Məgər ər ilə arvadın xəmiri bir yerdə yoğrulmamışmı?

Bütün bu sualların cavabı romanda tədricən, ardıcıl şəkildə izah olunur. Və burada NƏFS deyilən o şeytanın insan qəlbinə necə girib onu tamam başqa bir səmtə yönəltdiyinin şahidi oluruq. Pərviz Aynura xəyanət edir. Burada iki səbəb axtarırıq. Pərviz elə bir ailədə böyümüşdür ki, atası anasını söyür, uşaqlarına əzab verir, onları aşağılayır, sərxoşluq edir, əxlaqsızlığa yuvarlanır. Beləliklə, atanın hərəkətləri övladlarına də təsirsiz qalmır. Təbii ki, Pərviz o "sevgi dastanını" başlayandan sonra hardasa gendən gələn bu nəfs onu da öz cənginə keçirəcəymiş... İkinci səbəb isə var-dövlət hərisliyi, pulun insan ürəyini belə fəth etməsidir. Pulun cəmiyyətdə, insan həyatında necə müdhiş bir rol oynadığı, insanı insanlıqdan məhrum etməsi ilə bağlı bizim poeziyada, nəsr əsərlərində kifayət qədər bədii nümunələrlə rastlaşırıq. Mirzə Ələkbər Sabirin "Adəmi adəm eləyən paradır, Parasız adəmin üzü qaradır" məşhur kəlamından tutmuş onlarla əsərlərdə biz pulun mənfi -dağıdığı rolunu görmüşük. Satik şairimiz Rüfət Zəbioğlu "Dayının bacıoğluna nəsihəti" şeirində yazırdı:

Qulaq as, yaxşı eşit sən dayının sözlərini,
Ərzəni yazma qələmlə, pozular, yaz pul ilə.
Ağladır dərdli aşiqləri hönkür-hönkür,
Segaha, bəlkə də lap Rasta dönər caz pul ilə.

Təbii ki, romanda cərəyan edən hadisələr təkcə bu səbəblərlə yox, həm də təsvir olunan obrazların xarakteri, onların bir-birilə qarşılıqlı münasibətləri fonunda diqqəti cəlb edir. Zemfira Məhərrəmli obraz yaratmağı və yaratdığı hər bir obrazın xarakterini açıqlamağı bacarır. O, hadisələrin axınında bu obrazları sanki sınaqdan da keçirir, amma dəyişilmə prosesi baş vermir.Yəni mənfinin mənfiliyə, müsbətin müsbətliyə doğpu irəliləyişini izləyir.

Romanda başlıca personajlar Aynur, Pərviz, Fariz, Yasəmən və Nuradır. Aynurun uşaqları - İlqar və Aysun, Sərdar Qulamov, Həvva nənə və s. epizodik səciyyə daşısalar da, kimlikləri, səciyyələri məlumdur. Amma romanda bu obrazların bir-birilə münasibətləri süjetin əlaqələr zəncirini tamamlayır.

Aynur-Pərviz xətti. Roman bu xətt ilə başlayır və sonda da bitir. Aynur dəyişməz obrazdır ki, öz mənəvi prinsiplərinə axıracan sadiq qalır. Onun üçün sevgi bu dünyada, yaşadığı həyatda, ailə münasibətlərində var olmağın başlıca amilidir. O, sədaqətli, vəfalı Azərbaycan qadınlarının ümumiləşdirilmiş obrazıdır. İndi isə: "Eşqi yalqız qalmışdı Aynurun. Sevginin payızı gəlmişdi deyəsən axı. Ayrılıq ömrünə dolutək yağmışdı. Bu yarımçıq, başa vurmayan sevdanın küləyi acı ruzgarlar kimi yamanca əsmişdi. Artıq onların həyatında bülbüllərin şaqraq nəğmələri, göyərçinlərin ürkək pırıltısı eşidilmirdi. Sən demə, insafsız ayrılıq onları kölgətək izləyirmiş" Məlum olur ki, onların hər biri xaraktercə fərqli insanlarmış. Romanda xatirələrə də yer verilir və bu xatirələr təkcə keçmişi yad etmək deyil, həm də yaşanılan sevginin niyə süqut etməsini və ayrılığın niyə illər keçəndən sonra aralığa sədd çəkməsini anlamaq üçündür. "İndi özünü xoşbəxtlik günəşinin batan, qürub edən şöləsi sanır, nağıllar bitəndə göydən düşən almaya bənzədirdi. Köksündə qaynayan çibanı biryolluq kəsib atmaq, gerçək görünməyə çalışan öldürücü yalanlardan qurtulmaq istəyirdi". Görəsən, qurtulurmu? Biz Aynuru romanın sonuna kimi xəyanəti bağışlamalığını görürük. Onun halına acıyırıqmı? Aynur Zemfira Məhərrəmlinin indiyə kimi öz əsərlərində canlandırdığı qadın obrazlarının ən mükəmməlidir, -deyirik. Çünki onu atıb gedən ər təkcə əxlaqsız yox, həm də ictimai-sosial baxımdan zərərli bir tipdir. Romanda Pərvizin Aynura xəyanəti birdən-birə baş vermir, amma məqamı gəlir ki, o, öz yolunu seçir-bu yol geriyə dönüşü rədd edir. O, həm xəyanət edir həyat yoldaşına, həm də işlədiyi şirkətdə talançılıqla məşğul olur. İdarənin rəisi Qulamov onu bu yoldan çəkindirməyə cəhd edir. O, Pərvizə xatırladır ki, sənin bu



pilləyə yüksəlməyinin əsas səbəbi Aynurun atası olub, "ağız açmadığı müəllim, professor qalmadı sənin üçün... Büdrədiyin yolda səndən ötrü yaşıl işıq yandıranları unutmaq günahdı". Və Qulamov ona xatırladır ki, şeytan sənin nəfsindir. Daha sonra: " Aynuru da incitmə. Belə təmiz qadına xəyanət zəhəri içirtmək, dərd yaşatmaq düz deyil". Görəsən bu danışıqdan sonra Pərviz düz yola qayıdırmı? Yox!. O artıq nəfsinin qulu olmuşdur. Pul, qadın düşgünlüyü, talançılıq ona qalib gəlib. "Qəhr olsun dünyanın milyonlar üstündə vücuda gələn səadəti" - Cəfər Cabbarlının Aydını deyir bunu. Və Pərvizin "milyonlar üstündə vücuda gələn səadəti" baş tutmur. Müəllif bu obrazın ikiləşməsini, eşq-məhəbbət aşiqindən nəfsinin qurbanına çevrilməsini inandırıcı səhnələrlə təqdim edir. Onun Aynurla qarşılaşması səhnəsi hər birinin xarakterini çox aydın şəkildə ortaya çıxarır. Görün, Pərviz öz xarakterini (əslində, xaraktersizliyini) necə səciyyələndirir: "Mənim səndən fərqli olaraq ailə barədə təsəvvürüm fərqlidir. Azadlığı, sərbəstliyi sevirəm. Bir gün bu evdə, ertəsi gün o qadının yanında qalmaq istəyirəm. Axı, o evdə də uşağım var. Mənim uşağım. Burda pis nə var ki? Maddi imkanım çatırsa, həm sizi, həm də o biri ailəmi saxlaya bilirəmsə, niyə də olmasın. Sözümü bir də təkrarlayıb deyirəm ki, bu, dünyanın hər yerində mümkün olan bir durumdur. Doğrudan da, ərəb şeyxlərinə olar, bizə yox?" Onun bu nitqindən məlum olur ki, keçmiş eşq aşiqi indi ailəsinə xəyanət edən müzürr bir tipdir. Pərviz təkcə ailəsinə deyil, milli-mənəvi dəyərlərimizə sayğısızlıq göstərir. Belə insanlar, bu tipli mənəviyyatsızlar yaşadığımız real həyatda da var. Pərvizin pərvizlərə çevrilməsi olmasın gərək! (söhbət romandakı Pərvizdən gedirsə)

Romanda Aynur obrazı bir neçə aspektdə işıqlandırılıb. Onun ziyalılığı - bədii ədəbiyyata hədsiz meyli daxili dünyasının özgürlüyindən gəlir. Əri ilə sərt rəftarı, onu evdən qovması, uşaqları ilə dostcasına rəftarı... bunlar hamısı Aynurun mənəvi dünyasının bəlirtiləridir. O, həmişə yaralanmış könlünü ovutmağa çalışır, amma tənhalığı bitmir. "Həm də anlamışdı ki, təsəlli adında bir şey yoxdur həyatda. Dərdə alışıb onunla yaşamaq var yalnız". Təbii ki, bu dərdlər də qadına, onun sevən könlünə aiddir.

Pərviz-Nra xəttiu. Romanda bu xətt sırf aparıcı olmasa da, hər halda hadisələrin inkişafında az rol oynamır. Məlumdur ki, Nura tipli qadınların obrazları ilə nəsr əsərlərimizdə az rast gəlməmişik. Həm namuslu kişilərin ailə səadətini əlllərindən adan, həm də öz pozğun həyatı ilə diqqəti cəlb edən belə qadınlar da elə nəfsin qurbanıdırlar. Amma nəfs elə əzəldən onların mənəviyyatsız həyat tərzinə hopub.Pərvizlər olmasa, Nuralar da əl-ayaq açа bilməzlər. Nura Pərvizin təkcə "sevgilisi" deyil, həm də talançılıq yoldaşıdır. Pərviz məhz onun vasitəsilə tikintidə mənimsəməyə, rüşvətxorluğu, talançılığa yol verir. Daha doğrusu, iki mənfi bir bir arada birləşir. Lakin sonda Nura da Pərviz kimi maddi və mənəvi tənəzzülə uğrayır. Onun yecanə işıqverən cəhəti uşağını Pərvizin əlindən almaqdı.

Rərvi-Fariz xətti. Bu xətt eyni atanın-ananın öaladlarının bir-birinə münasibətini əks etdirir. Hər ikisi eyni müəssisədə çalışır və məlum olur ki, qardaş olmalarına baxmayaraq bir-birinə düşməndirlər. Halbuki, onları bir-birindən ayıran cəhətlərdən daha çox, bir-birinə oxşar cəhətlər birləşdirir. Hər ikisi talançıdır, fəaliyyət göstərdikləri müəssisədə xalq malını talan edir, pis və keyfiyyətsiz tikinti işləri aparır və pullaşdıqca əxlaqsızlığa da - ikincə dəfə başqa qadınla yaşamağa da yol verirlər. Amma fərqli cəhətlər o zaman baş verir ki, iki mənfi insan bir-birinin ayağını basır - biri digərini yox etməyə çalışır. Bu "mübarizədə" Pərviz "qalib" gəlir. Şirkətdəki mənimsənilən pulların yerini doldurmaq üçün Fariz bütün var-yoxunu, evini-eşiyini, maşınını satmalı olur.

Əlbəttə, roman İŞIĞIN qələbəsi ilə bitir. Bu İşıq həyatın, reallığın özündən gəlir. Cəmiyyətimiz heç də Pərvizlərin, Nuraların, Farizlərin yaratdığı mikro aləmlərdən ibarət deyil. Ona görə də bu mikroaləm süquta uğramalıdır. Zemira Məhərrəmli belə bir fikri təlqin edir ki, həyatımızda yaranan bu bəd əməllər, bir sıra vəzifə sahiblərinin talançılıq meyllşəri, mənəvi pozğunluqları gec-tez öz cəzasını almalıdır. Pərvizin son anda düşündüklərinə diqqət edin: "Haram yolla əldə etdiklərimin bədəli nə vaxtsa ödənməliymiş . Sən demə, insanın özünə elədiyini, el yığışsa, edə bilməz. Od düşdüyü yeri yandırarmış. Demə, həyatımın qarğasalı dövrü çatıbmış. Verdiklərini alan, kimlərisə ucaldıb zirvəsindən salan dünyaya lənət olsun" Amma dünyaya yox, özünə lənət oxumalıydı Pərviz.

Romanı beləcə oxudum, başa çatdırdım. Arzu edirəm ki, Zemfira Məhərrəmli roman janrında yeni, daha maraqlı nümunələr yaratsın. Öz romanlarında ictimai həyatın, bugünkü müəəqillik illərimizin mənzərələrini canlandırsın Ona bu yolda uğurlar arzulayıram.

Azərbaycanda 32 məktəb və bağçada istilik yoxdur



Noyabrın 15-dən etibarən ölkə üzrə istilik mövsümünə başlanılması ilə əlaqədar təhsil müəssisələrinin hazırlığı istiqamətində müvafiq tədbirlər həyata keçirilib. Hazırda bu istiqamətdə işlər davam etdirilir.

MÜTDA-dan Adalet.az-a verilən xəbərə görə, hazırlıq işləri çərçivəsində təhsil müəssisələrinin istilik sistemlərinin mövcud vəziyyəti araşdırılıb, müvafiq qurumlarla birgə qazanxana və istilik sistemlərinin texniki sazlığı yoxlanılıb.

Aşkar edilən və yarana biləcək nasazlıqların aradan qaldırılması istiqamətində zəruri addımlar atılıb.


Bildirilib ki, hazırda 214 məktəb, 151 məktəbəqədər təhsil müəssisəsində istilik təminatı mərkəzləşdirilmiş şəkildə təşkil olunur. Odun yanacağından istifadə edən bütün təhsil müəssisələrində pellet yanacağına keçid təmin edilib, ümumilikdə 1438 müəssisə üçün 9209 pellet sobası təchiz olunub.

Qeyd edilib ki, 176 təhsil müəssisəsində qazlaşdırma işlərinə başlanılıb. Onlardan 144-də işlər tamamlanıb, 32 müəssisədə isə davam etdirilir. Qazlaşdırılma prosesi yekunlaşmayan 32 müəssisədə alternativ istilik təmin edən avadanlıqlar vasitəsilə istilik təmin edilməkdədir.

"Bununla yanaşı, cari ildə 743 təhsil müəssisəsində istilik sisteminin təmiri həyata keçirilib.

İstilik mövsümü ərzində gündəlik əsasda yarana biləcək texniki problemlərin operativ həlli, təhsil müəssisələrininin mövcud istilik sistemlərindəki nasazlıqların aradan qaldırılması məqsədilə regionlarda aidiyyəti qurumlarla birlikdə xüsusi qruplar yaradılıb. Daxil olan müraciətlər qeydiyyata alınır, təhlillər aparılır və qısa zamanda həlli istiqamətində müvafiq addımlar atılır.

Təhsil müəssisələrində istilik təminatının dayanıqlı təşkili, mövcud çatışmazlıqların aradan qaldırılması və istilik mövsümü ərzində yarana biləcək problemlərə vaxtında müdaxilə edilməsi istiqamətində tədbirlər mövsümboyu davam etdiriləcək", - məlumatda deyilir.



BAYAT

№ 102 (962)



Bu dünyadan Ənvər Əhməd keçdi



Ənvər ƏHMƏD
Filologiya üzrə fəlsəfə doktoru

Bu zülmü mənəm ki çəkirəm, ana!

**Yoxluğun əriyib gözümdən axdı,
Ölümün öldürdü mən qara baxtı.
Hönkürüb, hönkürüb bu gecə vaxtı
Qəbrini bağrıma bükürəm, ana!**

**Donub ruhum, canım sal buza dönüb,
Taleyim kor olub, ulduzum sönüb,
Üstümə bir dünya ağrılar enib,
Dağ kimi önündə çökürəm, ana!**

**Ağrınam, acınam, sızlar yaranam,
Bağrımın başında bir damla qanam,
Qıymazdın bu sayaq alışıb yanam,
Bu məhşər odudu, çəkirəm, ana!**

**Tanrım bu dərd-qəmi ömrümə yazdı,
Diriykən yanında qəbrimi qazdı,
Bu ağrı, bu acı bəlkə də azdı,
Qan-yaşdı gözümdən tökürəm, ana!**

**Ənvər gecə-gündüz qarğar fələyi,
Dönməz bu ölümə şair ürəyi,
Qəbrinin üstə ki, otu, çiçəyi,
Vallah, göz yaşımla əkirəm, ana!**

Gəlmişəm

**Xocalı adlı balamı,
Qana bələyib gəlmişəm.
Uçurub könül qalamı,
Canımı oda sərmişəm.**

**Göz yaşım daş üstə bitib,
Şuşa boyda ömrüm itib.
Yaram məni boyda ötüb,
Dərdi gözümlə dərmişəm.**

**Yazım açmadı bir çiçək,
Dərdim qanımda bitəcək.
Ömrüm canımda itəcək,
Yaram üstə söz sərmişəm.**

**O daş yollar məni yedi,
Fələk səbr et, döz-döz dedi.
Gördüm Vətən can üstədi,
Bir də baxım göyərmişəm!**

Ağlayır

**Ötsün asta-ata segah, şikəstə,
Od yağdı Vaqifin qəbrinin üstə,
Dağıldı yurd-yuva, torpağım xəstə
Qan sızır yaramdan gözüm ağlayır.**

**Yas tutdu Natəvan, hönkürdü Bülbül,
Olub Qaryağdının naləsi dil-dil,
Yoxdur Qarabağım, fəryad et könül
Sönüb od-ocağım, gözüm ağlayır!**

**Gəzdiyim oylaqlar geyindi qara,
Çəkildim Şuşada gözümdən dara
Vuruldu sinəmə əbədi yara,
Bulaqlar üstündə izim ağlayır.**

**Ay Ənvər, fələyin min bir oynu var,
Hanı gurşad səsli, qartallı dağlar,
Elə bil yoxmuş o gözəl çağlar,
Uçdu qəsri qallam, sözüm ağlayır!**

Bilmirəm

**Geyib ayağıma bu sərt yolları,
Arzumun səddinə çata bilmirəm.
Bu boyda dünyanın ağırlığını,
Götürüb çiynimdən ata bilmirəm.**

**Öldü bu dünyanın gədası, şahı,
Nəydi dəlilərin günahı, ahı?!
Dünya inqə deyir, anası zahı,
Ləlimi, gümüştək sata bilmirəm!**

**Bir ovuc torpaqda bir dünya dərd var,
Canımın gözündə qan damar-damar.
Fələk ömrümüzlə oynayır qumar,
Başımı heç nəylə qata bilmirəm!**

**Zaman daşa basdı, qəddimi əydi,
Taleyin yumruğu başıma dəydi.
Neynim, aman Allah, axı, bu nəydi,
Yaramın üstündə yata bilmirəm!**

**Ənvər, bu ağrıyla bağrın talandı
Beləmi yazılıb, tanrımın andı?
Canım çırtdaq-çırtdaq od tutub yandı,
Qəvvasam, dərdimdə bata bilmirəm.**

Sən olum

**Göy qurşağı üzüyünün qaşıdır,
Buz bulaqlar gözlərinin yaşıdır.
Baxışın könlümün məhək daşıdı...
Ərit məni gözlərinin odunda...**

**... Ya ömrünü ömrüm ilə başa vur,
Ya ömrümü tufana sal, daşa vur.
Ya bahar ol, gül üstündə şeh olum,
Ya könlünü sərinlədən meh olum.**

**Ya günəş ol, zərrəciyin olum mən,
Ya payız ol, yanağında solum mən.
Ya səhər ol, qızıl nurtək çilənim,
Ey qədrimi insan kimi bilənim!**

**Ya nəğmə ol, qəlb oxşayan söz olum,
Ya alov ol, qor altında köz olum.
Ya zirvəm ol, duman olum, çən olum!
Ya dünyam ol, mən sənləşim, sən olum!**

İtir

**Ömrüm bu yollarda itir,
Ağla məni gültək bitir,
Öldür məni yerdən götür,
Sıxma məni qanım çıxır.**

**Özüm özümdən düşmüşəm,
Küləm közümdən düşmüşəm.
Yaman gözümdən düşmüşəm,
Budaqla yarpaq kimiyəm
Bir ovuc torpaq kimiyəm.**

**Əlim çatmaz keçən günə,
Ürəyimdən keçən günə,
Dərd-qəmimi seçən günə,
Allah, bu səs, bu ün mənəm,
Dünənim yox, bu gün mənəm!**

**Üzüm-gözüm qırış-qırış,
Tale deyir: et yır-yığış,
Yaman soyuq gəlir bu qış,
Qaraltma sən gəl qanımı,
Özün oxu Quranımı!**

**Ölüm-olum arası az,
Dünya gödək, qəbir dayaz.
Ənvər şeiri dərdinlə yaz,
Dünya sığmır dünyasına
Dünya ağlar öz dünyasına.**

Kimi

**Bu dünyanın üzü qara
Gecə üzündə xal kimi
Ölüm-itim, hamısı var
Bu həyat bir xəyal kimi.**

**Baş kəsilir, qan tökülür
Gedirəm, dizim bükülür.
Tanrının evi sökülür
Keyləşmişəm bir lal kimi.**

**Kim köç edir, kim yurd seçir,
Fələk enib kəfən biçir,
İnsan ağlı qanın içir,
Qalmışam bir sual kimi.**

Ömrümə

**Göz yaşımla bitən gülsən,
Dil-dil olub ötən dilsən.
Bəlkə bir bulud gölüsən
Yağış kimi yağ ömrümə.**

**Kipriyimin ucunda qəm,
Gözüm dolu, kədər, ələm.
Doğulmaram hələm-hələm,
Çəkmə, çəkmə dağ ömrümə.**

**Səhər köçdü, axşam düşdü,
Ayaq dünyadan sürüşdü.
Fələklər baxdı, gülüşdü
Mənim üzü ağ ömrümə.**

**Dərk et, ömür əfsanədir,
Gülləri seç, ara bir-bir.
Dur get Quran xətm elətdir,
Baxa-baxa sağ ömrümə.**

Bu gecə

**Bu gecə nə gözəl gecədir, könül,
Bu gecə ay necə bədirlənibdir.
Dünya süd gölündə çimir elə bil,
Elə bil üfüqlər yerə enibdir.**

**Gecə ağ duvaqlı nazlı gəlintək,
Açıb saçlarını yuyur sularda.
Yaylıqtək asılıb ağacdan külək,
Dünya nə gözəlmiş bu ilk baharda...**

**Bəlkə ikimizik dünyada oyaq,
Bəlkə bu gecənin gəlişi haqdır.
Sən mənə səhərin gözləriylə bax,
Bəxtim günəş kimi doğulacaqdır.**

**Ulduzlar torpağa tökülür dən-dən,
Çiçək yağışında yuyulur gecə.
Torpağın əliylə yazıla bilən
Gözəl şeir kimi duyulur gecə.**

**Uzansın bu gecə... Sökülməsin dan,
Bu gecə huşumu başımdan almış,
Utansın bu gecə yanaqlarından,
Bu gecə üzündə bir qara xalmış...**

Sən ölsən, gözlərində...

**Gözlərin tabutumdur,
Göz yaşında yu məni
Bəlkə nə vaxtsa doğub,
Gözündəki su məni.**

**Bir damla göz yaşına,
Qərq eləmə özünü.
Ağlama, buludların,
Ahı tutar gözünü!**

**Sənin günəş üzündə,
Zülmət buzum əriyər.
Mənim kür, çılğın könlüm,
Gözlərində kiriyər!**

**Sən ölsən, gözlərində
Şair qəbri qazılmaz.
Sənin cəllad gözünə,
Bir də şeir yazılmaz.**

Üşüyür

**Bu bir tanrı qarğışıdı,
Dərdim canımın yaşıdı,
Dondum, ömrümün qışıdı
Əzabım, cəbrim üşüyür.**

**Batmamışam günahıma,
Allahım batar ahıma.
Alov tökün görgahıma,
Yetimdi, qəbrim üşüyür.**

**Boğdu məni bu dərd-ələm,
Nəsə yaman tələsirəm.
Qultək dərdimə əsirəm,
Tələsir, səbrim üşüyür.**

Çəkinə-çəkinə

**Bir az çəkinə-çəkinə
Mən səni atdım
Yoxluğun içinə.
Daha dünənki
Gün kimi yoxsan,
Sabaha çatmaz əlin
Əriyər gözündə
Yoxluq heykəlin.
Sındı qanadın,
Gedişin getdi,
Gülüşün itdi.
Üç nöqtə qoyuram,
Bu şeirim bitdi...**

Barışdı

**Eh əcəlin gözü kordu,
Kor gözüylə məni yordu.
Hər bir kəsin sonu kordu,
Yaram canıma darışdı.**

**Ha qaçdım mən ora-bura,
Dözdüm bu sərt vurhavura,
Loğmanım yox, ruhum yara,
Ömrüm əzabla barışdı.**

**Dərd-qəmimə bata-bata,
Sarındım ilan həyata,
Vaxt çürütdüm yata-yata.
Qanım dərdimə qarışdı.**

**Kim yoğurdu, kimsə yaptı,
Kimi yağlı kökə tapdı,
Həyat yolu çapa-çapdı,
Ram ol, könül bu yarışdı.**

Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə 44 günlük "Vətən Müharibəsi"ndə qazanılmış tarixi qələbə, Ermənistan tərəfindən törədilmiş sülh və insanlıq əleyhinə cinayətlər, habelə müharibə cinayətləri ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması

№ 44 (2516) 20 noyabr 2026-cı il

Azərbaycan Respublikası
Media və Yayım Şurası



HEÇ BİR ÖLKƏ 44 GÜNDƏ BELƏ MÖHTƏŞƏM QƏLƏBƏ QAZANA BİLMƏYİB



Dünya tarixində o qədər müharibələr olub ki, saymaqla qurtarmaq olmaz. Məsələn, yüzillik müharibə İyirmi beşillik müharibə Yeddillik müharibə Beşillik müharibə Bu müharibələrdə nə qədər qəsəbələr, şəhərlər, kəndlər dağıdılıb, nə qədər insan öldürülüb. Bəlkə də dünyada ən böyük şeytan, ən böyük iblis, müharibə edən, şəhərləri, kəndləri dağıdan, insanları gözüyaşlı qoyan qaniçən dövlət başçılarıdır. O dövlət başçılarından birinin adı Hitler də olub, Napoleon da olub və başqa rəhbər şəxslər də. Amma görünən odur ki, onlar şəhərləri, kəndləri, qəsəbələri dağıtsa da bu, cəzasız qalmayıb. Çünki həmin adamlar da necə ölüb onu heç yaxınları da bilmir. Üstəlik də həmin qaniçən, qəddar diktatorların nəslindən bir adam belə yoxdur. Çünki onlar lənətlənmiş və qarğışlanmış dövlət başçılarıdır.

Nə isə, keçək əsas məsələyə. Yəni Azərbaycanın İkinci Qarabağ savaşında apardığı 44 günlük möhtəşəm döyüş yoluna. Həmin döyüş yoluna nəzər salanda biz nələri görürük? Biz Ali Baş Komandan, prezident İlham Əliyevin qətiyyətini, Azərbaycan əsgərinin döyüşkənliyini, xalqımızın bütövlüyünü və birliyini görürük. Bizim xalq, bizim millət həmişə çətin gündə, ağır gündə birləşməyi bacaran xalqdır. Biz bunu 20 Yanvar hadisələrində, Xocalı faciəsində və eləcə də digər gözüyaşlı günlərimizdə görmüşük. Bu xalq o xalqdır ki, əliyalın rus tanklarının qabağına çıxdı və özünün müstəqillik yolunda ilk addımını atdı. Yəni şəhidlərini verib yeni bir tarix yazdı. Bu, həmin xalqdı!

Bax, ordan başlayan yol zaman-zaman gəlib Qarabağa çıxırdı. O Qarabağa ki 30 ildən çox erməni işğalı altındaydı. O Qarabağa ki onun dağları, meşələri, çayları, ormanları, gülləri, çiçəkləri ağı deyib ağlayır və bizi gözləyirdi. Biz 30 il səbr etdik, dözdük, dedik ki, bəlkə beynəlxalq hüququn müstəvisində bu məsələlər həll olunar. Düşündük ki, BMT-nin çıxartdığı 4 qətnamə nə vaxtsa icra olunar. Çox təəssüf ki, nə dünya birliyi, nə də Birləşmiş Millətlər Təşkilatı bizə kömək etmədi və öz çıxartdığı qətnaməsini icra etmədi.

Ona görə də Ali Baş Komandan İlham Əliyev bütün məsuliyyəti öz üzərinə götürdü, 2020-ci il sentyabrın 27-də Azərbaycan Ordusuna əks hücuma keçmək haqqında əmr verdi. Bu əmri ordumuz və xalqımız düz 30 iliydi gözləyirdi. Dəstəylə maşında döyüşə gedən əsgərlərimiz sanki toy-bayrama gedirdilər. Onların çöhrəsində qorxudan əsər-əlamət yox idi. Əksinə, döyüşə gedən əsgərlərimizin sifətində ruh yüksəkliyi, döyüşkənlik, əzmkarlıq hiss olunurdu. Bunların hamısını mən özüm görmüşdüm və şahidi idim. Və bu əsgərlər yalnız döyüş bölgələrinə qələbə üçün gedirdilər. Maşınlarda və ağır texnikalarda Horadiz şəhəri istiqamətinə hərəkət edən döyüş karvanlarında olan əsgərlərimiz elə bil ki, qələbənin bir addımlığında dayanmışdılar.

Bəli, onlar həqiqətən də qələbənin bir addımlığında idi. Çünki sentyabrın 30-na qədər həm Füzulinin, həm də Cəbrayılın ona yaxın kəndi, eləcə də yüksəkliklər erməni işğalından azad olunmuşdu. Və həmin yerlərə Azərbaycan bayrağı sancılmışdı. Azərbaycan əsgərinin heç bir qüvvə, heç bir güc, heç bir silah qarşısını ala bilmirdi. Çünki onlar qələbənin sevincini və dadını hiss etmişdilər. Hiss etmişdilər ki, hər kənd, hər qəsəbə, hər şəhər uğrunda döyüş onları böyük qələbəyə aparır.

Həmin dövrdə bizim qəzetin əməkdaşı Emin Piri də Cəbrayıl və Füzuli istiqamətində döyüşürdü. Onunla dəfələrlə telefon əlaqəsi yarada bildim. Hər dəfə də Emin qardaşımız deyirdi ki, Füzulinin, Cəbrayılın hər daşı, hər qayası, hər ağacı bizim üçün müqəddəsdir. Biz hər qarış torpağı erməni işğalçılarından azad edəndə, Allaha and olsun, o torpaqdan əyilib öpürdük. Elə bilirdik anamızı öpürük. Axı Ana da Vətəndir, Vətən də Anadır!

Bir dəfə hücuma keçərkən biz mühasirəyə düşdük. Saatlarla döyüşdük, amma ümidimizi itirmədik, biz bilirdik ki, Azərbaycan ordusu 90-cı illərdə olan ordu deyil, bizə kömək gələcək və biz mühasirədən çıxacağıq. Bax, həmin anlarda bizim köməyimizə xüsusi təyinatlılarımız gəldi. Artıq patronlarımız da tükənirdi, amma səbrimiz və ümidimiz tükənmirdi. Bir də gördük ki, ermənilərin mövqeyi xüsusi təyinatlılarımız tərəfindən darmadağın edildi. Ölənlər öldü, qaçanlar da heç qaça bilmədi, onları da xüsusi təyinatlılarımız it kimi gəbərtdilər. Biz mühasirədən çıxmağı bacardıq və yenidən xüsusi təyinatlılarımızın azad etdiyi yüksəklikdə dayandıq. Hava soyuq olsa da içimizdəki Vətən sevgisi, Vətən məhəbbəti, qələbəyə gedən yol bizi üşüməyə qoymurdu. Bizi üşüməyə qoymayan həm də böyük qələbəyə olan inamımız idi.

Emin Piri həm də o vaxtlar deyirdi ki, mən dostlarıma və evdəkilərə söz vermişəm ki, Şuşanı azad edəcəyəm. Bəli, mən Füzulinin, Cəbrayılın, Zəngilanın, Qubadlının, Hadrutun azad olunmasında bir Azərbaycan zabiti kimi nəyi bacarırdımsa onu elədim. Yəni mən son ana qədər əsgərlərimizin yanında oldum. Biz Şuşaya qədər gedib çıxdıq. Şuşa döyüşü isə daha dəhşətli idi. Burda bir neçə yaxın dostumuzu itirdik. Onlar işğal altında olan torpaqlarımızı qaytardılar, ancaq özləri qayıtmadı. Amma içi mən qarışıq bütün əsgərlərimiz və zabitlərimiz Vətənə olan borcumuzu qaytara bildik. Elə gün olurdu ki, ac-susuz qalırdıq, bəzən üç-dörd gün su tapa bilmirdik, amma bu ümid bizi böyük qələbəyə qovuşdurdu və sevinci bizə yaşatdı.

Azərbaycan xalqının İkinci Qarabağ savaşında möhtəşəm qələbəsi onu deməyə əsas verir ki, bizim ərazi bütövlüyümüzə, dövlətçiliyimizə zərbə vurmaq istəyən bütün xarici qüvvələr həmişə belə bir dərs alacaq. Çünki Azərbaycan Ordusu bu gün dünyanın ən güclü, ən qüdrətli və ən döyüşkən ordusudur. Azərbaycan əsgəri Vətənin azadlığı yolunda, müstəqilliyi uğrunda ən ağır döyüşlərə belə həmişə hazır olub və bu gün də hazırdır. Eşq olsun Azərbaycan Ordusuna!

Emil FAİQOĞLU

AZƏRBAYCAN RESPUBLİKASI
MEDİA VƏ YAYIM ŞURASININ MALİYYƏ YARDIMI İLƏ



Aydın BAĞIROV

Məsuliyyətsizlik başqa nə cür olur?!

Bakıya güclü yağış yağır, futbol meydançasını su basır.

Drenaj sisteminin zayı elə çıxıb ki, suyu kənarlaşdıra bilmir.

Nə top hərəkət edə bilir, nə topu qovan oyunçu. Di gəl, oyuna icazə verilir.

Özü də harada? Gölməçədə!

Məsuliyyətsizlik başqa nə cür olur?!

Diz, topuq, əzələ zədələrinin, kəllə-beyin travmasının olacağı kiminsə ağlına gəlirmi?

Oynayanlar isə 15 yaşlı uşaqlarımızdır.

Sonra dünyadan bixəbər o 15 yaşlı uşaqdan tələb edirik ki, bəs, Əfqanıstan komandasına niyə qalib gəlmirsən?

Necə qalib gəlsin? Hansı infrastrukturla? Hansı futbol idarəetməsi ilə?

****

Futbolumuzun sabahı olacaq komandalar sanki bir-biri ilə sözləşibmiş kimi, dünən, eyni gündə hər biri öz qapısından 7 top buraxaraq məğlub olur.

U-17 millisi Almaniyaya 0:7 hesabı ilə uduzur.

U-19 millisi Monteneqroya 2:7 hesabı ilə...

5, yaxud 7 top fərqi ilə uduzan təkcə milli komandalarımız deyil.

"Sabah"ın gənclər komandasının avropalı həmyaşıdları ilə bu mövsümkü oyunlarının acınacaqlı tablosuna da diqqət edin: 4 oyun, 4 məğlubiyyət, vurulan qol sayı 0, buraxılan qol sayı 15...

36 komanda arasında 36-cı yer.

Yaxud o biri öncül klubumuz "Qarabağ". Ötən mövsüm Çempionlar Liqasında oynayanda elə onların gənclərinin də nəticələri aşağı-yuxarı bu gündə idi.

Və əlbəttə, bir ildə yaxşıya doğru nəsə dəyişməyib. Keçən həftə "Qarabağ"ın U-19-u Zaqrebdə "Dinamo"ya 7 cavabsız top buraxaraq məğlub oldu.

Belə sabah və belə at oynatmaq olarmı?

Azərbaycan futbolunun təkcə son 1 həftədə keçirdiyi 4 oyunun kədərli göstəricisidir bunlar. Bu 4 oyunda milli və klublar səviyyəsində cəmi 3 qol vurmuşuq, düz 26 qol buraxmışıq.

Yəni...

Nə qələbə var, nə heç-heçə.

Nə hücum var, nə müdafiə.

Nə futbol var, nə futbolçu.

Necədir?

Xaliq Tağıyev: "Heç bir qadın atamın şıltaqlığına dözməzdi"



Mərhum bəstəkar Ələkbər Tağıyevin oğlu Xaliq Tağıyev atasının "Sən gəlməz oldun" mahnısının gətirdiyi qazancdan və atası ilə anasın münasibətlərindən danışıb.

Adalet.az xəbər verir ki, bəstəkarın övladı indiki maddi vəziyyətindən və anasının fədakarlığından söz açıb:

"Hələ illər əvvəl atam deyirdi ki, mən olmayanda da mənim hesabıma yaşayacaqsınız. Həqiqətən elədir. Doğrudan da mən atamın hesabına yaşayıram. Onun mahnılarının qonararını varis kimi mən alıram. Bu heç kəsə sirr deyil ki, təkcə "Sən gəlməz oldun" mahnısı mənə 1milyon dollar pul qazandırıb.

Bütün qazanılan məbləğın vergisini ödəyirəm. Türkiyədə də müqaviləm var. Pullar orda yığılır. Qeyd edim ki, 20% vergi ödəyirəm. Bunun 10%-ni Bakıda, 10%-ni isə Türkiyədə ödəyirəm. İldə 4 dəfə pul götürürəm".

Bəsətkarın övladı atasının şəxsi həyatı ilə bağlı da bəzi məqamları dilə gətirib:

"Atam həmişə deyirdi ki, məni Ələkbər Tağıyev edən həyat yoldaşım Almazdı. Heç bir qadın atamın şıltaqlığına, çılğınlığına dözməzdi. Ancaq anam ailəsini qorudu, atamın bütün çətin xasiyyətlərinə göz yumdu. Çünki anam ailəsini, övladlarını çox sevirdi. Həmişə deyirdi ki, Ələkbər necə deyir elə olsun. Onun heç vaxt qəlbinə toxunan bir ifadə belə işlətmirdi. Atam həmişə anama böyük hörmət edib".

Əntiqə

"Teatr festivalı teatrın bayramı deməkdir.İnsanların bir neçə ölkələrin tamaşalarını izləmək şansı olur. Arzu edərdim ki, doğma vətənimizdə də belə festivallar tez-tez olsun. Əlbəttə, yaradıcı insan belə tədbirlərdən zövq alır. Ankarada keçirilən 18-ci "Ethos" beynəlxalq teatr festivalına fəxri qonaq kimi dəvət olunmuşdum. Orada ölkəmizi yeganə olaraq mən təmsil edirdim. Həmin festivalda mənə necə böyük dəyər verilidyini gördüm. Bu diqqət bir aktyor kimi məni məmnun etdi. Aktyor dövlətdən dəyər, tamaşaçıdan isə diqqət görəndə özünü xoşbəxt hesab edir. Bu doğrudan da belədir.

Festivalın açılış poqramında Almaniya, Türkiyə ilə yanaşı mənim də səhnə çıxışım oldu. Mən həmin festivalda Əməkdar artist Qurban Məsimovun müəllifi və rejissoru olduğu "Maneə" tamaşası ilə tamaşaçıların qarşısına çıxdım. Orda həmin tamaşanı tamaşaçıların böyük zövqlə izlədiyini əminliklə deyə bilərəm. Tamaşadan sonra mənə festivalın fəxri qonağı mükafatını təqdim etdilər. Mən bu mükafatı təkcə öz adıma deyil, düşünürəm ki, bütün Azərbaycan adına aldım".



Bu sözləri Adalet.az-a açıqlamasında Əməkdar artist Elman Rəfiyev deyib.

Əməkdar artist:

"İşsiz olmağımdan həmkarlarımın xəbərləri yoxdur"

Aktyor artıq 2 ildir yaradıcılarından biri olduğu Dövlət Pantomima Teatrından ayrıldığını söyləyib:

"Düşünürəm ki, aktyorun ən çox istirahət etdiyi məkan səhnədir. Razıyam, aktyor orda yorula bilər, tükənə bilər, bəzən usana bilər. Ancaq bütün bu çətinliyin içindən sənətçi özünü yenidən kəşf edir. Təsəvvür edin, ömrünü teatra həsr edən bir adam, öz həmyaşıd həmkarları ilə əl-ələ verib teatr yaradan bir adam indi işsizdir. İllərini bu sənətə həsr etmiş adamın birdən- birə səhnəsiz qalması onun mənəvi faciəsi deməkdir.

Bundan da pis məqam odur ki, digər teatrların Elman Rəfiyevin işsiz qalmasından xəbərləri yoxdur. Hansı həmkarım bu xəbəri eşidirsə, deyir ki, bilməmişik. İndi xəbərimiz olur. Halbuki dəfələrlə mediada bu barədə yazılar dərc olunub. Burdan belə qənaetə gəlmək olar ki, incəsənət adamları da bir kənara çəkilirlər. Artıq onlar da kənarda baş verənlərlə maraqlanmaq istəmirlər.

Bu xəbəri eşidənlərdən yalnız Firudin Məhərrəmov məni Sumqayıt Dövlət Dram Teatrında işləməyə dəvət etdi. Lakin yaşayış yerimlə bağlı həmin teatrın dəvətini qəbul edə bilmədim. Onun bu təklifini yüksək qiymətləndirib, ona təşəkkür etdim.

Mən olduqca işgüzar aktyoram. Sözün əsl mənasında peşəsini sevən sənətçiyəm. Mən özümə dəyər verirəm, çünki kim olduğumun fərqindəyəm. Yaşıdlarım arasında canlı əfsanəyəm. Çünki ömrünün cavan çağında bir dövlət teatrının yaradıcılarından biri olmaq hər aktyorun bacaracağı iş deyil. O teatrda çalışdığım illər ərzində onlarla ölkədə Azərbaycanı təmsil etdim.

Pantomima teatrından ayrılanda təxminən 2-3 saat mənim üçün ağır gəldi. Ondan sonra hər şeyi zamanın axarına buraxdım. Çünki zaman ən gözəl xəlbirdir. Çox insanları və bir çox hadisələri zaman öz ələyindən keçirib.

E.Rəfiyev fəxri adların ləğv olunması ilə bağlı da fikrini bildirib. Aktyorun fikrincə, bu kimi adlar sənətçilərin stimul mənbəyi hesab olunur:

"Əlbəttə, bu zaman ərzində məşğuliyyətsiz qalmadım. Ramiz Həsənoğlu məni AzTv-yə "Fatehlərin divanı" serialına kasting rejissoru kimi dəvət etdi. Ancaq onu deyim ki, insan hardan qazanc əldə edirsə etsin, dövlətdən aldığı aylıq gəlir olmayınca bütün qazandığı maddi vəsaiti yetərsiz hesab edirəm.

Sözsüz ki, bu illər ərzində dövlətdən maddi və mənəvi dəstək görmək mənə bir aktyor kimi stimul verib. Cənab prezident İlham Əliyev məni mənzillə təmin etdi, Respublikanın Əməkdar artisti fəxri adına layiq görüldüm.

Sonra aidiyyatı qurumlar bildirdi ki, "xalq artisti" fəxri adı ləğv olunsun. Bu fəxr adlar sənət adamı üçün böyük stimuldur axı. Bu adların ləğv olunmasının birbaşa əleyhinəyəm. Axı aktyor səhnəni sevir, həyatını mənəvi dəyərlərə bağlayır. Böyük məbləğdə maddiyyat qazana bilmir. Düşünür ki, dövlət də onun qayğısına qalacaq. Düşündüyünü zamanla görməyəndə sarsılır. "Xalq artisti" adına layiq görülmək yaşıdlarım arasında mənim də haqqım idi. Mən bunu qazanacaq qədər əziyyət çəkmişdim. Amma o ad mənə verilmədi.

Xalq artisti Afaq Bəşirqızının ölkə başçısı ilə məlum məşhur çıxışından sonra aktyorların əmək haqqıları qaldırldı. Ancaq bununla yanaşı, hər şeyin qiymətində yüksəliş oldu axı.

Çox inanıram ki, doğma vətənimizdə aktyorlar da rahat şəraitdə yaşayacaqlar. Ömrünü sənətə, səhnəyə, tamaşaçıya həsr edən sənətçilərin ən böyük haqqı budur".

Əntiqə KƏRİMZADƏ

Əməkdar artist: "Düşünmədən bu təklifi qəbul edərdim"



"Arzular sonsuzdur. Bir insan yaradıcıdırsa, əlbəttə , onun arzuları daha çoxdur. Ancaq arzuların da ölçüsü var axı. Böyük arzular, kiçik arzular Ən böyük arzumu isə dilə gətirmək istəmirəm. Çünki bir inancım var ki, arzuları dilə gətirəndə çin olmur".

Bu sözləri Adalet.az-q açıqlamasında Əməkdar artist Səbinə Hacıyeva deyib. Aktrisa ifa etmək arzusunda olduğu obrazlardan danışıb: "Yaradıcılığımla bağlı arzularım tükənməzdir. Axı yaradıcı bir insan niyə fəaliyyətində yenilik düşünməsin. Səhnədə olduqca maraqlı, məsuliyyət tələb edən obrazlar canlandırmışam. Ancaq teatr səhnəsi üçün iki obrazın arzusundayam- "Karmen" və "Marqarita".

Amma bu əsərlər o qədər zəhmət və diqqət tələb edən əsərlərdir ki, təkcə o rolu ifa etmək yox, hətta həmin tamaşanın quruluşçu rejissoru olmaq istəyərəm. Mən həmin obrazlarda qadın xəttini daha fərqli formada görürəm. Düşünürəm ki, kimsə onu etməsə, o əsər tamaşada tam görünə bilməz.

Çox arzulayardım ki, teatr fəaliyyətimdə aktrisa ki, bu iki obraz da yer alsın. Möhtəşəm obrazlardır. Hər bir aktyor öz poetensialını bilir. Mən özümə əminəm. Bilirəm ki, bu tamaşaları mükəmməl yarada bilərəm. Kinoda isə daha çox tarixi qadın obrazlarını sevirəm. Düşünürəm ki, vizual olaraq həmin obrazları tamamlayıram. Döyüşçü qadın obrazların çox sevirəm.

Məsələn, "Tomris"i məmnuniyyətlə yaradardım. Cəsur döyüşçü qadınları görmək insana zövq verir. Özümü kinoda "Tomris" kimi təsəvvür etmək belə çox gözəldir. Və yaradıcılıq arzularıma nağıllar da daxildir. Əgər nağılların motivləri əsasında filmlər çəkilsəydi və mənə obraz təklif olunsaydı, heç düşünmədən bu təklifi qəbul edərdim. Ancaq xarakterik obraz olmasını istəyərəm. Ən çox sevdiyim nağıl qəhrəmanı isə "Küpəgirən qarı"dır. Bir aktrisa kimi çox arzulayardım ki, həm tarixi kinolar, həm də nağıllardan ibarət filmlərimiz daha çox olsun. Düşünürəm ki, bu mövzuda çəkilmiş filmlər tamaşaçını daha çox maarifləndirir".

Əntiqə

"Az Group Sığorta Agentliyi" MMC-yə verilmiş 16 May 2019-cu il tarixli, SA-0150 nömrəli lisenziya itdiyi üçün etibarsız sayılır.

****

Zeynalov Eldəniz Famil oğlunun adına Müdafiə Nazirliyinin Şəxsi Heyət Baş İdarəsi tərəfindən verilmiş 088982 nömrəli vəsiqə itdiyi üçün etibarsız sayılır.

"Ədalət" qəzetinin kollektivi **Rəşad Məcidə** anası

Yavər xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Aqil Abbas və İradə Tuncay **Rəşad Məcidə** anası

Yavər xanımın

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Məzahir Əhmədoğlu **Rəşad Məcidə** anası

Yavər xanımın

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Faiq Qismətoğlu **Rəşad Məcidə** anası

Yavər xanımın

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Asim Yadigar, Hüseyn Əsgərov, Akif İmanlı, İbrahim Yusifoğlu və Məmməd Tahir qələm yoldaşları, əməkdar jurnalist

Muxtar Məmmədovun

vəfatından kədərləndiklərini bildirir və və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verirlər.

Əbülfət Mədətoğlu əməkdar jurnalist

Muxtar Məmmədovun

vəfatından kədərləndiyini bildirir və mərhumun doğmalarına dərin hüznlə başsağlığı verir.

Təsisçi və baş məsləhətçi: Aqil ABBAS

Baş redaktor: İradə TUNCAY

Qəzet "Ədalət" qəzetinin bilgisayar mərkəzində yığılıb səhifələnmiş və "Son dakika" MMC Nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

Müəlliflərin mövqeyi ilə redaksiyanın mövqeyi üst-üstə düşməyə bilər.

KAPİTAL Bankın 1 saylı Nəsimi rayon filialı. kod: 200112 h\h Müxbir hesab: 0137010001994 S.W.I.F.T. Bik: AIIBAZ 2xhesab N: 38070019411100451111 VÖEN: 1300456161

İndeks:0107 Qeydiyyat nömrəsi 100

Ünvan: Bakı şəhəri, Neftçilər 67, mənzil 21 A

Telefon: (012) 491-23-53

adaletqezeti@rambler.ru

adaletqezeti@mail.ru, adaletqezeti@box.az

Tiraj: 1500

Sifariş: 304

Çapa imzalanmışdır: 19.11.2026